Xalqın qəzeti!

# Xalq qəzeti

№ 148 (30842) 20 iyul 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Milli jurnalistikamız yüksək ideallar məktəbidir



səhifə ⇨ 9

# Azərbaycan həqiqətləri qlobal mediada ucadan səsləndirilir

## III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib




### Prezident İlham Əliyev görüşdə iştirak edib



**İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü olub.**

Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb.

Şuşa Qlobal Media Forumunun artıq ənənəyə çevrildiyini vurğulayan dövlətimizin başçısı gələcəkdə iştirakçıların sayının və coğrafi əhatəsinin artacağına ümid etdiyini bildirib. Dövlətimizin başçısı, həmçinin açıq müzakirələrin vacibliyini qeyd edərək, yalnız media ilə bağlı deyil, qlobal məsələlərin də azad və şəffaf mühitdə müzakirə olunmasının önəmini vurğulayıb.

*(ardı 2-ci səhifədə)*

# Azad Qarabağdan abad Qarabağa yüksəliş marafonu



**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Vətən müharibəsində tarixi ədaləti – ölkəmizin ərazi bütövlüyü və suverenliyini gerçəkləşdirərək yeni inkişaf mərhələsinə qədəm qoyub. 2020-ci ilin şanlı zəfərindən sonra dövlətimiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasını, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qaytarılmasını diqqət mərkəzində saxlayıb.**

Beləliklə, ötən müddətdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri milli iradənin, strateji düşüncənin və xalq – dövlət həmrəyliyinin bariz nümunəsi kimi diqqət çəkib. Qeyd edək ki, 2022-ci ildə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" sözügedən prosesin əsas sənədidir. Proqramın məqsədi işğaldan azad olunan ərazilərdə həyatın yenidən qurulması, dayanıqlı məskunlaşmanın və sosial rifahın təmin olunmasıdır. Sənəd məcburi köçkünlərin mərhələli şəkildə qayıdışının təşkili, müasir yaşayış infrastrukturunun yaradılması, iqtisadi fəaliyyətin canlandırılması və ərazilərin ekoloji cəhətdən sağlamlaşdırılması kimi fundamental vəzifələri əhatə edir.

*(ardı 4-cü səhifədə)*

# Qərbi Azərbaycana Qayıdış Zəngəzur dəhlizindən keçəcək




**XXI əsrin Azərbaycanında dünəndən gələn strategiya gerçək "müharibələrlə" – hərbi, informasiya, diplomatik, humanitar, mədəni və soyuq vuruşlarla tarixləşir, siyasi yaddaşa çevrilir. Bu baxımdan Zəngəzur dəhlizi də delimitasiya, demarkasiya prosesləri ilə vəhdətdə geosiyasi, geoiqtisadi coğrafi ərazi anlamında terminləşir. Bu aspektdən yanaşanda Zəngəzur dəhlizi müasir Azərbaycanın ideoloji-mədəni və beynəlxalq siyasətinin çox vacib hədəfidir. Yəni, bu, torpaq iddiası deyil. Prezident İlham Əliyev söylədiyi kimi: "Məsələ dinc, sülhlə qayıdışdan gedir". Bu dəhliz "yaddaş siyasəti", yaxud "siyasət tarixi" kimi dünənlə bu günün yaddaş körpüsüdür. Zəngəzur dəhlizi tranzit bir İpək yolu, kommunikasiya yolu olaraq regional, hətta qlobal geotəhlükəsizliyin, logistikanın, kommuniaktiv əlaqələrin strateji yol hədəfidir.**

Bəs Zəngəzur sözünün siyasi-tarixi etimologiyası nədir? "Zur" türkcə "dərə", "yarğan" mənasında işlənən car (zar-zur) sözündəndir. Tarixdən məlumdur ki, bölgədə "Tatev monastrı" adlanan köhnə bir kilsə olub. Əmir Teymur buraları fəth etmək istəyəndə, ona varlıların xəbərdar edildiyini və onların qarşısının alındığını deyiblər. Təxribatçılar səhər obaşdan xalqın küçəyə çıxması üçün monqollar zəngi çaldı və xalq, camaat bir-birinə dedi: Güc zəngi (zəngezor) çalındı.

Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə, Megri, Zəngilan, Qubadlı, Laçının bir hissəsini əhatə edir. XX əsrin əvvəlində Zəngəzurda 149 azərbaycanlı, 91 kürd, 81 erməni kəndi var idi. 1905-1907 və 1914-1920-ci illərdə erməni daşnaklarının qırğınları nəticəsində 115 kənd tamamilə yox olmuş, 4472 qadın və uşaq vəhşicəsinə qətlə yetirilmiş, təxminən yarım milyon insan həlak olmuşdu.

səhifə ⇨ 4

# Erməni separatizminin Belçika "sifəti"



səhifə ⇨ 7

# Almaniya və Britaniyanın yeni təhlükəsizlik sazişi



səhifə ⇨ 11

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib









(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev Azərbaycanın qlobal iqlim gündəliyinə verdiyi töhfəni yüksək qiymətləndirib və ölkəmizin ekoloji baxımdan düzgün yol seçdiyini, kömürdən istifadə etmədiyini, elektrik enerjisini əsasən hidro və Günəş enerjisindən əldə etdiyini bildirib. Dövlətimizin başçısı əlavə edib ki, bu sahədə böyük potensial mövcuddur və artıq bir sıra mühüm investisiya müqavilələri imzalanıb.

Azərbaycan Prezidenti Zəngəzur dəhlizinin regional əhəmiyyətini vurğulayaraq, ilkin mərhələdə dəhlizin 15 milyon ton yük potensialına malik olacağını bildirib. Prezident İlham Əliyev əlavə edib ki, Zəngəzur dəhlizi Şimal-Cənub nəqliyyat dəhlizinin yeni istiqamətini yaradacaq.

Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı fəaliyyətsizliyini tənqid edən dövlətimizin başçısı bildirib ki, son beş ildə Ermənistan bu istiqamətdə heç bir iş görməyib və mövzunu qəsdən gündəmdən çıxarır. Azərbaycan Prezidenti vurğulayıb ki, əgər bu yanaşma davam edərsə, Ermənistanın tranzit ölkəyə çevrilmək şansı sıfra enəcək və bu, onu nəqliyyatla yanaşı, siyasi təcridə də aparacaq.

Prezident İlham Əliyev bildirib ki, Qarabağ münaqişəsinin başa çatmasından sonra regionda sabitlik və təhlükəsizlik artıb, bu da inkişaf və bağlantı layihələri üçün daha geniş imkanlar açır.

ABŞ-Azərbaycan münasibətlərinə də toxunan Prezident İlham Əliyev bildirib ki, iki ölkə arasında güclü tərəfdaşlıq münasibətləri mövcuddur və Vaşinqtondan müsbət mesajlar alınır. Bu əməkdaşlığın zəngin tarixə malik olduğunu qeyd edən dövlətimizin başçısı, həmçinin Prezident Donald Trampın Cənubi Qafqazda sülh proseslərinə töhfə verdiyini vurğulayıb və gələcəkdə Azərbaycan-ABŞ əlaqələri fonunda daha çox müsbət xəbərlərin gözlənildiyini bildirib.



Prezident İlham Əliyev Azərbaycanın ədalətli və qəti Qələbəsinin əldə olunmasında əzmli və davamlı mübarizənin rolunu vurğulayıb. Cəmiyyətin konsolidasiyasını mühüm amil kimi dəyərləndirən dövlətimizin başçısı xalqın dəstəyinin ona Ali Baş Komandan kimi mənəvi güc verdiyini və bunun Vətən müharibəsində Qələbədə həlledici rol oynadığını qeyd edib.

Azərbaycan Prezidenti çıxışı zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) daha güclü və səmərəli quruma çevrilməsinə ehtiyac olduğunu bildirib. Qeyd edib ki, üzv ölkələrin potensialı məlumdur, lakin onların ECO-ya yanaşmaları fərqlidir – bəziləri ikitərəfli əməkdaşlığı fəal şəkildə dəstəkləyir, digərləri isə daha passivdir. Azərbaycan isə çoxtərəfli tərəfdaşlıq modelini dəstəkləyir və hazırda təşkilata sədr kimi öhdəliklərini yerinə yetirir. Prezident əminliyini ifadə edib ki, bu səylər uğurlu nəticələr verəcək.

Prezident İlham Əliyev deyib ki, Azərbaycan beynəlxalq səhnədə fəallığını artırır və müxtəlif ölkələr arasında vasitəçilik səyləri ilə regional məsələlərin həllində daha əhəmiyyətli rol oynamağa çalışır.

Azərbaycan Prezidenti bildirib ki, Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması məsələləri həll olunduqdan sonra sülh müqaviləsini imzalamaq mümkündür. Dövlətimizin başçısı Azərbaycanın artıq Əbu-Dabidə bu təkliflə çıxış etdiyini deyib və sülh müqaviləsinin imzalanmasına yaxın olduqlarını vurğulayıb.

Qəzaya uğrayan AZAL təyyarəsi ilə bağlı sualı cavablandıran Prezident İlham Əliyev bildirib ki, Rusiya rəsmilərindən hələ də hər hansı cavab alınmayıb. Dövlətimizin başçısı Rusiya tərəfinin günahını etiraf etməsini, səbəbkarların cəzalandırılmasını və qəzada zərər çəkənlərə təzminat ödənilməsini tələb etdiklərini deyib.

Azərbaycan ilə Çin arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev vurğulayıb ki, Çindən Azərbaycana və Azərbaycan vasitəsilə Qərbə konteyner qatarlarının sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır və yaxın gələcəkdə bu göstəricinin dəfələrlə yüksələcəyi gözlənilir. Prezident, həmçinin qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və ölkədə müvafiq nəqliyyat-logistika infrastrukturu yaradıb.

Forumda Azərbaycan mediasının inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirib ki, milli mətbuatımız həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük nüfuz qazanıb, dövlət maraqlarını uğurla qoruyur və əsassız ittihamlara arqumentlərlə cavab verir.

*

Qeyd edək ki, iyulun 21-dək davam edəcək Forumda 52 ölkədən 140-a yaxın xarici qonaq, o cümlədən 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu, həmçinin sahə üzrə əlaqəli digər təşkilatlardan nümayəndələr iştirak edirlər. Forumun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmilər də var. Açılış mərasimindən sonra Forum işini sessiyalarla davam etdirir.

*(Forum haqqında daha geniş material qəzetin növbəti sayında veriləcək).*

***AZƏRTAC***

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1–57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3-cü, 97.5-ci, 100.8-ci, 110.3-cü, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində, 122.1-1-ci, 122.2-ci, 123.1-ci maddələrində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində, 125.1-ci (ikinci halda), 125.6-cı (birinci halda), 127-4.3-cü, 150.17-ci və 339.5-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 100.8-ci, 114.5-ci və 150.17-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci və 45-1.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1-ci, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1-ci, 127-4.3-cü maddələrində “orqanın (qurumun) informasiya sistemi” və 124.1-ci maddəsinin ikinci cümləsində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 57-1.1.3-cü və 57-1.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 97.5-ci, 110.3-cü, 122.2-ci, 123.1-ci, 125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5-ci və 339.5-ci maddələrində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 122.1-1-ci maddəsində və 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarının pozulmasına münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi nəzərdə tutulur;

1.8. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 2.2-ci maddəsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” informasiya sistemi nəzərdə tutulur.

**2.** “İnzibati Cərimələrin Mərkəzi Avtomatlaşdırılmış Lövhəsi” (bundan sonra – “İCMAL”) informasiya sistemi yaradılsın.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. “İCMAL” informasiya sistemi haqqında əsasnamənin layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.17-ci maddəsinə uyğun olaraq, inzibati cərimələrin qaytarılması qaydasını altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. “İCMAL” informasiya sisteminin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə “İCMAL” informasiya sisteminin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə “İCMAL” informasiya sisteminin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**6.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

6.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri mövcud olmayan səlahiyyətli orqanlar üçün “ASAN ödəniş” informasiya sistemində müvafiq elektron kabinetlərin yaradılmasını və onların fəaliyyətini təmin etsin;

6.2. “ASAN ödəniş” informasiya sisteminin infrastrukturunun təkmilləşdirilməsi və fəaliyyətinin təşkili ilə bağlı xərclərin maliyyələşdirilməsinə dair təkliflərini hər ilin dövlət büdcəsində nəzərə alınması üçün “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

**7.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 401 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3, 42.2, 43.1 (birinci–üçüncü hallarda), 43.2, 43.3-cü maddələrində, 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 54.2-ci maddəsinin birinci cümləsində, 54.2-1-ci (hər iki halda) maddəsində, 57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1–57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3, 81.2, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 97.5, 100.8, 110.3, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində, 122.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 122.1-1, 122.2-ci maddələrində, 122.5-ci maddəsinin ikinci cümləsində, 123.1-ci maddəsində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1 (hər iki halda), 125.6 (birinci halda), 126.3-cü maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-1.2, 127-1.3, 127-1.5 (hər iki halda), 127-1.8, 127-4.3, 150.13-1, 150.17, 152.3, 162.3, 162-1.1, 184.6, 184.9, 192.3, 220.7, 220.10 (hər iki halda), 231.2, 275.2, 293.12, 294-3.2, 294-3.3, 295.6, 307.4 (hər iki halda), 307.5, 326-2.3, 339.5 (birinci halda), 350.2, 354.0.8, 362-3.1, 363.2, 393-1.4, 393-1.6, 394.0.7 (ikinci halda), 394.0.8, 395.1-ci (ikinci halda) maddələrində, 395-ci maddəsinin “Qeyd” hissəsində (ikinci halda), 395.1-1, 403-1.1.1, 403-1.1.2, 403-1.2, 405-1.2, 428.7.3, 429.0.2, 445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4, 462.1, 477-1.1.7 (hər iki halda), 477-2.1.2, 538-1.4–538-1.6, 540.2, 540.3-cü (hər iki halda) maddələrində, 552-ci maddəsinin adında və mətnində, 562.1, 562.2, 562-1.1, 562-1.2 (hər iki halda), 576.3 (hər iki halda), 576.4, 602-2.5-ci (hər iki halda) maddələrində və 606-cı maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

7.2. 4.3-cü bənddə “94.11, 100.5, 114.4-cü” sözləri “94.11-ci” sözləri ilə əvəz edilsin;

7.3. 4.3-1-ci bəndə “Məcəllənin” sözündən sonra “100.8-ci, 114.5-ci, 150.17-ci,” sözləri əlavə edilsin;

7.4. 4.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.8. həmin Məcəllənin 97.5, 110.3, 122.2, 123.1, 125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5 və 339.5-ci maddələrində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;”;

7.5. 4.8-2-ci bənd üzrə:

7.5.1.“123.2-ci maddəsinin üçüncü cümləsində” sözləri “122.1-1-ci maddəsində” sözləri ilə əvəz edilsin;

7.5.2.“birinci və dördüncü” sözləri “birinci–üçüncü” sözləri ilə əvəz edilsin;

7.5.3.“, 125.2.3-cü maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində və 126.3-cü maddəsində” sözləri “və 126.3-cü maddələrində” sözləri ilə əvəz edilsin;

7.6. 4.9-cu bənddən “124.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində,” sözləri çıxarılsın;

7.7. 4.14-cü bənddən “125.1, 125.2.1, 125.2.2, 125.3,” rəqəmləri çıxarılsın;

7.8. 4.14-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.14-1. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1, 127-4.3-cü maddələrində “orqanın (qurumun) informasiya sistemi” və 124.1-ci maddəsinin ikinci cümləsində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” informasiya sistemi nəzərdə tutulur;”;

7.9. 4.15-ci bənddən “125.2.3 (ikinci halda), 125.4 (birinci halda),” sözləri çıxarılsın;

7.10. 4.15-2-ci bənd ləğv edilsin;

7.11. 4.15-4-cü bənddə “127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü maddəsində (birinci halda)” sözləri “57-1.1.3 və 57-1.3-cü” sözləri ilə əvəz edilsin;

7.12. 4.16-cı bənd ləğv edilsin;

7.13. 4.20-1-ci bənddən “127-4.1-ci (üçüncü halda), 127-4.6-cı,” sözləri çıxarılsın;

7.14. 4.20-2-ci və 4.20-3-cü bəndlər ləğv edilsin;

7.15. 4.55-ci bənddə “462.1-ci maddəsində” sözləri “9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4 və 462.1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**8.** Bu Fərmanın 1-ci və 7-ci hissələri 2025-ci il avqustun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2025-ci il**

# Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, geodeziya və kartoqrafiya sahəsinin dünya geodeziya şəbəkəsinə inteqrasiyası və geodeziya koordinat sisteminin vahidliyinin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya, kadastr işlərində UTM-ə (xəritə proyeksiyası) əsaslanan WGS-84 (beynəlxalq koordinat sistemi) tətbiq edilsin.

**2.** Digər geodeziya koordinat sistemləri ilə icrasına başlanılmış və tamamlanmamış layihələr üzrə yerinə yetirilən geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işləri başa çatanadək həmin koordinat sistemlərinin tətbiqi davam etdirilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2025-ci il**

# Azərbaycanın və Pakistanın xarici işlər nazirlərinin telefon müzakirəsi

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı olub.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin genişləndirilməsi imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Qarşılıqlı həmrəylik, dostluq və qardaşlıq münasibətlərinə əsaslanan Azərbaycan–Pakistan strateji tərəfdaşlığının siyasi, iqtisadi, təhlükəsizlik, humanitar aspektlərindən bəhs edilib, əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində mövcud imkanlardan istifadənin vacibliyi qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Telefon danışığında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Ədliyyə naziri Qubada vətəndaşları qəbul edib



**Ədliyyə naziri Fərid Əhmədov iyulun 18-də Quba şəhərində vətəndaşlarla görüşüb.**

Qəbulda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Qatarlar Xankəndiyə gedəcək

**Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 3-də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimində bildirilib ki, 28 kilometr uzunluğunda olan Bərdə–Ağdam dəmir yolu xəttinin davamı Ağdam–Xankəndi dəmir yolu gələn il istismara veriləcək.**

Qeyd edilib ki, Ağdam – Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddətinin 2025–2026-cı illəri əhatə edəcəyi gözlənilir.

***XQ***





# Azad Qarabağdan abad Qarabağa yüksəliş marafonu

(əvvəli 1-ci səhifədə)

Dövlət Proqramı çərçivəsində şəhərsalma prinsiplərinə uyğun planlaşdırılan layihələr – “ağıllı kənd” və “ağıllı şəhər” modelləri azad edilmiş torpaqlarda tamamilə yeni bir həyat tərzinin təməlini qoyur. Bu yanaşma təkcə fiziki infrastrukturun deyil, həm də sosial, iqtisadi və ekoloji sistemlərin də müasir tələblərə uyğun formalaşmasına zəmin yaradır. İndiyədək həyata keçirilən bərpa və tikinti layihələri Böyük Qayıdışın artıq reallığa çevrildiyini göstərir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın azad edilmiş torpaqlara mütəmadi səfərləri zamanı iştirak etdikləri təməlqoyma və açılış mərasimləri bu prosesin şəffaf və planlı şəkildə icra olunduğunu təsdiq edir.

Ağalı kəndi Böyük Qayıdışın ilk nümunəsi kimi tarixə düşüb. Zəngilan rayonunun bu kəndində “ağıllı kənd” konsepsiyası əsasında inşa edilən müasir infrastruktur artıq ilk sakinlərini qəbul edib. Eyni zamanda Laçın, Füzuli, Şuşa, Xocavənd və digər rayonlarda da yaşayış evləri, məktəblər, xəstəxanalar, mədəniyyət obyektləri və digər sosial infrastruktur tikilir. 2023-cü ildən etibarən Laçın şəhərinə və Sus, Zabux, Füzulinin Dövlətyarlı, Tərtərin Talış, Ağdamın Sarıcalı və Xocavəndin Edilli kəndlərinə məcburi köçkünlərin mərhələli qayıdışı reallaşıb. Qayıdan ailələr üçün yüksək keyfiyyətli yaşayış şəraiti yaradılıb, kənd təsərrüfatı və kiçik sahibkarlığın dəstəklənməsi üçün infrastruktur təmin olunub.

Bərpa prosesi təkcə yaşayış evlərinin tikintisi ilə məhdudlaşmır. Həyata keçirilən infrastruktur layihələri – yollar, su və enerji xətləri, hava limanları, dəmir yolları – regionun uzunmüddətli inkişafının əsasını qoyur. Zəngilan, Füzuli və Laçında inşa edilən beynəlxalq hava limanları təkcə logistik mərkəzlər deyil, həm də regionun beynəlxalq əlaqələrinin inkişafı üçün vacib körpülərdir. Azad edilmiş ərazilərdə “yaşıl enerji zonası” konsepsiyasının tətbiqi isə ekoloji cəhətdən dayanıqlı inkişaf modelini formalaşdırır. Günəş və külək enerjisi layihələri ilə yanaşı, su elektrik stansiyaları da istismara verilir. Bu yanaşma Qarabağ və Şərqi Zəngəzuru gələcəyin innovativ regionuna çevirir.

Böyük Qayıdışın mərkəzində insan amili dayanır. Dövlət qayıdan əhaliyə yalnız fiziki şərait yaratmır, həm də sosial rifahı, təhsili və səhiyyəni təmin etmək üçün ardıcıl tədbirlər görür. Yeni məktəblər, uşaq bağçaları, diaqnostik mərkəzlər, mədəniyyət evləri istifadəyə verilir. İnsanların doğma torpaqlarına ləyaqətlə və rahat şəkildə qayıtması üçün hərtərəfli dəstək göstərilir.

Prezident İlham Əliyevin iyulun 18-də Qarabağa səfəri çərçivəsində qeyd edilən fikrin parlaq ifadəsinin bir daha şahidi olduq. Belə ki, dövlətimizin başçısı Xocalının Xanyurdu kəndinə köçən sakinlərlə görüşündə bildirildi ki, indi kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb.

Dövlətimizin başçısının iyulun 18-də Qarabağa səfəri çərçivəsində Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi isə işğaldan azad olunmuş torpaqlarımızda əhalinin məskunlaşması ilə yanaşı, məktəbəqədər tərbiyə müəssisələrinin inşası istiqamətində də ardıcıl işlər görüldüyündən, belə layihələrin bu ərazilərdə icra edilən bərpa-quruculuq işlərinin tərkib hissəsi olmaqla da mühüm əhəmiyyət daşıdığından xəbər verir. 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışı isə deməyə əsas verir ki, bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Qarabağa bu səfəri çərçivəsində Xocalı kərpic zavodunun açılışı da reallaşdırılıb. Bu münasibətlə keçirilən mərasimdə bildirilib ki, adı çəkilən müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentlərinə təqdim olunan bütün güzəşt və azadolmalardan yararlanacaq. İşğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi bu ərazilərimizin iqtisadi potensialının reallaşdırılması, biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələlərdə çox mühüm rol oynayır. Bu ərazilərimizdə investor və sahibkarlar üçün əlverişli şərait yaradılır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir.

Prezident İlham Əliyevin Xocalının Təzəbinə kəndində görülən işləri nəzərdən keçirməsi, Ağdamın Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak etməsi və Ağdam Sənaye Parkında fəaliyyətə başlayan yeni tütün məmulatlarının istehsalı müəssisəsində olması ölkə rəhbərinin Qarabağın bərpasına necə diqqət və qayğı göstərməsini təsəvvürümüzdə aydın canlandırır.

Bu gün məcburi köçkünlərin məşğulluğu, peşə hazırlığı, kənd təsərrüfatında iştirak imkanları da davamlı olaraq genişləndirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu proseslərdə fəal iştirak edərək, yerli əhalinin əmək bazarına inteqrasiyasını təmin edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, Böyük Qayıdış Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşların sosial rifahının təmin olunması prioritet məsələlərdən biridir. Bu istiqamətdə əsas məqsəd “Məşğulluqdan məskunlaşmaya” yanaşmasının yüksək səviyyədə gerçəkləşdirilməsi, doğma ocaqlarına qovuşan insanların yaşayışlarının davamlığının və rifahının dəstəklənməsidir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özünüməşğulluq, kvota üzrə iş yerlərinin yaradılması və digər bu tipli layihələrin icrasına başlanılıb. Bununla bağlı göstəricilərə gəldikdə isə cari il iyul ayının 10-dək sözügedən ərazilərdə məskunlaşmış iqtisadi fəal əhalidən məşğulluğu təmin edilmiş şəxslərin sayı, ümumilikdə, 4 min 800 nəfərə çatdırılıb. Bunlardan 3 min 677 nəfər müvafiq qaydada işlə təmin olunub, 339 nəfər isə özünüməşğulluq proqramına cəlb edilib. Fərdi qaydada özünüməşğul olanların sayı isə 793 nəfər olub. Bunlardan əlavə, işğaldan azad edilmiş ərazilərdə 222 nəfər peşə hazırlığına cəlb olunub, daha 641 nəfərin məşğulluğunun təmin edilməsi ilə bağlı müəyyən layihələrin icrasına başlanılıb. Yaxın vaxtlarda isə Ağdam, Füzuli, Xankəndi və Xocavənddə telesatış, keytrinq, meyvə şirəsi istehsalı, çamaşırxana və təmizlik xidmətləri kimi sahələr üzrə açılacaq yeni iş yerlərində 80-dən artıq vətəndaşın işlə təmin olunacağı nəzərdə tutulub.

Artıq bərpa olunan ərazilər Azərbaycanın iqtisadi xəritəsində mühüm yer tutur. İşğaldan əvvəl də kənd təsərrüfatı və sənaye baxımından potensialı böyük olan bu torpaqlar, hazırda innovativ texnologiyaların tətbiqi ilə daha sürətlə inkişaf edir. Aqroparklar, sənaye zonaları, logistika mərkəzləri yaradılır. Bu, təkcə region üçün deyil, ölkə iqtisadiyyatı üçün də əlavə dəyər deməkdir. Eyni zamanda, Qarabağın və Şərqi Zəngəzurun turizm potensialı da diqqət mərkəzindədir. Şuşa şəhəri – Azərbaycanın mədəniyyət paytaxtı kimi bərpa olunaraq həm yerli, həm də beynəlxalq səviyyədə turizm mərkəzinə çevrilir. Təbii gözəllikləri, tarixi abidələri və müasir infrastrukturu ilə bu region Azərbaycanın “yeni nəfəsi”dir.

Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, strateji baxışı və xalqla birliyi Böyük Qayıdışın əsas dayaq sütunlarıdır. Dövlət başçısının “Biz azad edilmiş əraziləri cənnətə çevirəcəyik” bəyanatı artıq öz təsdiqini tapmaqdadır. Prosesin davamlı olması üçün ölkə rəhbərinin diqqətdə saxladığı bütün layihələr milli həmrəyliyi və dövlətçilik prinsiplərini ön planda şərtləndirir. Xalq isə bu prosesi ruh yüksəkliyi ilə qarşılayır. Məskunlaşan hər bir ailə, inşa edilən hər bir bina, çəkilən hər bir yol bu torpaqlara həyatın qayıdışını, şəhər və kəndlərin yenidən dirçəlişini sübut edir.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri təkcə bir regionun deyil, bütün Azərbaycanın inkişaf modelinin nümunəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış milli tariximizin ən mühüm və şərəfli səhifələrindən birinə çevrilir. Bu proses həm də beynəlxalq miqyasda Azərbaycanın güclü dövlət kimi imicini möhkəmləndirir. Qarabağda və Şərqi Zəngəzurda tikilən hər bir ev, çəkilən hər bir yol Azərbaycanın gələcəyinə, onun sarsılmaz birliyinə, əbədi və əzəli torpaqlarımıza sonsuz sevgimizin ifadəsidir.

***VB AYRAMOV***
***XQ***



# Qərbi Azərbaycana Qayıdış Zəngəzur dəhlizindən keçəcək

(əvvəli 1-ci səhifədə)

Zəngəzur mahalı oğuz türklərinin qədim torpaqlarıdır. Tarixi-siyasi, dini-mədəni kökləri eyni olan müasir Türkiyə və Azərbaycan türklərinin bir neçə ortaq sultanlıqları, yəni dövləti olub. Bu siyasi dövlət vahidi tarixdə sultanlıq – Böyük Səlcuq imperiyasıdır. XI əsrin ortalarında bu dövlət Cənubi Qafqazda Sultan Toğrulun və Alp Arslanın hakimiyyəti dövrlərində çox güclü idi. Onun şimal sərhədi Şimali Qafqazdan cənubda İran körfəzinədək ərazini tuturdu. Sultan Alp Arslan Göyçə gölü, eləcə də Naxçıvanla birlikdə Azərbaycanın bütün şimal qərbini Böyük Səlcuq imperiyasının tərkibinə qatmışdı. Zəngəzurun Alban-Qıpçaq köklü xristian rəhbərləri də təbəəliyi qəbul edirlər. Sultan I Məlikşah Zəngəzuru idarə etmək üçün 1072-ci ildə oraya öz canişinini təyin edir. I Məlikşahın ölümündən sonra (1192) mərkəzi hakimiyyət ətrafında sultanlıq uğrunda mübarizə artır. Məhz xristian hakimləri bundan istifadə edib fəal siyasət yürütməyə çalışırlar. Oğuz sərkərdələri onları cəzalandırmaq üçün tədbirlər görürlər. Oğuz türkü, sərkərdə Comard öz qoşunu ilə 1103-cü ildə Qafan və Qarakilsədə olan vəziyyəti düzəldir.

*

XVIII əsrdə Zəngəzurun xristian keşişi Stefan Orbelinin “Zəngəzur əyalətinin tarixi” kitabında Comardın adı çəkilir. XVIII əsrdə Venesiyada Sen-Lazar erməni mxitarist monastırında bu əsər saxtalaşdırılaraq, “Sünik tarixi” adı ilə çap olunub. Stefan Orbelinin əsərinin ermənicə yalan, saxta nüsxəsində Comard adı Çortman olaraq yazılır. Bu saxta mənbədə Comardın 1104-cü ildə Orotn, 1105-ci ildə isə Bxen qalalarında möhkəmləndirilməsi göstərilir. “Orotn” Urud kəndinin, “Bxen (Baghk)” isə Bağ qalasının erməni saxtakarlarının qoyduğu saxta adlarıdır. Əsərdə Çalyurd oymağının adı “Çlorut”, Qacaran oymağının adı “Karcavan”, Muğ boyunun yurdu olan Meğrinin adı isə “Meqri” kimi verilir. Bu baxımdan aydın olur ki, gerçək tarixi saxtalaşdırsalar da, Zəngəzur ərazilərinin əsl adlarını və bu torpağın həqiqi sahiblərinin oğuz türkləri olmasını heç cür gizlədə bilməzlər.

Andranikin quldur dəstəsi 1918-ci ilin iyulunda Comardlı kəndini xaraba qoyur, dinc sakinləri qətlə yetirirlər. Bu hadisə tarixə “Comardlı soyqırımı” adı ilə yazıldı.

Nəzərlərimizi bir daha siyasi-tarixi yaddaşda keçənlərə – 1918-ci ilə yönəldək. Sanki Zəngəzurda siyasi zəlzələ baş verdi. Erməni daşnak Andranik Ozanyanın rəhbərliyi ilə 10 min nəfərdən çox quldur başkəsən Zəngəzurda amansız qırğınlar törətdi. Yerli əhalini türk və müsəlman olduqlarına görə qətl etdilər, qaçqın saldılar, ev-eşiklərini yağmaladılar. Zəngəzur əhalisinin bir qismi Naxçıvanda, bir qismi isə Qarabağda məskunlaşdı.

Azərbaycanın əzəli torpağı Zəngəzur erməni təcavüzkarları tərəfindən XX əsrdə xarici dəstəkçilərinin köməyi ilə qədim Azərbaycan torpağı İrəvan xanlığı ərazisində qurulmuş Ermənistan dövlətinə birləşdirildi. 1920-ci il noyabrın 29-da keçmiş sovet Rusiyasının hərbi və siyasi yardımı ilə ərazisi 9 min kv/km olan keçmiş Ermənistan SSR yaradıldı. 1920-ci il dekabrın 1-də Azərbaycanın Zəngəzurun mahalının böyük bir hissəsi Qafan, Sisyan, Gorus və Meğri sovet Ermənistanına peşkəş edildi. Bölgədəki Azərbaycan türkləri taleyin ümidinə qaldı.

Bəs yaxın tarixdə vəziyyət necə idi? Osmanlı imperiyası ilə bağlanan müqaviləyə görə, bölgə fevral inqilabından sonra yaranan Ermənistan Xalq Cümhuriyyətinə daxil deyildi. Ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq bölgəni işğal etdi. Mudros müqaviləsinə görə Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general qubernatorluğunu tanıdılar və Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da bura daxil idi.

Biz Zəngəzur problemindən bəhs edərkən, ulu öndər Heydər Əliyevin söylədiyi və dünəndən bu günümüzə hədəflənən siyasi-tarixi kəlamlarını görürük.

Bu kəlamlardan ən əsası “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” idisə, digəri də məhz Zəngəzur dəhlizi ideyası idi. Bu ideya 1970-ci illərdən onun xüsusi diqqətində olub. Azərbaycana qarşı “tarixi saxtalaşdıran”, xalqımızın düşməni Zori Balayan “Ocaq” əsərində Zəngəzur yolunun bağlanmasını vacib sayır, onu “Turan yolu” adlandırırdı. H.Əliyevin təşəbbüsü ilə 1970-1980-ci illərdə inşasına başlanılan Meğridən keçən Naxçıvan – Bakı avtomobil yolu Türklərin Böyük Turan planının icrasına zəmin hazırlamaq məqsədi daşıyırdı. Ermənistan KP MK-nın birinci katibi Dəmirçiyanın Moskvaya etirazlarından sonra bu plan yarımçıq saxlanıldı.

*

Heydər Əliyev Azərbaycana ilk rəhbərliyi dönəmində respublikadan kənarda qalan torpaqlarımızı, oradakı azərbaycanlıları unutmamış, onların maddi, mədəni, sosial şəraitlərinin yaxşılaşdırılması, onların qəlblərində azərbaycançılığın yaşaması və qorunması üçün o dövrün imkanları daxilində nə mümkündürsə edib.

Siyasi yaddaşdan irəli gələn reallıqlar göstərir ki, müasir və müstəqil Azərbaycan Ümummilli liderin ideyaları, strateji-ideoloji siyasəti əsasında formalaşıb. İndi bu siyasi xətti Prezident İlham Əliyev həyata keçirir. “Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır”. Dövlətimizin başçısı bunu ən yüksək tribunadan bəyan edib.

Azərbaycanın gələcəyinə ünvanlanmış hədəfləri İlham Əliyev uğurla gerçəkləşdirməkdədir. 44 günlük Vətən müharibəsində xüsusi taktiki döyüş əməliyyatı ilə Şuşanın azad edilməsi, az sonra Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan olunması, 270 illik tarixi olan qala-şəhərin bərpası, Qarabağın əvvəlki görkəminin özünə qaytarılması ulu öndərin Qarabağ və Şuşa ilə bağlı hədəflərinin həyata keçirilməsi deməkdir.

Prezident İlham Əliyev 1920-ci ildə Zəngəzurun Ermənistana pay edilməsini türk dünyasının növbəti bölünmə siyasəti olduğunu qeyd edərək deyib: “Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulub. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan vahid bir məkan kimi yaşayacaqdı”.

Dövlətimizin başçısı həm də bu tarixi yanlışlığa görə Qarabağa, eləcə də Ermənistan ərazisində qalan Qərbi Azərbaycan, həmçinin Zəngəzur diyarına xüsusi diqqət verir, bu torpaqların tarixinin araşdırılması, öyrənilməsi, XX əsrdə doğma yurdlarından deportasiya edilmiş dinc azərbaycanlıların orada yaşama hüququnun tanınması siyasətini aparır.

*

Prezident İlham Əliyev YAP-ın VII qurultayında Zəngəzur dəhlizi məsələsində Azərbaycanın əməkdaşlığa hazır olduğu barədə bunları dedi: “Ermənistan əməkdaşlıqdan boyun qaçırır. İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik”.

Bəs hazırda bölgədə vəziyyət necədir? Prezident İlham Əliyev Türkiyənin “Anadolu” agentliyinə verdiyi müsahibəsində deyib: “10 noyabr bəyanatında Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək nəqliyyat əlaqəsinin qurulması aydın qeyd olunsa da, bu əlaqə hələ də qurulmayıb”. Daha sonra əlavə edib: “Zəngəzur dəhlizi ilə bağlı danışıqlar nəticəsiz qalır. Bu əlaqəni qurmaq üçün o qədər də böyük vaxta ehtiyac yoxdur. Burada yolun ümumi uzunluğu 40 kilometrdir. Müharibədən sonra bir ildə min kilometrdən çox yol çəkmişik, həm torpaq yollar, həm də asfalt yollar. İndi orada 40 kilometrlik yolun açılması böyük problem deyil. Amma, buna baxmayaraq, Ermənistan buna razılıq vermir. Danışıqlar nəticəsiz qalır. Ermənistan 10 noyabr bəyanatının şərtlərini kobud şəkildə pozur. Zəngəzur dəhlizinin açılması Ermənistanla münasibətlərin normallaşmağa başlaması üçün şərtlərdən biridir” və ardınca sual edir: “Ermənistan bu öhdəliyi yerinə yetirməzsə, hansı normallaşma baş verə bilər?”

Azərbaycan üçün Zəngəzur dəhlizinin geosiyasi əhəmiyyəti olduqca böyükdür. Naxçıvan üzərindən Türkiyəyə çəkiləcək dəmiryolu xəttinin açılması ilə təkcə bölgə ölkələri deyil, digər dövlətlər də böyük mənfəət əldə edəcəklər.

2021-ci il iyulun 23-də İlham Əliyev AzTV-yə müsahibəsində bildirmişdir: “Biz siyasi leksikona “Zəngəzur dəhlizi” sözünü daxil etmişik. Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında danışır və yazırlar. Bu, artıq reallıqdır”.

Danılmaz həqiqətdir ki, Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni reallığın həyata keçməsi istiqamətində uğurla hərəkət edir. Prezident İlham Əliyev 2023-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatına istinadla Zəngəzur dəhlizi probleminin həllinin vacibliyinə toxunub: “Düzdür, orada – üçtərəfli Bəyanatda “Zəngəzur dəhlizi” sözü yoxdur. Çünki “Zəngəzur dəhlizi” terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir”.

Oxucuların nəzərinə onu da çatdıraq ki, Prezident İlham Əliyev 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi birgünlük antiterror əməliyyatından sonra demişdir: “Bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır”.



Bu zəmində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Biz Ermənistandan verdiyi vədlərin yerinə yetirməsini, xüsusən də Zəngəzur dəhlizinin açılmasını istəyirik” – açıqlaması xüsusi əhəmiyyətə malikdir. Türkiyə lideri sözlərinə əlavə edib: “Qarabağ Azərbaycan torpağıdır, bunun xaricində heç bir status qəbul edilməyəcək. Qarabağ Azərbaycandır!”

Cənubi Qafqazda sülhün, sabitliyin bərpasının əsas hədəf olduğuna diqqəti çəkən Prezident R.T.Ərdoğan Türkiyənin “Bir millət, iki dövlət” prinsipinə əməl etdiyini və bundan sonra da edəcəyini vurğulayıb: “Biz Ermənistandan Zəngəzur koridorunun açılmasını gözləyirik. Ermənilər də daxil, hər kəsin Azərbaycan torpaqlarında sülh şəraitində yanaşı yaşaması birinci hədəfimiz olmalıdır. Tək millət-iki dövlət şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünə dair atdığı addımları dəstəkləyirik”.

Xalqının və dövlətinin siyasi dövlətçilik tarixini yazmaq, yaratmaq güclü, xarizmatik liderlərin həyat yoludur.

Müasir dünyanın yeni düzəni baxımından suveren Azərbaycanda Prezident İlham Əliyevin yurütdüyü xarici siyasət xətti ölkəmizin yeni nizama uyğun beynəlxalq nüfuzunun modern platformasını yaratmaqdır. Bu strateji xəttin nüvəsində diplomatik, siyasi-tarixi yaddaş təcrübəsinin modern təzahürü dayanır. Məhz bu uğurlu siyasətin sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlət səviyyəsinə yüksəlib.

Suveren Azərbaycan Respublikası XX əsrin sonunda “Əsrin müqaviləsi”ndən XXI əsrin strateji layihəsi Zəngəzur dəhlizinə qədər uzun bir inkişaf yolu keçib. Zəngəzur dəhlizinin nəqliyyat, kommunikasiya, infrastruktur layihələri həm bütün türk dünyasını birləşdirəcək, həm də Qərbdən Şərqə uzanan ticarət yollarının əməkdaşlıq mayakına çevriləcək.

Prezident İlham Əliyevin vurğuladığı kimi, “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun... Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır”.

***Rəna MİRZƏZADƏ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor***

**Ermənistan baş naziri Nikol Paşinyan bir neçə gün öncə keçirdiyi mətbuat konfransında ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə münasibətlərinin perspektivindən danışarkən deyib ki, təşkilatda iştirakı dondurmaqdansa, ondan çıxmaq ehtimalı daha böyükdür. Nikol, həmçinin bildirib ki, Ermənistanın KTMT-də fəaliyyətinin bərpası ehtimalı aşağıdır: "KTMT-dən çıxmaq və ya çıxmamaq məsələsinə gəlincə, onu deyim ki, çox güman Ermənistan KTMT-dən çıxacaq və bununla da öz iştirakını sona çatdıracaq". Bununla belə, o qeyd edib ki, Ermənistan Rusiya ilə qarşılıqlı hörmətə əsaslanan dostluq münasibətlərinin olmasını istəyir.**

# İrəvan KTMT ilə yollarını ayırır

## *44 günlük müharibə ilə başlayan küskünlük son həddə çatıb*



"Hraparak" qəzeti isə öz mənbələrinə istinadən yazır ki, Ermənistan KTMT-dən 2026-cı ilin fevralında çıxa bilər: "Bizdə olan məlumata görə, baş nazir Nikol Paşinyan bir neçə tərəfdaşına bildirib ki, Ermənistan çox güman gələn ilin fevralında KTMT-dən çıxacaq". Qəzet onu da qeyd edib ki, Paşinyan ölkəsinin qurumdan kənarlaşdırılmasının mümkünlüyünə də eyham vurub.

Qeyd edək ki, Ermənistan Respublikası 1992-ci il mayın 15-də Daşkənddə Kollektiv Təhlükəsizlik Müqaviləsi imzalayıb. 2003-cü ildən isə həmin müqavilənin əsasında və onun çərçivəsində əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılmış KTMT-nin üzvüdür. Ermənistan Azərbaycana qarşı 30 ildən çox apardığı işğalçılıq siyasəti zamanı əsasən bu təşkilata və onun nüvəsində dayanan dövlətə güvənirdi. Xüsusilə, Ermənistanda hakimiyyəti qəsb etmiş və ölkəni 20 il çapıb-talamış qeyri-legitim prezidentlər Robert Koçaryan və Serj Sarkisyan cinayətkar cütlüyü KTMT-yə torpaqlarını azad etməyə başlayacağı təqdirdə Azərbaycanı dayandıracaq, Ermənistanın "imdadına yetişəcək" əlahiddə qüvvə kimi yanaşırdılar. Onların uzun illər ərzində sülh danışıqları adı altında imitasiya siyasəti aparmaları həm də KTMT-yə, ATƏT-in Minsk qrupunun anti-Azərbaycançı həmsədrlərinə arxayın olmalarından irəli gəlirdi. Ancaq 2016-cı ilin Aprel döyüşləri göstərdi ki, Ermənistan heç kimə arxayın olmamalıdır. Doğrudur, həmin döyüşlər qısa müddət davam etdi. Amma ordumuz keçilməz sədləri yarmaqla, müəyyən ərazilərimizi azad etməklə, düşmənə canlı qüvvə və hərbi texnika sarıdan böyük zərbələr vurmaqla döyüş əzmini göstərdi. Azərbaycanın hərbi-siyasi rəhbərliyi düşmənə sonuncu şans verdi və sübut etdi ki, ordumuz müzəffər yürüşə qalxsa, onun qarşısını nə KTMT, nə də Ermənistanın digər havadarları ala bilər.

Müharibə dövründə təşkilatdan istədiyi dəstəyi ala bilməyən İrəvanla KTMT arasında ilk ciddi ixtilaf həmin vaxt yarandı. Müharibədən sonrakı dövrdə isə Ermənistanla Azərbaycan arasında üç ciddi insident oldu. 2021-ci ilin mayında iki ölkənin şərti sərhədində – Qaragöl ətrafında gərginlik yaşandı. Ölkəmizin torpaqları 30 il işğal altında qaldıqdan sonra beynəlxalq səviyyədə tanınmış sərhədlərimizi bərpa etməyimiz Ermənistanda "Azərbaycan hərbçilərinin sərhədi pozub 3,5 kilometr ölkənin içərisinə doğru hərəkət etməsi" kimi qəbul olundu. Həmin ilin noyabrın 15–16-da 44 günlük müharibədən sonra ilk dəfə şərti sərhədin Kəlbəcər istiqamətində qanlı döyüşlər baş verdi. Nəhayət, 2022-ci il sentyabrın 12–14-də gecə saatlarında Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətməsi ilə postmüharibə dövrünün ən ciddi hərbi toqquşması yaşandı. Bu hadisələrin hər biri baş verən günlərdə və ondan sonrakı dövrdə Ermənistan baş nazir səviyyəsində KTMT-yə müraciət edərək təşkilatı qəti tədbirlər görməyə çağırdı. Təşkilat isə öz nizamnaməsi çərçivəsində hərəkət edərək toqquşmaların Ermənistan ərazisində baş vermədiyini bəyan etdi. Başqa sözlə desək, İrəvanın avantürasına getmədi.

Baş nazir Paşinyan 2022-ci ilin mayın 16-da KTMT Dövlət Başçıları Şurasının yubiley iclası zamanı təşkilatı 2020 və 2021-ci illərdə Ermənistan tərəfinin "Azərbaycan qoşunları Hayastan ərazisinin bir hissəsini tutduğu zaman" etdiyi yardımla bağlı müraciətlərə məhəl qoymadığına görə tənqid etdi. Həmin ilin sentyabrında təşkilatın Azərbaycanla şərti sərhəddə silahlı toqquşmalarla əlaqədar müvafiq müraciətindən sonra Ermənistana yardım göstərməkdən imtina etməsi rəsmi İrəvanda KTMT-dən məyusluğa gətirib çıxardı. Həmin vaxtdan etibarən həm erməni cəmiyyətində, həm də hakimiyyətində üzvlükdən çıxmaq və ya onun fəaliyyətini dayandırmaq haqqında danışmağa başladılar. Beləliklə, Ermənistan–KTMT münasibətlərinin daha ciddi soyuqluq mərhələsi başladı. İş o yerə gəlib çatdı ki, Paşinyan KTMT-nin ali orqanı olan Kollektiv Təhlükəsizlik Şurasının 2022-ci ilin noyabrın 23-də İrəvanda keçirilən sammitinin bəyannaməsini imzalamaqdan imtina etdi. Sammit Ermənistan üçün tam fiasko ilə nəticələndi.

Nəticələrin olmaması və 2023-cü ilin mayında KTMT monitorinq qrupunun Ermənistana gəlməsi məsələsinin həll edilməməsi səbəbindən Paşinyan ölkəsinin KTMT-dən çıxma ehtimalını istisna etmədiyini bəyan etdi. Ermənistan rəhbərliyi 2023-cü ilin noyabrında Minskdə keçirilən növbəti sammitə də məhəl qoymadı. 2024-cü ilin fevralında Paşinyan "France 24" telekanalına müsahibəsində Ermənistanın "Moskvanın dominantlıq etdiyi" KTMT-də iştirakının dondurulduğunu bəyan etdi. Ötən ilin martın 12-də isə Paşinyan təşkilatın öhdəliklərini yerinə yetirmədiyi təqdirdə Ermənistanın KTMT-dən çıxacağını bildirdi. 2023-cü ildən Ermənistan KTMT-nin hərbi təlimlərinə qatılmır və təşkilata üzvlük haqqını ödəmir.

İndi isə Ermənistanın KTMT ilə birdəfəlik üzülüşmək istəməsi, əslində, son illərdə İrəvanla təşkilat arasında əmələ gəlmiş soyuqluğun məntiqi nəticəsidir. Paşinyan hökuməti belə bir təşkilatda iştirakın təhlükəsizlik zəmanəti vermədiyini, əksinə, siyasi manevr imkanlarını məhdudlaşdırdığını düşünür. Qonşularımız, eyni zamanda, Qərblə, xüsusilə Fransa və Avropa İttifaqı ilə hərbi-siyasi əməkdaşlığa can atır və bu xətt KTMT-dən uzaqlaşmanı zəruri edir. Paşinyanın mətbuat konfransındakı son açıqlamasından da göründüyü kimi, o, bu məsələni, sadəcə, texniki prosedur yox, siyasi kursun təzahürü kimi təqdim edir. Yəni, Ermənistan artıq KTMT-nin – bölgədə Rusiyaya bağlı təhlükəsizlik arxitekturasının bir hissəsi olmaq istəmir. KTMT-də fəaliyyəti bərpa etmək yerinə, ondan çıxmaq ehtimalının daha yüksək olduğunu deməsi də bu kursun davamlı və qəti olduğunu göstərir.

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bildirdi ki, Ermənistanın 2026-cı ilin fevralında KTMT-dən çıxmaq niyyətinin Paşinyan tərəfindən yaxın çevrəsinə bildirilməsi, sadəcə, hərbi-siyasi alyansdan ayrılma qərarı deyil. Onun sözlərinə görə, bu, İrəvanın Rusiyadan uzaqlaşaraq tamamilə Qərb orbitinə keçmək planıdır. Bu tendensiya təkcə Ermənistan–Rusiya münasibətlərinin sarsılması yox, həm də Cənubi Qafqazın geosiyasi xəritəsinin yenidən çəkilməsi deməkdir.

O.Mirzəyev qeyd etdi ki, Paşinyanın bu qərarı gözlənilməz deyil. İkinci Qarabağ müharibəsi zamanı və sonrakı illərdə KTMT-nin Ermənistana hərbi yardım göstərməməsi təşkilata olan inamı ciddi şəkildə sarsıtdı: "Ermənistan hökuməti dəfələrlə KTMT-ni passivlikdə və Ermənistanın təhlükəsizlik maraqlarını qorumamaqda ittiham etdi. Ən açıq mesaj isə 2023-cü ildə Ermənistanın KTMT təlimlərini ləğv etməsi və əvəzində ABŞ-la ortaq hərbi manevrlər keçirməsi oldu. Bu çıxış niyyəti həm də daxili auditoriyaya hesablanmış siyasi gedişdir. Paşinyan öz ictimaiyyətinə göstərmək istəyir ki, Ermənistan artıq müstəqil qərarlar verən və Rusiyanın, necə deyərlər, kölgəsində qalmayan bir dövlətdir".



Siyasi şərhçi bildirib ki, bu addımın riskləri də var: "Ermənistanın KTMT-dən çıxması ölkəni real təhlükələr qarşısında müdafiəsiz qoya bilər, çünki yaxın gələcəkdə NATO və ya digər Qərb təhlükəsizlik strukturlarının bu boşluğu dolduracağı real görünmür. Həmçinin, Moskva bu addımı strateji xəyanət kimi qiymətləndirə bilər. Nəticə etibarilə Ermənistan–Rusiya münasibətlərinin tamamilə pozulması və Rusiya tərəfindən iqtisadi, diplomatik və sərhəd təhlükəsizliyi sahələrində ciddi təzyiqlərin göstərilməsi gözləniləndir. Eyni zamanda, əgər proseslər bu cür davam edərsə Ermənistanın Rusiya və İranla əlaqələrinin zəifləməsi regionda balanslı xarici siyasət aparmaq imkanlarını məhdudlaşdıraraq ölkəni daha dərin geosiyasi təcridə sürükləyəcək".

O.Mirzəyevin fikrincə, KTMT-nin bölgədə zəifləməsi və Rusiya–Ermənistan münasibətlərinin gərginləşməsi İrəvanın daha çevik və müstəqil qərarlar verməsi deməkdir: "Bu isə Azərbaycan üçün yeni imkanlar, xüsusilə sülh müqaviləsinin imzalanması istiqamətində irəliləmək üçün şanslar yaradır. Nəticə olaraq, Ermənistanın KTMT-dən çıxması təkcə bir qurumun tərk edilməsi deyil, bütöv bir geosiyasi epoxanın qapanması və yeni mərhələnin başlanmasıdır. Bu qərar, həm Ermənistanın gələcək yönünü, həm də regionun güc nisbətlərini dəyişə biləcək dönüş nöqtəsidir".

Bununla belə müsahibimiz qeyd etdi ki, Ermənistanın KTMT-dən çıxacağı halə dəqiq qərar kimi qiymətləndirilə bilməz: "Çünki Paşinyanın real addımları səsləndirdiyi bəyanatlarla, çıxışlarla bəzən üst-üstə düşmür. O, bu məsələni də həm daxili auditoriyaya mesaj vermək, həm də Qərblə danışıqlarda əlini gücləndirmək üçün alətə çevirə bilər. Ona görə də bu açıqlamalar, əslində, çıxışdan çox siyasi mövqe nümayişinin və Kremlin reaksiyasını test etməyin bir forması kimi qəbul oluna bilər".

*Səxavət HƏMİD*
*XQ*



# Brüssel Tbilisini cəzalandırır

## *Avropa İttifaqı vizasız rejimi dayandırır, Gürcüstanı isə sabitlik düşündürür*

**Avropa İttifaqı (Aİ) və Gürcüstan arasında gərginlik getdikcə artmaqdadır. Əsas səbəb Gürcüstan hökumətinin qəbul etdiyi qanunlar və insan hüquqları sahəsindəki siyasətidir. Bu siyasət Brüsselin xoşuna gəlmir. Avropa Komissiyası Gürcüstanın xarici işlər nazirinə ünvanladığı məktubda bildirib ki, əgər Avropa dəyərlərinə zidd hesab edilən qanunlar və həyata keçirilən siyasi kurs dəyişdirilməsə, Gürcüstanla imzalanmış vizasız rejim dayandırılacaq.**

Komissiya xüsusilə "Xarici təsirin şəffaflığı haqqında" qanunun və "Ailə dəyərləri və azyaşlıların müdafiəsi haqqında" qanun paketinin Qərb və beynəlxalq normalarla ziddiyyət təşkil etdiyini bildirir və onların ləğvini tələb edir. Həmçinin məktubda LGBTIQ icmasının hüquqlarının təmin olunması, antikorrupsiya bürosunun müstəqilliyinin artırılması, şəxsi məlumatların qorunması ilə bağlı qanunvericiliyin Aİ standartlarına uyğunlaşdırılması və sığınacaq sisteminin təkmilləşdirilməsi kimi məsələlər qeyd olunub.

Bu arada Aİ-nin Gürcüstandakı nümayəndəliyi vizasız rejimin dayandırılması mexanizmləri və buna qarşı hökumətin atmalı olduğu addımlarla bağlı məlumat yayıb. Diplomatik təmsilçiliyin paylaşımında qeyd olunub ki, Aİ avqustun sonuna qədər Gürcüstandan yenilənmiş məlumat gözləyir və əgər məsələlər həll olunmamış qalarsa, bu, vizasız rejimin tamamilə dayandırılması ilə nəticələnəcək: "Vizasız gediş-gəliş fundamental hüquq və azadlıqlara hörmətdən asılıdır. 2025-ci ilin yanvarında Avropa İttifaqı Gürcüstanın xidməti və diplomatik pasport sahibləri üçün vizasız rejimi dayandırıb. 2024-cü ilin dekabrında Avropa Komissiyasının Gürcüstanla bağlı hesabatında ciddi narahatlıq ifadə olunub.

Avropa İttifaqının tövsiyələri bunlardır: fundamental hüquqların qorunması və azadlıqları məhdudlaşdıran qanunların ləğvi, antikorrupsiya səylərinin gücləndirilməsi. Aİ avqustun sonuna qədər Gürcüstandan yeni məlumat gözləyir. Əgər məsələlər həll edilməzsə, bu, vizasız rejimin tamamilə dayandırılması ilə nəticələnə bilər".

Bu tövsiyələrin icrası Aİ-nin 2018/1806 saylı viza tənzimləməsinin 8-ci maddəsinə uyğun olaraq qiymətləndirilir. Aİ 2024-cü ilin dekabrında qəbul etdiyi yeddinci hesabatda Gürcüstanda insan hüquqlarının pozulması və diskriminasiya hallarına geniş yer ayırıb. Bildirib ki, vizasız gediş-gəlişin dayandırılması mexanizmi işə salına bilər. Hazırda diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejim ləğv edilib və 12 üzv ölkə gürcü diplomatlarına viza tətbiq etməyə başlayıb. Aİ üzvü olan digər ölkələrin də yaxın vaxtlarda bu siyasətə qoşulacağı gözlənilir.

Gürcüstan hökuməti bu təhdidləri ölkəyə qarşı "şantaj siyasəti" kimi dəyərləndirir və güzəştə getmək niyyətində olmadığını bildirir. Baş nazir İrakli Kobaxidzenin açıqlamalarına görə, Avropa Komissiyasının tələbləri birbaşa ölkənin daxili sabitliyinə və siyasi müstəqilliyinə təhdiddir. Baş nazirin dediyinə görə, Brüssel Gürcüstanı seçim qarşısında qoyub: ya ölkədə sülh və sabitlik qorunmalı, ya da vizasız rejimdən faydalanmaq imkanı dayandırılmalıdır. Kobaxidze bu məsələ ilə bağlı deyib: "Əlbəttə ki, biz sülhə və sabitliyə üstünlük verəcəyik. Bu, gürcü xalqının seçimidir."

Onun fikrincə, təzyiqlərin əsas məqsədi Gürcüstanda hazırkı siyasi rəhbərliyi zəiflətmək və onun əvəzinə xaricdən idarə olunan agentura qüvvələrini hakimiyyətə gətirməkdir. Baş nazir bu planı "qobal müharibə partiyası"nı təmsil edən güclərin Gürcüstanı Rusiyaya qarşı ikinci cəbhəyə çevirmə niyyəti ilə əlaqələndirib: "Bu hökumət onların planına uyğun gəlmir, çünki biz Gürcüstanı müharibəyə sürükləməyə razı olmuruq. Ona görə də xarici qüvvələr daxildən hökumət dəyişikliyi planlaşdırırlar".

Kobaxidze əlavə edib ki, Gürcüstanda qəbul edilən qanunlar xarici maliyyə dəstəyi ilə təşkil ediləcək inqilabi proseslərin qarşısını almağa xidmət edir və bu qanunların məqsədi sabitliyi qorumaq və şəffaflığı təmin etməkdir: "Əgər kimsə Gürcüstanda inqilabi prosesləri maliyyələşdirmək istəyirsə, bunu şəffaf etsin".

Baş nazir ABŞ-ın hazırkı administrasiyasını da tənqid edib. Hökumət başçısı deyib ki, Bayden administrasiyası tərəfindən ədalətsiz şəkildə tətbiq edilmiş sanksiyalar hələ də qüvvədə qalır, həmçinin bizim açıq şəkildə ifadə etdiyimiz yeni səhifədən başlamaq istəyimiz cavabsız qalır: "Hazırkı administrasiya indiyə qədər Gürcüstanla bağlı əvvəlki administrasiyanın səhvlərini düzəltmək üçün heç nə etməyib".

Onun sözlərinə görə, bu yanaşma indi rəsmi Brüsselin əli ilə daha da sərtləşərək davam edirilir: "Dəfələrlə demişik və bir daha təsdiqləyirik ki, Prezident Donald Trampa "dərin dövlətə" qarşı mübarizəsində uğurlar arzulayırıq. Lakin eyni zamanda, şübhəmiz var ki, bu mübarizə "dərin dövlətin" məğlubiyyəti ilə deyil, onun rebrendinqi ilə nəticələnə bilər. Bu rebrendinqin məqsədi isə ABŞ-ı kənara çəkmək, Rusiya–Ukrayna müharibəsinə Avropanı bütün gücü ilə cəlb etmək və nəticədə həm Avropanı, həm də Rusiyanı eyni anda çökdürmək ola bilər. Bütün bunları zaman göstərəcək.

Baş nazir onu da qeyd edib ki, hazırkı Avropa bürokratiyası, faktiki olaraq, "qlobal müharibə partiyası"nın diktəsi ilə hərəkət edir. Onun sözlərinə görə, məqsəd təkcə Gürcüstanı cəzalandırmaq deyil, həm də Avropanın özü üçün fəlakətli ola biləcək yeni geosiyasi qarşıdurmaları qızışdırmaqdır: "Təəssüf ki, açıq şəkildə demək lazımdır ki, bu gün Gürcüstan hökumətinə qarşı eyni, hətta daha güclü təzyiqlər Avropa bürokratiyası tərəfindən davam etdirilir. Artıq heç kimə sirr deyil ki, qlobal müharibə partiyası Avropa bürokratiyasının tam koordinasiya ilə yönləndirir və Gürcüstan əleyhinə artan şantaj siyasətini o reallaşdırır. Məqsəd eynidir – cəmiyyəti hökumətə qarşı qaldırmaq, xalqın əli ilə siyasi komandamızı hakimiyyətdən uzaqlaşdırmaq. Çünki bu komanda qlobal müharibə partiyasının Rusiyaya qarşı ikinci cəbhəni açmaq üçün işinə yaramır. Onların yerinə xaricdən idarə olunan agentura qüvvələri ölkənin başına gətirilməlidir. Bizdən fərqli olaraq, radikal müxalifət xaricdən verilən istənilən əmri, o cümlədən ölkəni müharibəyə cəlb etmə tapşırığını yerinə yetirməyə hazırdır. Məhz hökumətin dəyişdirilməsi və müxalifətin dəstəklənməsi qlobal müharibə partiyası tərəfindən idarə olunan Avropa bürokratiyasının Gürcüstana qarşı atdığı bütün təxribatçı addımların məqsədidir".

Bu fonda Gürcüstan hökumətinin əsas hədəfi daxili sabitliyi qorumaq və xarici müdaxilələrə qarşı dayanıqlılıq göstərməkdir. Hökumət rəhbərliyi hesab edir ki, xalqın iradəsinə əsaslanan qərarlar hər cür təzyiqdən daha önəmlidir və Avropa İttifaqının təklif etdiyi "vizasız rejim" mübadiləsində Gürcüstan milli dəyərlərindən və suveren hüquqlarından imtina etməyəcək.

Sonda İrakli Kobaxidze Gürcüstan xalqını Avropa bürokratiyasının təxribatlarına və şantajına uymamağa çağırıb və bildirib ki, hökumət sülhü, sabitliyi və ölkənin maraqlarını qorumağa davam edəcək.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili isə bildirib ki, Qərb bu ilin payızında Gürcüstanda keçiriləcək yerli seçkilər ərəfəsində ölkədə vəziyyəti yenidən gərginləşdirməyə çalışır: "Artıq ilk əlamətləri görürük. Xaricdən sabitliyi pozmaq cəhdləri var. Brüsselin bəzi addımları onu göstərir ki, xaricdən təzyiqlərlə ölkəmizdə sabitliyin pozulmasına cəhd ediləcək. Necə ki, əvvəlki seçkilərdə belə cəhdlər olmuşdu və sonradan bu, seçkilərə müdaxilə kimi qiymətləndirildi. Düşünürəm ki, bu dəfə də oxşar məktub və qətnamələ ölkədə sabitliyin pozulmasına cəhd ediləcək".

Beləliklə, Gürcüstan və Aİ münasibətləri ciddi dönüş nöqtəsindədir. Brüssel demokratik standartlara və hüquqi islahatlara əməl edilməsini tələb edərkən, Tbilisi daxili sabitliyi və suverenliyini əsas gətirərək bu tələbləri siyasi təzyiq kimi dəyərləndirir. Vizasız rejimin tam dayandırılması təhlükəsi yalnız Gürcüstan vətəndaşlarının Avropa ilə sərbəst əlaqəsinə deyil, ümumilikdə, regionda geosiyasi balanslara da təsir edə bilər. Gürcüstan hökumətinin mövqeyi aydındır: sabitlik və milli maraqlar hər şeydən önəmlidir – hətta Avropaya vizasız gediş imkanlarından da.

*P.ƏFƏNDİYEV*
*XQ*

# Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt



IV məqalə

### Məsələnin tərs qoyuluşu

Keçən əsrin 1918-1920-ci illər və sonrakı 1920-1923-cü illərdəki beynəlxalq sənədlərin araşdırılması göstərir ki, vəhşi erməni terrorunun Azərbaycan ərazilərində tüğyan etdiyi bir vaxtda imperialist dairələr vəziyyəti “tərsinə təqdim” etmişlər. V.Vilsonun məlum “14 punktu” da daxil olmaqla, keçirilən konfranslar, Versal-Vaşinqton sistemi, Versal sülh müqaviləsi (1919), Sen-Jermen Sülh müqaviləsi (1919), Nöyi-syür-Sen (frans. Neuilly-sur-Seine, Parisin şəhərətrafı qəsəbələrindən biri) Sülh müqaviləsi (1919), Trianon Sülh müqaviləsi (1920) və Sevr Sülh müqaviləsinin (1920) heç birində azərbaycanlıların deportasiyası və ərazilərimizdə təbii demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişdirilməsi və erməni dövlətinin terrorla qurulması haqqında bir obyektiv cümlə də yoxdur. Sevr müqaviləsində “Ermənistan”, “erməni əraziləri”, “Qərbi Ermənistan” və sair kimi ibarələr yer alır. Digər sənədlərdə, xüsusilə Millətlər Liqasının qaçqınlarla bağlı konvensiyalarında ermənilərlə bağlı çoxlu sayda informasiyalar verilir.

Aydın görünür ki, başda ABŞ olmaqla Qərb imperialist dairələri nəyin bahasına olursa-olsun erməni dövləti yaratmaq və onu məhz türk torpaqlarının hesabına reallaşdırmaq niyyətində idilər. Rusiya imperiyası bundan fərqli düşünmürdü. Buna görə də 1918-1920-ci illərdə birbaşa ermənilərin xeyrinə olan hüquqi proseslər getdi.

Məsələn, Millətlər Liqasında 1923-cü ildə “erməni qaçqınları” termini rəsmi və hüquqi status aldı. Bundan öncə, Sevr müqaviləsində Osmanlının faktiki olaraq parçalanması yer almışdı. 1920-ci ilin 22 noyabrında isə V.Vilsonun xüsusi təklifi ilə Türkiyənin Ermənistana 103 min kvadratkilometrdən çox ərazini verməsi məsələsi qalxmışdı. Həmin sənədlərdə Zəngəzur (sənəddə “Səngəsur” yazılmışdır) mübahisəli ərazi kimi göstərilir, ancaq onun ermənilərin xeyrinə həll edilməsinə üstünlük verilir.

Beləliklə, 1918-1923-cü illərdə hazırlanmış beynəlxalq sənədlərdə ermənilərin azərbaycanlılara qarşı terror olaylarını tərsinə - azərbaycanlıların ermənilərə qarşı terroru kimi (o cümlədən, Osmanlı türklərinin) təqdim etmişlər və bunların fonunda soydaşlarımızın soyqırıma məruz qalmaları və deportasiya olunmaları haqqında kəlmə belə kəsməmişlər.

Reallıqda isə 1918-1920-ci illərdə Azərbaycanda bizlərə qarşı terror və kütləvi qırğınlar törətmişlər. Sovetlər qurulandan sonra bu proses ayrıca məzmun və dinamika almışdır. Osmanlı isə öncə dağıdılmış və sonra Türkiyə Respublikasından “erməni soyqırımı” bəhanəsi ilə hesab sorușmağa qalxmışlar. Bütün hallarda imperialist dairələr türk torpaqlarında Ermənistan yaratmışlar.

Vurğulanan məqamlar Türkiyə və Azərbaycana qarşı uzun müddət davam edən terror prosesinin anatomiyasını anlamağa imkan verir. Bu aspektdə SSRİ-nin qurulması ilə türklərə qarşı terrorun məzmun və məqsədində dəyişikliklər baş verdi.

### Türk dövlətlərinə qarşı “terror bifurkasiyası”

“Bifurkasiya” elmi termindir və mənası ingiliscədən tərcümədə “ikiləşmə”, “haçalanma” deməkdir. SSRİ qurulandan sonra Türkiyədə erməni terrorunu inkişaf etdirmək imkanı sıfıra endi. Türkiyədən həm ermənilər çıxmışdılar, həm də sovetlər açıqca antitürkiyə siyasəti aparmaq istəmirdi. Görünür, SSRİ əsas olaraq öz daxilində ermənilərə havadarlıq etməyi daha vacib saymışdır. Nəticədə obrazlı desək, türk dövlətlərinə və xalqlarına qarşı terrorun formasi dəyişdi. O yalnız ermənilərlə məhdudlaşmadı. Tədricən Türkiyədə yaşayan başqa xalqların separatçılığını alovlandırmağa başladılar. Bunun üçün kürdləri seçdilər. Bununla da Türkiyədə terror “haçalandı” – bir qanadında ermənilər, digərində isə kürdlər aparıcı olmağa başladılar. Lakin Türkiyədə kürdlərin adı ilə terror təşkilatını keçən əsrin 70-ci illərində yarada bildilər. PKK erməni terror təşkilatlarından az qan tökmədi. Rəsmi Ankara yalnız 2025-ci ilin yazında onun tərksilah edilməsi və faktiki olaraq ləğvi məsələsini qətiyyətlə qoymağa nail oldu.

PKK Türkiyədə nə ayrı dövlət qura bildi, nə də ondan torpaq qoparmağa nail oldu. Görünür, bunun əsas səbəbi kürd xalqının böyük əksəriyyətinin terroru dəstəkləməməsi ilə bağlı idi. Əsrlərlə çiyin-çiyinə yaşamış türk və kürd xalqları birgə yaşamağa davam etməyə qərar verdilər. Uzun müddət terrora qarşı silahlı mübarizə aparan Türkiyə hakimiyyəti diplomatiyanın köməyi ilə bu məsələni bitirmiş kimi görünür.

Azərbaycanda isə terror məsələsi bir qədər fərqli məzmunda XX əsr boyu davam etdi. Yalnız 2020-ci il və 2023-cü illərdə Azərbaycan ordusunun güclü zərbələri ilə terror qrupları darmadağın oldu. Ona qədər olan müddətdə Azərbaycanda terrorun dinamikası ilə bağlı öncəki məqalələrdə qısa bəhs etmişik.

Türkiyədən fərqli olaraq Azərbaycanda SSRİ dövründə erməni terroru əsasən torpaqların müxtəlif üsullarla Ermənistana qatılması formasında aparılırdı. Bu zaman, 1922-1939, 1948-1956 və 1988-1993-cü illər istisnalıq təşkil etmişdir. Həmin dönəmlərdə Qərbi Azərbaycandan soydaşlarımız kütləvi surətdə deportasiya olunmuşlar və həm də total qırğınlara məruz qalmışlar. Nəticədə milyonlarla azərbaycanlı öz yurdundan didərgin düşmüş və onların yurdlarına ermənilər yerləşdirmişlər. İndi həmin yerlərə erməni siyasiləri “Ermənistanın suveren torpaqları” deyirlər.

Deməli, “terror bifurkasiyası” faktiki olaraq kökü eyni olan Türkiyə və Azərbaycanda terrorun dinamikasını, reallaşma formasını və məqsədlərini dəyişdi. Türkiyədə onu kürd terror qrupunu yaratmağa transformasiya etdilər, Azərbaycanda isə “sakit və ya dinc terrorla” torpaqlarımızı tədricən ermənilərə verdilər.

Bu zaman, sovetlərin yaratdığı “Dağlıq Qarabağ Muxtar Vilayəti” (artıq tarixin arxivindədir) bu prosesdə xüsusi rol oynamağa başladı. Bu da Azərbaycan daxilində 1920-1993-cü illərdə erməni terrorunun iki qaynağının olması anlamına gəlir. Terrorçular həm Azərbaycan ərazisi olan Qarabağdan, həm də qədim Azərbaycan torpağı olan Qərbi Azərbaycandan hərəkət edirdilər. Bununla da Türkiyə Azərbaycana qarşı XX əsr boyu terror çox aspekti olan proses kimi mövcud olmuşdur. Onun ierarxiyasında iki səviyyəni ayırmaq olar.

**Birincisi,** Azərbaycanda əsas olaraq erməni terroru təhlükəsi mövcud idi. Ancaq onun təhlükə mənbəyi “ikiləşmiş” və ya “haçalanmışdı” – Ermənistan və Dağlıq Qarabağdakı terror dəstələri. Əslində, onların hər ikisinin motivə mənbəyi və plan mərkəzi ümumi miqyasda ermənilərin imperialist havadarları, Qafqazda isə Ermənistan idi. Ancaq bu vəziyyət də özünəməxsus mürəkkəb situasiya yaratmışdı və Azərbaycan faktiki olaraq iki istiqamətdə - Ermənistan və Qarabağ istiqamətində separatçı formalı erməni terroru ilə mübarizə aparmalı oldu.

**İkincisi,** Türkiyədə erməni terroru zəifləmişdi, lakin onun funksiyasını başqa terror qrupları yerinə yetirirdi. Etnik tərkibi müxtəlif olan PKK və ona bənzər terror dəstələrini başlıca olaraq Türkiyəni parçalamaq və yerində V.Vilson modeli üzrə müstəqil dövlətlər yaratmaq məqsədi birləşdirirdi. 1978-ci ildən 2020-ci ilə qədər olan müddətdə PKK və ona oxşar olan terror qrupları Türkiyədə məhz həmin məqsəd uğrunda fəaliyyət göstərdilər.

Bu proses terror qruplarının İraq, İran və Suriyada əsas olaraq antitürk ruhunda artması ilə müşayiət olunurdu. Nəticədə qısa müddətdə Türkiyəyə qarşı olan terror təşkilatları faktiki beynəlxalq terror şəbəkəsi yaratdılar. Ora əsasən kürdlərin adı ilə bağlı qruplar daxildi. Lakin son onilliklərdə məzhəb mənsubluğuna görə də Yaxın Şərqdə terror təşkilatları yarada bildilər. Onların sayı az deyil, ancaq içlərində ən güclüsü və amansızı İŞİD oldu. Sözdə İslamı müdafiə edən bu terror qrupu əslində, müsəlmanların qənimi çıxdı. Onlar həm İslamı gözdən salır, həm də mübarizə üsulları ilə çox vəhşiliklər törədirdilər.

Bütün bunların fonunda Türkiyə üçün ən riskli qrup FETÖ oldu. Bu, əsasən siyasətə, ideologiyaya və hakimiyyətə sığınmağa üstünlük verən və birbaşa ABŞ-yə bağlı olan dini qrupdur. Əgər PKK, YPG, SDQ, İŞİD və başqa terror qrupları başlıca olaraq silahlı mübarizəyə üstünlük verirlərsə və bunun fonunda informasiya, siyasət və digər üsullardan istifadə edirlərsə, FETÖ uzun müddət Türkiyənin müxtəlif hakimiyyət və güc strukturlarına sızıb, “sakit terror” üsuluna söykənmişdir.

Bütün bunlar göstərir ki, Türkiyənin terrora məruz qalması strukturca daha mürəkkəb hadisə idi. Orada rəsmi olaraq hər hansı separatçı qurum yarada bilmədilər. Lakin faktiki olaraq, ölkənin Cənub-Şərq bölgələrində terrorçuların müəyyən nəzarəti vardı. Onlar silahlı və təxribatçı üsullarla güc strukturlarına və mülki əhaliyə qarşı terror törədirdilər. Nəticədə 40 minə yaxın insan itkisi oldu. Bundan başqa, PKK Türkiyənin bütün ərazisinə yayılmaq strategiyasını seçdi. Ancaq tezliklə məğlub oldu. Cənub-Şərq istiqamətində isə təsiri qalmaqda davam edirdi. Son illər PKK-nın siyasi mübarizə üsuluna üstünlük verməyə başladığı hiss edilir. Xüsusilə, parlamentdə fəal olmağa çalışırdılar. İndi terror təşkilatı ləğv olunur, silahlar təhvil verilir, ancaq onun siyasi-ideoloji təsirinin davam edəcəyi proqnozlaşdırılır. Bunun fonunda mediada PKK-ya uyğun təbliğatın aparılması ehtimalı qalır.

Bütün bunlar XX əsr boyu və XXI əsrin ikinci onilliyinin sonuna qədər olan dövrdə terrorun Türkiyə və Azərbaycanda struktur-funksional olaraq fərqli cəhətlərini müəyyən etməyə imkan verir.

### Azərbaycan

Burada bir neçə əsr davam edən terror və deportasiya olaylarından sonra SSRİ-nin ermənilərə göstərdiyi ciddi dəstək sayəsində erməni muxtariyyatı yarada bildilər. Lakin bu, artıq digər Azərbaycan torpaqları üzərində qondarılmış Ermənistanın faktiki və hüquqi mövcudluğu fonunda baş vermişdir. Bununla Azərbaycan eyni anda iki istiqamətdə - daxildə Dağlıq Qarabağdakı separatçı-terrorçularla və siyasi sərhədlərdən kənarda olan Ermənistandan qaynaqlanan terror fəaliyyəti ilə mübarizə aparmalı oldu. Bu cür daxili “terror bifurkasiyası” şəraitində strateji olaraq hansı sosial-siyasi və geosiyasi-mədəni cəzbetmə sahəsinə düşəcəyimizi öncədən proqnozlaşdırmaq olduqca çətin məsələ idi. Azərbaycanı bu dilemmadan ulu öndər Heydər Əliyevin dövlət quruculuğu konsepsiyası və onun daxilində incəliyinə qədər düşünülmüş terrorla mübarizə metodu xilas etdi. Bu mübarizənin konseptual tərəfi milli ideyada konkret ifadə edildi: “ərazi bütövlüyünün bərpası”!

Bununla da Azərbaycanda terrorla mübarizə strategiyasının nüvəsində “terror bifurkasiyası”nın “daxili qanadını kəsmək” taktiki gedişi mərkəzi yer tuturdu. 2020-ci ilin sentyabr-noyabr ayları (cəmi 44 gün!) bu strateji məqsədi həyata keçirməyin feili mərhələsi oldu! 2023-cü ilin sentyabrında isə 23 saat 41 dəqiqə müddətində suverenlik tam təmin edildi!

Beləliklə, Azərbaycan dünya tarixində terrorla mübarizədə türk strategiyasının yeni səhifəsini açdı və faktiki olaraq terrora qalib gəlmək mübarizəsinin Zəfər marşını yazdı. Azərbaycan türk strategiyasının yeni nəzəri, siyasi-diplomatik və hərbi-praktiki konsepsiyasını yaratdı. Onun müəllifi siyasi varisliyə əsaslanan Prezident İlham Əliyevdir!

Terrorla mübarizənin Azərbaycan strategiyasının bir sıra başlıca özəllikləri vardır.

Hər şeydən öncə bu strategiya güclü dövlət quruculuğu çərçivəsində terrorun daxili bifurkasiya qanadını sürətlə kəsməkdən ibarətdir (hərbi meydanda bu, cəmi 44 gün çəkdi ki, terrorla mübarizədə görünməmiş uğurdur!) .

İkincisi, terrorun daxili bifurkasiya qanadının sürətli məhvi avtomatik olaraq beynəlxalq miqyasda onun digər daha təsirli və potensiallı qanadının “qurudulması”na imkan yaratdı. Bu, terrorla mübarizədə türk strategiyasının çox maraqlı və əhəmiyyətli bir keyfiyyətini ifadə edir.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Deməli, Fransa 2030-cu ilədək milli təhlükəsizlik prioritetləri adlı strateji təhlil hazırlayıb və sənəddə dünyanı, obrazlı desək, boz rəngdə göstərib. Əvvəla, onu deyək ki, beynəlxalq miqyasda ixtilafların və qarşıdurmaların olduğunu hamı bilir və bunun üçün hansısa təhlil hazırlamaq mənasızdır. Yəni, görünən dağa bələdçi lazım deyil.**

İkincisi, Fransanın lakmus kağızında qeyd edilmiş böhranlı durumlar, az qala, yarım əsrdir özünün gərginlik amplitudasını saxlayır. Amma bu gərginlik ocaqlarının heç də hamısını aktiv saymaq olmaz. Ukrayna və Yaxın Şərqdəki hərbi qarşıdurmaların miqyasını təsəvvürə gətirmək üçün də əlahiddə təhlil zərurəti duyulmur. O ki qaldı Cənubi Qafqaza, mövcud platformada vəziyyət fərqlidir. Amma Parisin regiona öz baxışı var. Baxış nədən ibarətdir, bu barədə söz açacağıq. Həlalik isə...

Bu, Fransanın haqqında söz açdığımız strateji təhlil sənədinin məzmunundan aşkar duyulur. Təhlildə bildirilir ki, Paris Aİ-nin quruma üzvlük niyyətini açıqlayan Balkan və Cənubi Qafqaz ölkələri ilə müdafiə qabiliyyətli münasibətlərini möhkəmləndirmək istəklərini dəstəkləyəcək.

Bəli, Fransa dolayısı ilə Aİ egidası altında digər regionlarla yanaşı, Cənubi Qafqaza da hərbi yardım göstəriləcəyini vurğulayır. Əlbəttə ki, bu tipli yardım deyildikdə Ermənistan nəzərdə tutulur.

# Parisin gərginlik prioriteti – Cənubi Qafqazda sülhə demarş

## *Ermənistan nəticə çıxarmalı, dirəniş göstərməlidir*

Məlumdur ki, Cənubi Qafqazda klassik münaqişəli durum Azərbaycan və Ermənistan arasındadır. Ölkələr iki müharibə aparıb, minlərlə insan həyatını itirib, yaralanıb və s. O da məlumdur ki, hazırda tərəflər sülh müqaviləsi imzalamağa yaxın olsalar da, azərbaycan və erməni xalqlarının rəvan münasibətlər yoluna qədəm qoymalarının müəyyən zamana ehtiyacları var və bu, təbii sayılmalıdır. Hər bir halda, başlıca nüans iki qonşu dövlətin təmsilçilərinin danışıqlar masasına əyləşmələri, müəyyən məsələlər ətrafında razılığa gəlmələridir. Mövcud status-kvo gələcəyə nikbin baxmağa əsas verir.

Deməli, belə qənaətə gəlmək olar ki, rəsmi Paris yenidən İrəvanı illüziya bataqlığına çəkməyə girişib. Başqa sözlə desək, Fransa özünün regional maraqları naminə Ermənistanı alətə çevirməkdə israrlıdır. Başqa bir qənaət isə budur ki, ölkə ya İrəvanı sülh müqaviləsini imzalamaqdan daşındırmağa, ya da imzalanması gözlənilən barış sazişini pozması üçün hərəkətə gətirməyə cəhd göstərəcək.

Sonda onu da bildirək ki, Fransanın 2030-cu ilədək milli təhlükəsizlik prioritetləri adlı strateji təhlilində açıqlanan məqamlar Cənubi Qafqazda barışa, Azərbaycan-Ermənistan sülhünə qarşı çıxan



Fransanın strateji baxışına isə zaman amili yox, nikbinlikdən uzaq böhranlı vəziyyət anlayışı hakim kəsilib. Belə qənaətə gəlmək mümkündür ki, Paris, əslində, nəyi, hansı durumu görməkdə maraqlıdırsa, onu təsvir edib. Deməli, onun üçün Azərbaycan və Ermənistan arasında barış mühiti yaratmaq naminə çalışmaları heç bir gerçək əhəmiyyət daşımır. Nəzərə alaq ki, gəldiyimiz qənaəti sübuta yetirən başqa mətləblər barədə də danışmaq olar.

Məsələn, Belçika Nümayəndələr Palatası bir neçə gün əvvəl qətnamə çıxararaq iddia edib ki, guya Azərbaycan sülhə töhfə vermir, Qarabağ ermənilərini deportasiya edib, bölgədəki keçmiş separatçı rejimin rəhbərləri də daxil, erməni əsirlərini azadlığa buraxmır və bütün bunlar beynəlxalq hüququn pozulmasıdır. Belçikalı parlamentarilərin köhnə klişeləri gündəmə gətirdikləri aydındır. Üstəlik, sadalanan cəfəngiyyatlar hazırda Ermənistan dövlətinin xarici siyasət prioriteti deyil. Elə isə bu erməni “canfəşanlığı” nə üçündür? Cavabımız olacaq.

Şübhə yoxdur ki, Belçikanın ardınca oxşar qətnamələri “köhnə qitə”nin dirijor çubuğu ilə hərəkətə gələn digər ölkələrinin qanunverici orqanları da çıxaracaqlar. Bütün bunlar Bakı ilə İrəvan arasında gərginliyin saxlanıldığı mesajını ünvanlamağa, Avropanın ictimai rəyini Cənubi Qafqazda gərginlik ritorikasına kökləməyə hesablanıb. Ən əsası, belə qətnamələrin Fransa tərəfindən hazırlanıb dövriyyəyə buraxıldığı məlumdur. Bir halda ki, ölkə Azərbaycan və Ermənistan arasında gələcəkdə də münaqişə ocağı təsəvvürünü formalaşdırır, bu təsəvvürü beynəlxalq aləmə “yedizdirmək” lazımdır. Yəni, cavabımız budur ki, Belçika Nümayəndələr Palatasının qətnaməsi təxribat məqsədlidir.

Bəli, məqsəd, eyni zamanda, dünyanın gözündə Azərbaycanın qeyri-konstruktiv, işğalçı obrazını formalaşdırmaqdır. Zaman-zaman Fransanın özünün də mövcud istiqamətdə fərdi səylər göstərdiyi faktdır. Belə ritorikanı gündəmdə saxlamaqla ölkənin qlobal gündəmi var. Söhbət Parisin Cənubi Qafqazda söz sahibi olmaq avantürizmindən gedir.

Yelisey sarayının avantüra naminə Avropa İttifaqını alətə çevirdiyi məlumdur. qüvvələrin Avropa qanadının aktiv olacağını söyləməyə əsas verir. Mövcud durumda rəsmi İrəvanın təxribatlara uymaması, ikitərəfli danışıqlar gündəliyinə sadiq qalması çətinləşə bilər.

Deməli, qarşıdakı müddətdə Ermənistan rəhbərliyinin özünü necə aparmasına diqqət yetirmək şərtdir. Onu da bildirək ki, indiyədək İrəvanın kənar qüvvələrin təsiri ilə sülh prosesində əldə edilmiş nailiyyətləri sıradan çıxarması halları çox olub. Ancaq belə halların heç biri Ermənistana fayda verməyib, əksinə, ölkənin durumunu ağırlaşdırıb.

Ən sonda Fransının məlum sənədindəki bir məqamın üzərində dayanaq. Söhbət Bakı Təşəbbüs Qrupunun (BTQ) adının çəkilməsindən gedir. Məlumdur ki, bu qrup dünya miqyasında Parisin neokolonializm niyyətlərinə qarşı effektiv mübarizə aparır. Təsisatın qarşısına qoyduğu məqsədin reallaşdırılması naminə çoxsaylı səmərəli toplantılar təşkil etməsi də diqqətdən yayınmır. O toplantılar ki, həm beynəlxalq miqyasda böyük rezonans doğurur, həm də Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqları ruhlandırır. Görünür, elə buna görədir ki, rəsmi Paris sözügedən təhlildə, guya, BTQ-nin apardığı fəaliyyəti sıradan çıxarmaq üçün tədbirlər gördüyünü açıqlayıb.

Aydındır ki, Fransanın Azərbaycanın təşəbbüsünə qarşı qoya biləcək heç bir aləti yoxdur. Bu, öz yerində. Ancaq təhlildə ölkəmizin adını çəkilməsinin özü BTQ-nin reallaşdırdığı tədbirlərin ciddiliyinin bariz göstəricisidir. Belə bir durumda dövlətçilik ənənələri, dəyərləri ilə öyünən Fransanın halına acımaq qalır. Sözümüz ondadır ki, Ermənistan rəhbərliyi elə bundan da nəticə çıxarmalı, Azərbaycanla sülhdən yayınmamalıdır. Həm də ona görə yayınmamalıdır ki, konstruktiv mövqe tutmaq, illüziyalara qapılmamaq ölkənin gələcək yaşam şansıdır. Rəsmi İrəvan Rusiyanın bəzi dairələrinin barış mühitinin formalaşmasına zidd fəaliyyətinə münasibətdə prinsipial mövqe tutduğu kimi, Fransanın timsalında Avropanın anti-sülh niyyətlərinə də dirəniş göstərməlidir.

*Ə.CAHANGİROĞLU*
*XQ*



# Erməni separatizminin Belçika “sifəti”

## Bu ölkənin “insan hüquqları və sülhün qayğısını çəkən” qətnaməsinə Milli Məclis layiqli cavab verdi

**Belçika parlamentinin Nümayəndələr Palatası qərəzliyi, siyasi riyakarlığı və “insan hüquqlarına qayğı və sülhə dəstək” adı altında Cənubi Qafqazın daxili işlərinə qarışmaq istəyini açıq şəkildə nümayiş etdirən anti-Azərbaycan qətnaməsi qəbul edib.**

Təəccüblü deyil ki, “sənədin” həmmüəllifi Ermənistana sədaqətini və Azərbaycana qarşı antipatiyasını heç vaxt gizlətməyən, ölkəmizi bütün ağlasığmaz günahlarda ittiham etməyi sevən bədnam Mişel de Meqdedir. O da gizli deyil ki, Belçika parlamentinin bu qətnaməsi hüquqi qüvvəyə malik sənəd, yəni, sadəcə, bir kağız parçası deyil, mahiyyət etibarilə təhrif olunmuş siyasi proklomasiyadır. Məqsəd bəllidir: ictimaiyyətdə Azərbaycanın “cəzalandırıla biləcəyi” təsəvvürünü yaratmaq. Amma qətnaməyə səs verən belçikalı parlamentarilər bu cür təxribatçı bəyanatların Aİ-nin regionda sülhü qorumaq səylərini nüfuzdan saldığını heç düşünmürlər də.

Bədnam qətnamədə əsas vurğu onun üzərinədir ki, Azərbaycanın qondarma, separatçı “artsax” rejiminə qarşı keçirdiyi qanuni antiterror əməliyyatı “hücum” kimi qiymətləndirilir, bu addımın beynəlxalq hüquqa zidd olduğu iddia edilir. Amma həqiqət ayrı şeyi deyir. Azərbaycanın həmin ərazidə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini, bu zaman mülki əhaliyə və mülki obyektlərə heç bir zərər toxunmadığı faktını BMT-nin bölgəyə göndərdiyi faktaraşdırıcı missiya da təsdiqlədi. Yəni, Azərbaycan 2020-ci ilin sentyabrında birgünlük antiterror tədbirini həyata keçirərkən BMT Nizamnaməsinə, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinə tam riayət edib.

Azərbaycan Milli Məclisi Belçika Nümayəndələr Palatasının birtərəfli və qərəzli qətnaməsinə kəskin etirazını bildirib, o sənəddə ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları qətiyyətlə rədd edib. Yoxlanılmamış, yanlış və birtərəfli məlumatlar üzərində qurulan bu sənədin müəlliflərinin son dövrlər Cənubi Qafqaz regionunda təşəkkül tapmış siyasi, hüquqi və humanitar şəraiti görməzdən gəldikləri, beynəlxalq hüquq prinsiplərinə və normalarına etinasızlıq göstərdikləri, hər bir parlamentin rəhbər tutmalı olduğu ədalət və obyektivlik meyarlarını saya salmadıqları qeyd olunduğu MM-in məlumatında Belçikanın qanunverici orqanının qəbul etdiyi qətnamədə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək kimi qanuni və suveren hüququ, əslində, inkar edildiyi vurğulanır: “Belçika parlamenti üzvlərinin Azərbaycanı “müharibə cinayətlərində” və “insan hüquqlarının pozuntularında” ittiham etmək cəhdləri əsassızdır və siyasi motivlərlə bağlıdır. Qətnamədə Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən 30 il ərzində işğal altında saxlanılmasının, bu dövrdə dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş çoxsaylı cinayətlərin, soyqırımı aktlarının, etnik təmizləmə nəticəsində 750 min azərbaycanlının öz vətənində didərgin salınmasının, şəhər və kəndlərimizin dağıdılmasının, milli, mədəni, dini və tarixi mirasımızın talan və təhqir edilməsinin üzərindən sükutla keçilib. Əvəzində isə öz torpağında sülhü və ədaləti bərqərar etməyə çalışan Azərbaycan haqsız hücumlara məruz qoyulub”.

Milli Məclisin məlumatında deyilir ki, qətnamədə Ermənistandan kütləvi surətdə deportasiya edilmiş və ya zorla qovulmuş yüz minlərlə azərbaycanlının dinc yolla ata-baba torpaqlarına qayıtmaq hüququnu nəzərdə tutan “Qərbi Azərbaycan” anlayışı ilə bağlı təxribatçı və yanlış təfsirə yol verilib: “Bu anlayış tarixi yaddaşına sadiq olan xalqımızın haqq-ədalət istəyini ifadə edir və beynəlxalq hüquqa tam uyğundur”.

Məlimatda birmənalı şəkildə bildirilir ki, bəyan edilmiş məqsədlərə zidd olan bu sənəd bölgədə sülhyaratma səylərinə heç də kömək göstərmir: “Sülh gündəliyinin irəli aparılması üçün ciddi addımların atıldığı indiki şəraitdə Belçika, İsveçrə kimi ölkələrin parlamentlərində, Avropa Parlamentində erməni diasporu ilə əlaqəsi olan qüvvələr sülh prosesini pozmağa, regionda yeni gərginlik ocağı yaratmağa çalışırlar”.

*

Əslində, bu ermənipərəst qətnamə təkcə Belçika və ümumilikdə Avropa ictimaiyyətinin qulağına davamlı olaraq yeridilən dezinformasiya deyil. Bu sənədin bir niyyət, cəhd olduğunu bir kənara qoysaq belə, Bakı ilə İrəvan arasında sülhün bərqərar olması səylərinə arxadan vurulan zərbə sayıla bilər. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi hələ imzalanmayıb və bu, o, deməkdir ki, tərəflərdən birinin “şərtlərinin pozulması” kimi iddia, ən azı, absurddur. Burada Belçika Nümayəndələr Palatasının təmsil etdiyi “hörmətli məclisə” xatırladırıq ki, İrəvan hələ də sülh müqaviləsinin imzalanması üçün əsas şərti yerinə yetirməyib –Ermənistan konstitusiyasına heç bir düzəliş edilməyib. Axı, bu, çox vacib məqamdır: hayların baş qanununun preambulasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları var.

Bundan əlavə, Belçika parlamentinin təxribatçı qətnaməsi beynəlxalq hüququn elementar prinsiplərini şübhə altına alır, çünki o, Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymadan, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini təxminən otuz il ərzində işğal altında saxlayan Ermənistan olduğuna məhəl qoymur. Bununla belə, Belçika parlamentinin obyektivlik prinsiplərini pozan açıq-aşkar qərəzli və təxribat xarakterli qətnamələr qəbul etməsi ilk dəfə deyil. İkinci Qarabağ Müharibəsindən dərhal sonra belçikalı deputatlar faktiki olaraq qondarma “DQR”in – qeyri-qanuni qurumun “müstəqilliyinin” tanınmasını tələb edən sənəd qəbul etmişdilər. Yəni, heç bir dövlət, o cümlədən Ermənistanın özü tərəfindən tanınmayan separatçı qurumu “tanıdılar”. Hüquqi nöqteyi-nəzərdən Belçika o zaman faktiki olaraq separatizmi dəstəklədi.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Pərvanə Vəliyeva** XQ-yə açıqlamasında Belçika parlamentinin bundan əvvəl də Azərbaycan əleyhinə cəfəng ittihamlarla dolu, ölkəmizin ərazi bütövlüyü və suverenliyini təhdid edən qətnamə layihələri müzakirə etdiyinə diqqəti çəkdi: “Əslində, belçikalı deputatlar öz ölkələrinin problemlərini, hakimiyyətin fəaliyyət və ya fəaliyyətsizliyini müzakirə etsələr, daha doğru olar. Bölgəmizdən xeyli uzaqda yerləşən xarici ölkə Azərbaycanın daxili işlərinə qarışmaqla öz daxilində baş verən siyasi böhranları gizlətməyə çalışır. Azərbaycan daim qlobal və regional məsələlərə ədalət prizmasından yanaşıb. Belçika deputatları ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərə göz yumurlar. Qərbi Azərbaycandan qovulan soydaşlarımız XX əsrdə dörd dəfə böyük deportasiyaya məruz qalıb və bu deportasiyalar yaddaşımızda acı izlər buraxıb. İşğal illərində Azərbaycan torpaqlarına 1,5 milyon mina basdırılıb, bu isə ölkə ərazisinin 13 faizini təşkil edir. Ermənistanın 30 illik mina terroru nəticəsində beynəlxalq humanitar hüquq, o cümlədən fundamental insan hüquqları kobud şəkildə pozulub. Minaların təmizlənməsi uzun illər çəkə bilər ki, bu da münaqişədən sonrakı reabilitasiya və yenidənqurma işlərinə mənfi təsir göstərir. Bütün bunlar 1 milyona yaxın keçmiş qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qayıtmasını çətinləşdirir”.

Millət vəkili onu da əlavə etdi ki, Belçika Krallığında növbəti siyasi böhrandan sonra bir qrup siyasi partiyanın bu ilin fevralında imzaladığı koalisiya sazişində Azərbaycana və azərbaycanlılara qarşı qərəzli və ayrı-seçkilik xarakterli müddəalar yer alır: “Sazişdə “Dağlıq Qarabağ” kimi ifadələrdən istifadə etməklə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə xələl gətirilməyə çalışılır. 1908-1960-cı illərdə Afrikanın Konqo, Ruanda, Burundi kimi ölkələri Belçikanın irqçi və müstəmləkəçi siyasətinin qurbanı olub. Bu siyasət yerli xalqların dilini, dinini, mədəniyyətini, irqini yer üzündən silməyə yönəlmişdi. Kolonial dövrün acı irsi Afrika ölkələrində hələ də davam edir. Həmin xalqlar Belçika hökumətindən maddi və mənəvi təzminat tələb edirlər. Belçika parlamentarilərinə ölkələrinin müstəmləkə keçmişi və fərqli irqdən olan şəxslərin və onların ailələrinin məruz qaldıqları dərin iztirabları aradan qaldırmaq üçün təşəbbüslərlə çıxış etməyi tövsiyə edərdim.”

*

Qətnamədə rəsmi Brüssel Ermənistanı danışıqlara açıq, “sülhsevər tərəf” kimi göstərərək, mahiyyət etibarilə anlayışları tam tərsinə təsnifatlandırır. Axı ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan tamhüquqlu sülh sazişinin imzalanmasına ilk çağırış edən Azərbaycandır. Ermənistan isə “açıqlıq” ritorikasına baxmayaraq, bugünədək sülhə gətirib çıxara biləcək konkret addımlardan hər mənada yayınıb. Qəti şübhə yoxdur ki, bu cür qətnamələrin qəbulu Avropada, xüsusən də Belçika və Fransada zəhərli kök salmış erməni diasporunun “barmağı” olmadan mümkün deyil. Dünyadakı erməni lobbi və diaspora təşkilatları hay maraqlarını yeritmək üçün humanitar və insan haqları mövzularından sui-istifadə edərək müxtəlif ölkələrin parlamentarilərinə şirnikləndirici təkliflər verir, bu alınmayanda isə təzyiq və şantaj kampaniyaları işə düşür. Bu mənada Belçika nə birinci, nə də sonuncu presedentdir...

Yeri gəlmişkən, yazının əvvəlində adını çəkdiyimiz Mişel de Meqde bir sıra digər belçikalı deputatlar kimi erməni təşkilatlarının nümayəndələri ilə açıq şəkildə əlaqə saxlayır, onların forum və tədbirlərində tez-tez alovlu çıxışlar edirlər. Erməni diasporu sülh prosesinə zərər vurmaqla yanaşı, həm də Ermənistanın özündə revanşist əhval-ruhiyyəni təşviq edir, revanşist siyasətçilər hələ də İkinci Qarabağ müharibəsinin nəticələrinə yenidən baxılacağına ümid bəsləyirlər.

Hansı bucaq altında baxılmasından asılı olmayaraq, Belçika Nümayəndələr Palatasının qətnaməsi aşkar təxribat, erməni diasporunun buyruqlarını yerinə yetirən Mişel de Meqde kimi şəxslərin siyasi və digər dividendlər qazanmaq istəyindən doğan beyin məhsulu – spekulyasiya və manipulyasiyadır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Süni intellekt vasitə, məqsəd isə ədalətli qərardır

## *Rəqəmsal transformasiyanın hüquq sisteminə təsiri və gələcəyin ədalət modeli*

***Rəqəmsallaşma əsrində yaşayırıq. Bir zamanlar yalnız elmi-fantastik filmlərdə gördüyümüz süni intellekt (Sİ) bu gün həyatın ayrılmaz bir parçasına çevrilib. Təhsil, səhiyyə, maliyyə, sənaye və informasiya texnologiyalarında olduğu kimi, hüquq sahəsi də bu transformasiyanın təsir dairəsinə daxildir. Bəs texnoloji inqilab ədalət mühakiməsinin təbiətini necə dəyişəcək? Süni intellektin məhkəmə sisteminə inteqrasiyası hüquq dövlətinin prinsiplərinə nə dərəcədə cavab verir? XQ-nin bu aktual mövzu ilə bağlı suallarını Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi Yunis Xəlilov cavablandırır.***



***– Yunis müəllim, bu gün süni intellektin müxtəlif sahələrdə tətbiqi genişlənməkdədir. Ədalət mühakiməsi bu tendensiyaya necə cavab verir?***

– Bəli, düzgün müşahidədir. Bugünkü dünyada süni intellekt təkcə texnoloji yenilik deyil, eyni zamanda, həyatın ritmini dəyişdirən strateji amildir. Rəqəmsal təhsil, rəqəmsal səhiyyə, rəqəmsal ödəniş sistemləri artıq həyatımızın gündəlik tələbatına çevrilib. Hüquq sistemi də bu prosesdən təcrid oluna bilməz. Dünyanın bir sıra qabaqcıl ölkələri artıq süni intellektin hüquqi sferada tətbiqinə dair “Milli strategiyalar” qəbul ediblər. Bu baxımdan, Kanada, Çin, Yaponiya, Finlandiya, Cənubi Koreya, Sinqapur, BƏƏ və İtaliya nümunə sayıla bilərlər. Azərbaycan da bu prosesdən geri qalmayıb: Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası” təsdiqlənib. Bu sənəd süni intellektin hüquqi sistem daxilində də mərhələli tətbiqinə zəmin yaradır.

***– Beynəlxalq təcrübədə süni intellektin konkret olaraq məhkəmə sistemində tətbiqini misallar üzərindən izah edə bilərsinizmi?***

– Ən maraqlı və konkret nümunələrdən biri Çin təcrübəsidir. 2017-ci ildə Çin süni intellektə əsaslanan ilk onlayn məhkəmə modelini Hangzhou şəhərində istifadəyə verdi. Daha sonra Pekin və Guangzhou şəhərlərində də bu model tətbiq olundu. Xüsusilə Pekin İnternet Məhkəməsində tətbiq olunan virtual hakim — real insana bənzər görünüş, səs və davranışlarla modelləşdirilmiş süni intellekt sistemidir. Bu məhkəmələrin yurisdiksiyasına əsasən e-ticarət, müəllif hüquqları, onlayn xidmət müqavilələri və oxşar mübahisələr daxildir. Proses tam onlayn rejimdə, video bağlantılarla və rəqəmsal sübutlarla həyata keçirilir. Orta hesabla bir iş üzrə prosesin müddəti 28 dəqiqə, yekun qərarın verilməsi isə təxminən 38 gün çəkir. Bu, klassik məhkəmə modelləri ilə müqayisədə əhəmiyyətli sürət fərqidir.

Digər tərəfdən, ABŞ-da “Compas” adlı süni intellekt proqramı, məhkumların təkrar cinayət törətmə risklərini analiz edərək, hakimlərə qərarvermədə yardımçı olur. Bu sistemin istifadəsi ilə bağlı həm tərəfdar, həm də tənqid edən mövqelər mövcuddur. Tənqidlərdən əsas motivi irqçilik ehtimalı və qərarların qeyri-obyektivliyi ilə bağlıdır. Estoniya, Litva və Hollandiya kimi Avropa ölkələrində isə daha çox texniki dəstək funksiyası daşıyan süni intellekt alqoritmləri tətbiq olunur. Estoniyada 7000 avroya qədər olan mübahisələr üzrə süni intellekt məhkəmə qərarlarını verir. Litvada süni intellekt eyni xarakterli işləri avtomatik olaraq qruplaşdırır. Hollandiya isə “e-Court” sistemindən vasitəçilik və boşanma işlərində istifadə edib.

***– Bu qədər müsbət nümunəyə rəğmən, süni intellektin hüquq sisteminə inteqrasiyası hansı riskləri doğurur?***

– Hər texnoloji yenilik kimi, süni intellekt də çağırışlarla müşayiət olunur. Ən kritik məqamlardan biri “alqoritmik qərəz” problemidir. Süni intellekt öyrənməsini insan tərəfindən daxil edilmiş məlumat bazası üzərindən həyata keçirir. Əgər bu məlumatlar qərəzlidirsə, məsələn, irq, cinsiyyət, sosial mənşə kimi meyarlarla fərqləndirilibsə, sistem də qərəzli nəticələr ortaya çıxara bilər.

Bundan daha vacib və bəlkə də daha dərin problem süni intellektin “insani faktor”-dan məhrum olmasıdır. Məsələn, insan-hakim qarşısındakı təqsirləndirilən şəxsin səmimi peşmanlığını, onun ailə vəziyyətini, psixoloji durumu və davranışlarını dəyərləndirə bilir. Bu, yalnız hüquqi deyil, eyni zamanda mənəvi və vicdani qərardır. Süni intellektin isə bu tip dərin empatik analizləri aparmaq imkanları məhduddur. Bundan başqa, sübutların təqdimatı və qiymətləndirilməsi mərhələsində süni intellektin konkret hallara fərdi yanaşma sərgiləyə bilməməsi də risk doğurur. İnsanla robot arasında ən kəskin fərqlərdən biri məhz bu nöqtədə üzə çıxır.

***– Belə çıxır ki, süni intellekt hüquqi sistemdə hakimləri tam əvəz edə bilməz?***

– Qəti şəkildə demək olar ki, hələlik yox. Amma bu texnologiya, heç şübhəsiz ki, hakimlərin qərarvermə prosesinə yardım edən, texniki və məntiqi dəstəyi təmin edən bir vasitə kimi dəyərli olacaq. Süni intellekt məhkəmə işlərinin statistik təhlili, oxşar presedentlərin aşkarlanması, sənədlərin sistemləşdirilməsi və rəqəmsal sübutların təqdimatı sahəsində əvəzsiz rol oynaya bilər. İnsan-hakim isə humanist və mənəvi dəyərlərlə qərar verən, qanunla yanaşı, vicdanını da rəhbər tutan yeganə qərarverici olaraq qalmalıdır.

***– Azərbaycanın məhkəmə sistemi bu istiqamətə nə dərəcədə hazırdır?***

– Azərbaycanda süni intellektin hüquq sisteminə inteqrasiyası hələ ilkin mərhələdədir. Amma sevindirici haldır ki, artıq konkret addımlar atılır. Ən bariz nümunə “Elektron məhkəmə” informasiya sistemidir. Bu sistem çərçivəsində aşağıdakı imkanlar təmin olunub: Elektron qeydiyyat və izləmə – işin statusunu və gedişatını real vaxtda izləmək mümkündür; Elektron sübut təqdimatı – sənədlər və dəlillər sistemə rəqəmsal şəkildə yüklənir; Video konfranslar vasitəsilə məhkəmə iclasları – bu imkan məsafədən iştirak və effektiv idarəetməni təmin edir.

Bütün bunlar gələcəkdə süni intellektin daha kompleks formada tətbiqinə zəmin yaradır. Texnoloji baza və rəqəmsal infrastruktur mövcuddur, əsas məsələ normativ hüquqi bazanın adaptasiyası və ixtisaslı kadrların hazırlanmasıdır.

***– Son olaraq ümumiləşdirsək, bu prosesin hüquq sistemi üçün perspektivi və çağırışları nədən ibarətdir?***

– Süni intellekt hüquq sisteminə şəffaflıq, sürət və çeviklik gətirə bilər. Eyni zamanda, bu texnologiyanın tətbiqi zamanı hüququn fundamental prinsiplərinə – şəxsiyyətin toxunulmazlığına, təqsirsizlik prezumpsiyasına, bərabərlik prinsipinə və ədalətli mühakimə hüququna sadiqlik təmin olunmalıdır. Texnologiya vasitədir,



məqsəd isə ədalətdir. Əgər biz texnologiyanı məqsədə çevirmədən, onu vasitə kimi dəyərləndirə bilsək, hüquq sistemində inqilabi dönüş baş verəcək.

***Söhbəti yazıya köçürdü:***
***Azər MUSTAFAYEV***

“Yaşıl” gələcəyə keçid

# Havadan elektrik enerjisi almaq mümkündürmü?

## *Energetika veteranı, texnika elmləri namizədi Natiq Talıbovun ixtirası bu suala cavab verir*

**Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Azərbaycanın enerji sisteminin səmərəliliyinin və generasiya gücünün artırılması, elektrik enerjisi istesalına şərti yanacaq sərfiyyatının aşağı salınması və beləliklə, təbii qaza qənaət etmək mkanının yaradılması mühüm vəzifə kimi qarşıya qoyulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Bu yaxınlarda ölkəmizin energetika mərkəzi olan Mingəçevirdə daha bir böyük gücü olan enerji müəssisəsi – “8 Noyabr” elektrik stansiyası istifadəyə verilib. Bu stansiyada bir kilovat-saat elektrik enerjisinə şərti yanacaq sərfinin 210-215 qr/kVt-saata endirilməsi nəzərdə tutulur.**

“Ənənəvi istilik elektrik stansiyalarında yandırılan yanacağın istilik enerjisinin, təxminən, 60 faizi işlənmiş buxarın kondensantlaşdırılmasına sərf edilərək ətraf mühitə atılır. Bu, İES-in faydalı iş əmsalını kəskin şəkildə azaldır, qlobal istiləşməni artırır. Mənim ixtira etdiyim “Aşağı potensiallı istilik daşıyıcılarından istifadə etməklə elektrik enerjisinin alınması üsulu və qurğusunda isə belə itkilər yox dərəcəsindədir.” Bu sözlərin müəllifi veteran-energetik, texnika elmləri namizədi Natiq Talıbovdur. Müsahibimiz belə davam etdi.



– Hələ ali məktəbdə təhsil aldığım dövrdə sevimli müəllimlərimdən olan Ənvər Hüseynzadə deyərdi ki, gələcək nəsillər bizi yanacağın istilik enerjisinin 60 faizini ətraf mühitə atmaqda ittiham edəcəklər. Bu sözlər elə o vaxtdan hər zaman məni düşündürüb. Mənim patent aldığım ilk ixtirada təklif olunan yeni kondensator konstruksiyası həmin enerjini suyun şirinləşdirilməsinə yönəldirdi...

Natiq Talıbov bildirdi ki, araşdırmalarını sonralar da davam etdirib. Xüsusən də, 1993-cü ilin fevralında Əli Bayramlı DRES-də (indiki Şirvan İES) istehsalat-texniki şöbənin müdiri vəzifəsini könüllü tərk edərək doğulub boya-başa çatdığı Naxçıvana gedib, orada ulu öndər Heydər Əliyevin xeyir-duası ilə yeni istilik-elektrik stansiyasının quraşdırılmasına rəhbərlik etdiyi dövrdə həmin məsələ barədə daha dərindən düşünməyə başlayıb:

– Belə ki, blokada şəraitində olan muxtar respublikanın elektrik enerjisinə tələbatını ödəmək üçün 150 MVt gücə ehtiyac olduğu halda, bölgə “Araz” SES-dən alınan 11 MVt elektrik gücünün və İran İslam Respublikasından verilən bundan bir qədər artıq elektrik enerjisinin ümidinə qalmışdı. O vaxt Türkiyədən gətirilmiş hər biri 15,4 MVt gücündə 4 ədəd qaz turbini quraşdırılaraq işə salındı. Bu da muxtar respublikada gecələr elektrik enerjisi təchizatına müsbət təsir göstərdi. Bunlar barədə “Xalq qəzeti”nin 23 yanvar 2023-cü il tarixli 17-ci nömrəsində ətraflı söhbət açılmışdı.

Natiq Talıbov Naxçıvandan Bakıya qayıdıb “Azərenerji”də əmək fəlaiyyətini davam etdirməyə başladıqdan sonra istilik-elektrik stansiyalarında yanacağın enerjisinin itkisini aradan qaldırmaq ideyası ilə bağlı uzun müddət araşdırmalar aparıb. Yalnız 20 ildən sonra, 2018-ci ildə həmin ideyaya əsaslanan üsul və ixtirasını Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinə təqdim edib. Agentlik “Aşağı potensiallı istilik daşıyıcılarından istifadə etməklə elektrik enerjisinin alınması üsulu və qurğusu” adlı ixtiranı 31 may 2023-cü ildə rəsmən qeydiyyata alıb və patentləşdirib.

Həmin ildə Azərbaycanın istilik energetikası sahəsində tanınan alimlərindən 5 nəfəri – ADNSU-nun enerji istehsalı texnologiyaları kafedrasının professoru, texnika elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, “Şöhrət” ordenli, Gürcüstan Milli Energetika Akademiyasının akademiki, M.Lomonosov adına qızıl medalın və ABŞ-ın “Elmin açarı” mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Kamal Abdullayev, AzTU-nun nəqliyyat texnikası və idarəetmə texnologiyaları kafedrasının professoru, texnika elmləri doktoru Ziyafət Kərimov, AzTU-nun enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedrasının professoru, texnika elmləri doktoru Misirxan Talıbov, Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun enerjisistemin ekoloji problemləri şöbəsinin rəisi, texnika elmləri doktoru Rüfət Kəlbəliyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor, ekoloq İslam Mustafayev dövlətimizin başçısına ünvanladıqları müraciətdə Natiq Talıbovun ixtirasının əhəmiyyəti və üstünlüyü barədə ətraflı məlumat verib, ixtiranın istehsalata yolunun qısaldılmasına, ölkəmizdə onun iqtisadi səmərəsindən istifadə edilməsinə dövlət səviyyəsində kömək göstərilməsini xahiş ediblər. Məktubda deylir: “Diqqətinizə təqdim etdiyimiz yeni ixtiranın mövcud alternativ enerji istehsal edən qurğulardan əsas fərqi və üstünlükləri aşağıdakılardan ibarətdir”:

**1.** Ənənəvi İES-də istifadə edilən yanacağın istilik enerjisinin, təxminən, 60 faizi işlənmiş buxarın kondensantlaşdırılmasına sərf edilərək açıq təbiətə atılır. Bu da İES-lərin faydalı iş əmsalını kəskin azaldır, qlobal istiləşməni sürətləndirir. Təklif edilən qurğuda (üsulda) aşağı potensiallı istilik daşıyıcılarından istifadə edilərək buxarlanma istiliyi atmosfer havasının enerjisi hesabına alındığı üçün qurğunun (üsulun) faydalı iş əmsalı vahidə yaxınlaşır. Onda 1 kilovat-saat elektrik enerjisinə sərf olunan şərti yanacağın miqdarı 123 qram/kilovat-saat ola bilər. Bu qurğuda “istilik nasosu” effekti olduğu üçün, yəni tsiklə ətraf mühitdən enerji qatıldığı üçün şərti yanacaq sərfi daha az ola bilər. Azərbaycan üzrə hazırda 1 kilovat-saat elektrik enerjisinə şərti yanacağın sərfi, təxminən, 250 qram/kilovat-saatdır.

**2.** Bu üsulda (qurğuda) külli miqdarda soyuqluq enerjisi alındığından həmin enerjidən dəniz suyunun dondurulma üsulu ilə şirinləşdirilməsində və digər məqsədlər üçün istifadə etmək mümkündür.

**3.** Bərpa olunan enerji qurğularından fərqi: günəş elektrik stansiyası günəşli günlərdən, külək elektrik qurğusu küləkdən tam asılı olduğu halda atmosfer havasının daimi mövcudluğu bu üsulla elektrik enerjisinin istehsalının fasiləsiz aparılmasına imkan yaradır. Atmosfer temperaturunun qış-yay, gecə-gündüz dəyişməsi isə qurğunun effektivliyinə qismən təsir göstərə bilər.

**4.** Bu ixtira (üsul) ikiməqsədli xüsusiyyətə malikdir: yəni elektrik enerjisinin istehsalı və dəniz suyunun şirinləşdirilməsi üçün soyuqluq enerjisinin eyni qurğuda (eyni vaxtda) həyata keçirildiyindən hər iki məhsula kapital qoyuluşu, o cümlədən maya dəyəri kəskin şəkildə azalır”.

Məlum olduğu kimi, patent (ixtira) almaq üçün iddia sənədinin verilməsi, müəllif hüquqlarının qorunması, patentin tətbiqi üçün dövlət dəstəyi və başqa məsələlər ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi 1997-ci il iyulun 25-də imzaladığı “Patent haqqında” Azərbaycan Respublikasının 312 İQ saylı Qanunu ilə tənzimlənir. Qanunun 3-cü maddəsində deyilir ki, ixtira, faydalı model və sənaye nümunələrinə hüquqlar dövlət tərəfindən qorunur və patentlə təsdiq edilir. Patent ixtira, faydalı model və sənaye nümunələrinə müəllifliyi və ilkinliyi təsdiq edir və onlardan istifadə etmək üçün müstəsna hüquq verir… 4-cü maddədə isə ixtira, faydalı model və sənaye nümunələrinin mühafizəsi və onlardan istifadə sahəsində dövlətin vəzifələri müəyyənləşdirilir.

Tanınmış alimlərin ölkə rəhbərinə müraciəti Azərbaycan Respublikası Energetika Nazirliyinə yönəldilib və nazirlik müraciəti cavablandırmaqla yanaşı, həm də “Azərenerji”ASC-yə göndərib. Hər iki qurumdan müraciət müəlliflərinə və Natiq Talıbovun özünə cavab məktubu gəlib. Nazirliyin cavab məktubunda qeyd edilir ki, müraciətdə qaldırılımış məsələlər ixtiranın müəllifi ilə müzakirə edilib.

Natiq Talıbov deyir: “Nazirlikdə məni şöbə müdiri qəbul etdi. Mən ona ixtirama aid sxemi izah etmək istədim. Lakin o, istilik elektrik stansiyaları üzrə mütəxəssis olmadığını bildirib, bu məsələnin “Azərenerji” ASC-yə tapşırıldığı barədə mənə məlumat verdi”. “Azərenerji” isə cavab məktubunda “təklif edilən texnoloji proses haqqında məlumatların, tsiklin termodinamik hesabatlarının və digər mühəndis hesabatlarının araşdırılması üçün səhmdar cəmiyyətə təqdim edilməsini məqsədəuyğun hesab edib. N.Talıbov səhmdar cəmiyyətə dəvət olunub və orada texniki-istehsalat şöbəsinin böyük mühəndisi Zəminə Tağıyeva ilə görüşüb. Daha sonra isə onu “Azərenerji”nin vitse-prezidentinin köməkçisi qəbul edib. Natiq müəllimin məqsədi ixtiranın mahiyyətini vitse-prezidentə izah etmək idi... Hər halda, hər iki görüşün nəticəsi... nəticəsizlik olub.

Alimlərin ölkə rəhbərinə müraciətində ixtira müəllifinin vaxtilə əməkdaşlıq etdiyi Sankt-Peterburq “Xolod” İnstitutuna və Moskva Energetika İnstitutuna ezam edilməsi də xahiş olunurdu. Azərbaycanda istehsal edilməyən qurğu və avadanlıqların, soyuqluq agentlərinin qiymətlərinin və başqa xırda texniki məsələlərin dəqiqləşdirilməsinə ehtiyac olduğu üçün... Bu xahişə isə Elm və Təhsil Nazirliyindən cavab gəlib, N. Talıbova ezamiyyət üçün vəsait ayrılmasının mümkünsüzlüyü bildirilib. Halbuki o bu nazirliyə heç vaxt müraciət etməyib. İxtiraçının fikrincə isə, “Patent haqqında” Qanunun 4.1.6. maddəsinə əsasən, ixtira, faydalı model və sənaye nümunələrinin mühafizəsi və onlardan istifadə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə və təcrübə mübadiləsinə şərait yaradılması dövlətin vəzifələrindəndir.

Natiq Talıbov energetika nazirinin müavini Elnur Soltanova və “Azərenerji” ASC-nin vitse-prezidenti Ziyəddin Quliyevə ötən ilin yanvarında ünvanladığı məktubda ixtiraya “Azərenerji” ASC-nin Texniki Şurasında baxılmasını, tapşırıq-layihə qrupunun yaradılmasını xahiş edib. İxtiraçı hesab edir ki, Texniki Şuranın üzvləri arasında onun təklif etdiyi üsul və qurğunun istehsalata tətbiqi haqqında obyektiv fikir söyləyə biləcək akademik Arif Həşimov, professor Kamal Abdullayev və başqaları kimi energetika məsələlərini mükəmməl bilən alimlər var.

Bundan başqa, Natiq Talıbov Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilməsi ərəfəsində Prezident Administrasiyasına, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, COP29-un müəyyən edilmiş Prezidentinə də müraciət edərək həm öz ixtirasının əhəmiyyətini izah edib, həm də qlobal istiləşmə ilə bağlı rəy və təkliflərini bildirib.

İxtiraçı-alimin Azərbaycan Elm Fondunun qrant müsabiqələrindən faydalanmaq cəhdləri də uğursuz olub. Xüsusən, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar 2023-cü il üzrə keçirilən Əsas Qrant Müsabiqəsinə təqdim etdiyi layihənin qəbul olunacağına böyük ümid bəsləyib. Lakin ümidi doğrulmayıb. 2024-cü il üzrə müsabiqəyə isə heç yaxın buraxılmayıb...

Beləliklə, ixtiranın praktikada yoxlanılmasına və tətbiqinə hələ də yol açılmayıb. Bununla belə, ixtiraçı-alim ümidini itirməyib. O, az yanacaqla elektrik enerjisi alınması və dəniz suyunun şirinləşdirilməsi sahəsində böyük iqtisadi səmərə verə biləcək ixtiranın həyata vəsiqə qazanmasının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi alınması konsepsiyasına tam uyğun olduğu qənaətindədir. N.Talıbov daha da təkmilləşdirilmiş yeni ixtirasını – “Aşağı potensiallı istilik daşıyıcılarından istifadə etməklə elektrik enerjisinin və soyuqluq enerjisinin alınması üsulu və qurğusu” adlı iddia sənədinni Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinə təqdim edib. Bu ixtirada əsasən atmosfer havasının enerjisindən istifadə etməklə elektrik enerjisinin alınması ilə yanaşı, dəniz suyunun dondurulma üsulu ilə şirinləşdirilməsi məsələsi də öz həllini tapıb...

# MDB ölkələri ilə ticarət dövriyyəsi – 4 milyard dollar

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar – iyun aylarında Azərbaycanla Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasındakı ticarət dövriyyəsinin həcmi 3 milyard 883 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 783,5 milyon dollar və ya 25,3 faiz çox) olub. Qeyd edək ki, 2024-cü ilin birinci yarısında respublikamızla MDB ölkələri arasındakı ticarət dövriyyəsinin həcmi 3,1 milyard dollara yüksəlib.**



Birinci yarımildə MDB ölkələrinə ixracın həcmi 858 miyon 153 min dollar (ötən ilin müvafiq dövrü ilə müqayisədə 58,484 milyon ABŞ dolları, yaxud da 7,3 faiz çox) olub. Bu ölkələrdən idxalın həcmi isə 3 milyard 25 milyon dollara (illik müqayisədə 725 milyon dollar və ya 31,5 faiz çox) yüksəlib.

Ötən ilin birinci yarısında Azərbaycandan MDB ölkələrinə ixracın həcmi 800 milyon dollar, idxalın həcmi isə 2 milyard 3 milyon dollar təşkil edib. Xatırladaq ki, bu ilin yanvar – iyun aylarında Azərbaycan xarici ölkələrlə 24,4 milyard dollar (ötən ilin eyni dövrünə nisbətən 2 milyard 632 milyon dollar və ya 12,1 faiz çox) dəyərində ticarət əməliyyatı aparıb.

Ötən ilin eyni dövründə Azərbaycan xarici ölkələrlə 21 milyard 768 milyon dollar dəyərində ticarət əməliyyatı aparmışdı. Xarici ticarət dövriyyəsinin 12 milyard 878 milyon dolları ixracın, 11 milyard 522 milyon dolları isə idxalın payına düşüb.

# 6 ayda bərpaolunan enerji istehsalı 14 faizdən çox artıb




**Energetika Nazirliyindən redaksiyamıza verilən məlumata görə, cari ilin birinci yarımilində respublika üzrə elektrik enerjisi istehsalı 291,5 milyon kilovat-saat, yəni 2,2 faiz artaraq 13 milyard 849,3 milyon kilovat-saat olub.**

Bu dövrdə istilik elektrik stansiyalarında (İES-lərdə) 11 milyard 519,2 milyon kilovat-saat, su-elektrik stansiyalarında (SES-lərdə) 1 milyard 860 milyon kilovat-saat, digər mənbələr üzrə isə 470,1 milyon kilovat-saat, o cümlədən külək elektrik stansiyalarında(KES-lərdə) 21 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES-lərdə)314,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 134,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bərpaolunan enerji mənbələrindən 14,6 faiz və ya 297,2 milyon kilovat-saat artımla 2 milyard 330,1 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

6 ay ərzində elektrik enerjisinin istehsalı “AzərEnerji” ASC üzrə 12 milyard 323,2 milyon kilovat-saat (İES-lərdə 10 milyard 441,4 milyon kilovat-saat, SES-lərdə 1 milyard 851,1 milyon kilovat-saat, GES-lərdə 30,7 milyon kilovat-saat), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 14,6 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 511,5 milyon kilovat-saat təşkil edib.

Hesabat dövründə elektrik enerjisinin ixracı 59,9 faiz artaraq 709,9 milyon kilovat-saat, idxalı isə 15,9 faiz azalaraq 81,1 milyon kilovat-saat olub.

# Neftçala və Biləsuvar GES-lərdə Çin panelləri quraşdırılacaq

**Çinin fotoqalvanika (PV) sahəsində dünya lideri sayılan “JA Solar” şirkəti Azərbaycanın Neftçala və Biləsuvar rayonlarında inşa edilən günəş elektrik stansiyaları üçün ümumi gücü 1 qiqavat olan yüksək effektivlikli DeepBlue 4.0 Pro günəş panellərinin tədarükçüsü seçilib. Sözügedən layihələrin icrası ilə Birləşmiş Ərəb Əmirliklərinin aparıcı təmiz enerji operatoru olan “Masdar” şirkəti məşğuldur.**

“JA Solar” tərəfindən istehsal olunan DeepBlue 4.0 Pro panelləri, yüksək rütubət, duzluluq, güclü küləklər və havada tozun mövcudluğu ilə səciyyələnən mürəkkəb sahilyanı iqlim şəraitində istifadə üçün layihələndirilib. Korroziyaya və ekstremal hava şəraitinə qarşı yüksək dözümlülüyü sayəsində bu panellər uzunömürlülük, sabit enerji hasilatı və yüksək sistem məhsuldarlığı təmin edir ki, bu da elektrik enerjisinin səviyyələndirilmiş maya dəyərinin azalmasına və ümumi hasilatın artmasına şərait yaradır.



Qeyd edək ki, Neftçala və Bilasuvar stansiyaları istismara verildikdən sonra ildə, təxminən, 1 milyard 530 milyon kilovat-saat təmiz elektrik enerjisi istehsal edəcəyi gözlənilir. Bu da il ərzində, təqribən, 1,15 milyon ton karbon qazı emissiyasının qarşısını almağa imkan verəcək. Bu təşəbbüs Azərbaycanın enerji balansının şaxələndirilməsi və bərpa olunan enerji mənbələrinin inkişafı istiqamətində səylərinə mühüm töhfə verəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Milli jurnalistikamız yüksək ideallar məktəbidir

**Moskva Universitetini alimlik dərəcəsi ilə bitirmiş, xalqını tərəqqi yoluna çıxarmaq amalı ilə vətənə dönmüş Həsən bəy Zərdabi uzun sürən cəhdlərdən sonra 1875-ci ildə ana dilində ilk qəzetin nəşrinə icazə ala bildi. Bir neçə aylıq hazırlıq işlərində sonra iyul ayının 22-də "Əkinçi adlı qəzet işıq üzü gördü. Həmin gün Rusiya imperiyasının ucqar müstəmləkəsində – "Qafqazın cənubu" sayılan, "tatar" adlandırılan xalqın yaşadığı Quzey Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu.**



Milli mətbuatımızın təməli sayılan nəşrin adının "Əkinçi" olması, şübhəsiz, çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideyadan – milli oyanışa, ictimai tərəqqiyə çağırış istiqamətindən yayındırmaq məqsədi güdürdü. Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Həsən bəy Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular.

Rusiyada təhsil aldığı illərdə demokratik fikirli ziyalılarla ünsiyyət quran və rus mətbu orqanlarının mütərəqqi ideyaları ilə tanış olan Zərdabi və qəzetin başqa müəllifləri "Əkinçi"nin nəşri ilə bu ab-havanı Azərbaycanda görmək istəyir, xalqın tərəqqisi məsələsini başlıca məqsəd kimi götürürdü. "Əkinçi" dövrün azərbaycanlısının təsəvvürlərinin genişlənməsinə, qonşu ölkələrdə və cəmi dünyada baş verən mütərəqqi ideyalar barədə onların məlumatlanmasına, mədəni intibaha qədəm qoymalarına böyük kömək etmişdi.

Zərdabi "Əkinçi"də, demək olar ki, hər mövzudan yazırdı. O, kəskin siyasi məsələlər də qaldırırdı, zəmanənin eyiblərini açıb göstərirdi. O, bəzən ustalıqla adi bir məqalənin içində siyasi məsələlərdən bəhs edirdi. Məsələn, o, bir məqalədə oxucuya adi bir xəbər verir, göstərir ki, avropalı alimi Paster barama qurdu bəsləməyin yeni qaydasını tapmışdır. Avropa sözü işlədilən yerdə mötərizə açıb deyirdi ki, (indi burda padşah yoxdur, dövlət işinə məhkəmə (yəni məclis) mülahizə edir ki, ol məhkəmənin calislərini camaat zübdə edir). Beləliklə, Zərdabi oxucuya başa salmaq istəyirdi ki, Avropada dövlət quruluşu bizimkindən yaxşıdır. Orada məclisi camaat seçir, dövlət işlərini tək bir adam deyil, məclis idarə edir.

"Əkinçi" insanların adi hüquqlardan belə məhrum olduğunu açıqcasına deyirdi. 1877-ci ildə çıxan 6-cı nömrədə o yazırdı: "Bizim şəriətimizə görə qulu azad etmək çox böyük savab olduğunu bilə-bilə biz özümüz öz xahişimizlə bir-birimizə qul olmuşuq: rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustaya məgər qul deyilmi? Bəli, biz hamımız quluq. Buna səbəb bizim ata-baba adətlərimizdir. Xülasə, Şərqi zəmində azadlıq olmadığına biz Avropa əhlindən geri qalmışıq və nə qədər belə olsa biz tərəqqi etməyəcəyik və edə də bilmərik".

Həsən bəy qəzetçilik fəaliyyəti ilə Azərbaycanda jurnalistika sistemini və nəslini formalaşdırdı, peşə prinsiplərini yaratdı, Azərbaycan dilini rəsmi statusda öz fəaliyyətinin əsasına çevirdi. O, maarifçilik ideyasının daşıyıcısı olan bu qəzet milli təfəkkürlü ziyalılar nəslinin yetişməsində böyük tarixi xidmətlər göstərdi. Bu baxımdan milli mətbuat tariximizin başlanğıcının "Əkinçi"nin nəşri ilə əlaqələnməsi tarixi reallıqları özündə əks etdirir.

İki ilə yaxın fəaliyyət göstərən "Əkinçi"nin naşiri açıq fikirli, saf əqidəli milli ziyalıları öz ətrafında birləşdirərək elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət, təbiət elmlərinin inkişafı ilə bağlı materiallar dərc edirdi. Zərdabi xalqın mədəni tərəqqisinə çalışaraq dini mövhumata, xurafata və cəhalətə qarşı mübarizə apardı.

Xalq xadimi kimi Zərdabi özünün milli mətbuat təşkilatçılığı ideyası və xüsusiyyətləri ilə seçilən bu qəzeti milli mətbuatın müasirləşmə, məfkurə saflığı, ədəbi dilin formalaşması, obyektiv xəbərçilik və digər bu kimi yaradıcılıq prinsiplərini müəyyənləşdirməklə, onları milli jurnalistika məktəbi səviyyəsinə yüksəltdi. Çar Rusiyası qəzetin insanların maariflənməsindəki, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və qəzetin nəşrini dayandırdı. "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, bir müddət Azərbaycan dilində mətbu orqan çıxmadı.

Sonrakı dövrlərdə Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "Şərqi-rus", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olmuşdur. Zərfdabi məktəbinin yetirmələri olan milli ziyalılarımızdan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli və başqaları öz sələflərindən miras qalan və onun yolunu davam etdirən mətbuat nümunələri ətrafında birləşdilər, dünyaya mesajları mətbuat vasitəsi ilə verdilər.

Azərbaycan milli məfkurə sistemi, bir xalq olaraq milli müqəddəratın təyin olunma haqqı məhz mətbuat səhifələrində formalaşdı. Heç təsadüfi deyil ki, 1918- ci ildə Azərbaycan Xalq Cümhuriyyətini quranların da çoxu özlərinin milli mücadilə yolunu məhz milli mətbuatdan başlamışdılar. Xalq Cumhuriyyəti dönəmində milli ideyalar və dövrün müasir tələblərinin təbliği mətbuatda daha çox əks olunub. Sovet işğalı ilə bu prosesə son qoyulsa da, istiqlal və demokratiya fədailəri olan ziyalılarımız və Xalq Cumhuriyyətinin süqutundan sonrakı mərhələ isə Sovet dövrü mərhələsi kimi yadda qalır. Sovet mətbuatının məram və məqsədi yabançı ideoloji və siyasi sistemin təbliği olsa da, yeni janrların və ifadə formalarının inkişaf etdirilməsi müsbət cəhət kimi qeyd edilməlidir. Bu dövrdə biz reportaj, oçerk, novella və s. kimi yaradıcılıq tələb edən xüsusi istiqamətlərin inkişaf etdiyini görürük.

Bütün tənqidi münasibətlərə baxmayaraq, sovet dövrü mətbuatı Azərbaycan milli mətbuat tarixinin davamı olaraq milli jurnalistikamızın inkişaf etmiş – xüsusən, kütləviləşmiş və peşəkarlaşmış dövrü kimi xarakterizə edilməlidir. Qeyd etmək lazımdır ki, Cümhuriyyətimiz elan olunmamışdan, dövlət müstəqilliyimiz bərpa edilməmişdən öncə də milli mətbuatımız vardı. Müstəqillik haqqında yazarkən, yalnız 28 may 1918 – 28 aprel 1920-ci il aralığını və 18 oktyabr 1991-ci ildən sonrakı dönəmi əsas götürmək düzgün olmaz.

Mümkün olan hər məqamda xalqa, doğma vətənə, müstəqillik eşqinə xidmət edən mətbuat xadimlərimiz olub. Məhz sovet dönəmində ədəbiyyatda-poeziya və nəsrdə olduğu kimi, mətbuatda da hər zaman açıq və gizli şəkildə milli ideoloji xətt qorunub saxlanıb. Elə bu səbəbdən XX əsrin sonunda milli azadlıq hərəkatının başlaması ilə azad mətbuatın da əsası qoyuldu. 1989-cu ildə xalqın əsas tribunası kimi nəşrə başlayan "Azərbaycan" qəzetini bu mənada müasir müstəqil mətbuatımızın başlanğıcı saymaq olar.

Ötən 150 ildə Azərbaycan mətbuatı yüksək səviyyəyə qalxmışdır. Yeni texnologiyaların tətbiqi, jurnalistlərin peşəkarlığının artırılması və mətbuat azadlığının genişləndirilməsi sahəsində mühüm addımlar atılmışdır. Azərbaycan mətbuatı həm operativlik, həm də milli maraqların müdafiəsi sahəsində mühüm uğurlar əldə etmişdir. Milli mətbuatımızın nümayəndələri də öz növbəsində milli və ümumbəşəri dəyərlərin təbliğində, xalqımızın tarixi keçmişinin öyrənilməsində, vətənpərvərlik hisslərinin cəmiyyətə aşılanmasında, ölkəmizin müstəqillik illərində bütün sahələrdə əldə etdiyi uğurlu nəticələrin cəmiyyətə çatdırılması işində yaxından iştirak etdilər.

Milli mətbuatın şərəfli tarixi ərzində ən düzgün qiymət də məhz dünyaşöhrətli dövlət xadimləri sırasında yer alan ümummilli lider Heydər Əliyev vermişdir: "Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik". Ulu öndərin müəyyən etdiyi milli media ənənələrini zənginləşdirən dövlətçiliyə xidmət, azərbaycançılıq ideologiyasının təbliği və ümumbəşəri dəyərlərə hörmət prinsipləri mətbuatımızın püxtələşməsində əvəzsiz rol oynadı.

Ulu öndərin müstəqil dövlətdə azad medianı inkişaf etdirmək siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkə rəhbəri dövlətçilik ənənələrinə bağlı, xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafını prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlayaraq bildirib ki, mətbuatın fəaliyyəti hər bir insanı maraqlandırır. İnsanlar bütün məlumatı mətbuatdan alırlar. Prezident İlham Əliyevin dediyi kimi, mətbuat cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsi sahəsində vacib rol oynayır.

Mətbuatın fəaliyyəti hər bir insanın həyatı, mənəvi tələbatı ilə sıx bağlıdır. Cəmiyyətin məlumat əldə etmə mənbəyi olaraq böyük əhəmiyyət kəsb edir. Mətbuatın qərəzsiz olması, məlumatların obyektiv və doğru şəkildə təqdim edilməsi vacibdir. Bu, cəmiyyətin məlumatlanmasını və ictimaiyyətin doğru qərarlar verməsini təmin edir. Ölkədə həyata keçirilən mətbuat islahatlarının və müasir media texnologiyalarının tətbiqinin nəticəsidir. Azərbaycan mətbuatı müasir dövrdə daha peşəkar, obyektiv və effektiv fəaliyyət göstərməkdədir.

Mətbuat ictimaiyyətə məlumat verməklə yanaşı, maarifləndirmə və təhsil funksiyalarını da yerinə yetirir. Mətbuat həm də cəmiyyətin müxtəlif qruplarının fikirlərini və problemlərini işıqlandıraraq, onların səslərini duyurur. Jurnalistika həm şərəfli, həm də məsuliyyətli peşədir. Böyük şəxsiyyətlər müəllimləri və jurnalistləri ən müqəddəs peşə sahibləri hesab ediblər. Müəllimlər insanlara təhsil, təlim-tərbiyə verir, jurnalistlər isə maarifləndirir və məlumatlandırır. Amma bu peşə müqəddəs olduğu qədər də çətin peşədir.

Azərbaycan mətbuatının şərəfli tarixi var və bugünkü mətbuatımız da bu şərəfli tarixi davam etdirmək, tarixi ənənəmizin bütün dünyada təbliğini həyata keçirmək iddiasını ortaya qoyur. 22 iyul Milli Mətbuat Günü münasibətilə bu sahədə çalışan bütün jurnalistləri təbrik edir, xalqımız və dövlətimiz uğrunda yerinə yetirdikləri müqəddəs vəzifələrində uğurlar arzu edirəm.

*Fəzail İBRAHİMLİ,*
*Milli Məclisin deputatı, professor*

# Azərbaycan mediasının yüksəliş yolu




**Azərbaycan cəmiyyəti mötəbər bir tarixi – milli mətbuatın yaranmasının 150 illiyini ümumxalq bayramı kimi qeyd edir. Bu təntənənin bir səbəbi milli mətbuatın əsryarımlıq fəaliyyətinin tamam olmasıdırsa, digər səbəbi belə bir əlamətdar hadisənin öz ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etmiş, regionun yeni güc mərkəzi kimi qəbul olunan Azərbaycan reallığında qeyd edilməsidir.**

Təbii ki, dövlət müstəqilliyimiz kimi, milli mətbuatımız da bu günə heç də asan gəlib çıxmayıb. Azərbaycan mətbuatı 150 il ərzində çətin və şərəfli inkişaf yolu keçib. XIX əsr çar Rusiyasında yaşayan xalqlar üçün istibdadla yanaşı, həm də milli oyanış dövrü idi. Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi milli mətbuat orqanını təsis etmək üçün 15 ilə yaxın mübarizə aparmışdı. 1861–1865-ci illərdə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil aldığı illərdə belə, Azərbaycan dilində qəzet nəşr etmək istəmişdi. Lakin onun təşəbbüslərinin qarşısı hər dəfə müxtəlif vasitələrlə alınmışdı.

Nəhayət, uzun və gərgin mübarizədən sonra 1875-ci ildə Zərdabi öz arzusuna çatdı və istədiyi qəzetin nəşri üçün Bakı qubernatorundan icazə aldı. Təbii ki, bu icazədə kifayət qədər ağır şərtlər vardı. Çünki çar hökuməti milli mətbuatın formalaşmasında maraqlı deyildi. Ona görə də Həsən bəy Zərdabiyə ictimai-siyasi qəzet yox, əkin-biçin məlumatları yaymaq hüququ verilmişdi. Bu səbəbdən də qəzetin adı "Əkinçi" adlandırıldı.

Maraqlıdır ki, qəzetin nəşrinə icazə verilməsində Zərdabinin peşəsi xüsusi rol oynamışdı. Təbiət elmləri üzrə təhsil aldığı üçün Həsən bəyin qəzetdə əkin-biçin məlumatlarını yaymaq proqramı hakim dairələri narahat etməmişdi. "Əkinçi" qəzetinin ilk nömrəsi 1875-ci ilin 22 iyulunda işıq üzü gördü. Qəzet ərəb əlifbası ilə Azərbaycan dilində yayımlanan ilk milli qəzetdir. "Əkinçi" iki dəfə 300–400 tirajla yayımlanıb, ümumilikdə, 56 sayı işıq üzü görüb.

"Əkinçi" Azərbaycanda qəzetçilik ənənəsini yaratmaqla yanaşı, ilk jurnalist nəslini formalaşmasına yol açdı, peşə prinsiplərini müəyyənləşdirdi. Azərbaycan dilinin rəsmi statusda fəaliyyətinə imkan verən bu qəzet milli təfəkkürlü ziyalılar nəslinin yetişməsində tarixi xidmətlər göstərdi. Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani və digər Azərbaycan mütəfəkkirləri qəzetin ilk yazarlarından idilər. Bundan başqa, Azərbaycan dilində ilk dəfə durğu işarələrindən istifadə edən "Əkinçi" qəzet dil islahatlarına da töhfə verdi. Ən əsası, qəzet milli oyanışda əvəzsiz rol oynadı.

Onu da qeyd edək ki, "Əkinçi" Bakıda çap olunsa da, o, ümumrusiya müsəlmanlarının qəzetinə çevrilmişdi. Onu Dağıstanda, Volqaboyunda, Mərkəzi Asiya və Sibirdə oxuyurdular. Məhz bu səbəbdən hökumətin məmurları qəzetin nəşrinin dayandırılmasına qərar verdilər və 29 sentyabr 1877-ci ildə qəzetin fəaliyyəti dayandırıldı. Amma cəmi 2 il ərzində "Əkinçi" öz toxumunu düşüncələrə əkmişdi. Zaman keçdikcə həmin toxumlar cücərdi və milli mətbuatın yeni və daha güclü inkişafına zəmin yaratdı.

Nəzərə almaq lazımdır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı təkcə Qafqazın iqtisadi deyil, həm də mədəni mərkəzinə çevrilmişdi. O zamankı Bakıda çoxsaylı rus, gürcü, erməni və digər xalqların xeyriyyə cəmiyyətləri və qəzetləri fəaliyyət göstərirdi. Bu qədər qarşıdurma və rəqabət şəraitində milli mətbuatı formalaşdırmaq və inkişaf etdirmək çox çətin idi. Etiraf etməliyik ki, o dövrdə "Əkinçi" milli mətbuatın yeni nəsli üçün bir mayak, bələdçi oldu.

Təsadüfi deyil ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda onun qurucularının demək olar ki, əksəriyyəti yazarlar və mətbuat cameəsinin nümayəndələri idilər. Sovet dönəmində mətbuat yalnız texniki baxımdan inkişaf etdi. Çünki 70 il ərzində bir dənə də olsun müstəqil mətbu orqanı fəaliyyət göstərməmişdi. Daha doğrusu, müstəqil mətbuatın fəaliyyətinə imkan verilməmişdi.

Buna görə də bütün media subyektləri partiya təşkilatlarının və dövlət qurumlarının orqanı kimi fəaliyyət göstərdi. Lakin senzuranın pik həddə olduğu SSRİ dönəmində belə əzmkar jurnalistlərimizin səyi ilə Zərdabi ənənələri unudulmadı.

Mediamızın əsas inkişaf dövrü ikinci dəfə müstəqillik qazandığımız illərə təsadüf edir. Müstəqilliyimizin ilk illərindən etibarən çoxsaylı qəzet və jurnallar nəşr olundu, sovet dönəmindən qalmış stereotiplər dağıdıldı. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə mətbuatın inkişafı, ilk növbədə, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət yalnız mətbuata qayğı göstərmirdi, həm də media ilə fəal əməkdaşlıq edirdi. Onun bütün səfərlərinə, görüşlərinə müxtəlif mətbuat nümayəndələri dəvət olunurdu. Heydər Əliyev hakimiyyətdə olduğu illərdə jurnalistlərlə hər il geniş tərkibdə görüşlər keçirirdi. Bununla da mətbuatın dövlətçilik və cəmiyyət üçün əhəmiyyəti xüsusi şəkildə vurğulanırdı.

Ulu öndərin hakimiyyəti dövründə mətbuatın davamlı inkişafı üçün hüquqi baza yaradılmasına xüsusi diqqət yetirilirdi. 1995-ci ildə Ümummilli liderin rəhbərliyi ilə hazırlanan ilk Milli Konstitusiyada mətbuata xüsusi yer ayrıldı. Konstitusiyada qeyd olunub: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir".

Bu, mətbuatın rəsmən "dördüncü hakimiyyət" kimi tanınması demək idi. Azad mətbuatın inkişafını demokratik cəmiyyətin əsası kimi görən dahi öndər 1998-ci ildə "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Bu fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə hesab olunur. Həmin fərmanla mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə – senzura təsisatı ləğv edildi.

Üstəlik, "Hərbi senzura yaradılması haqqında" 16 aprel 1992-ci il tarixli fərman və "İnformasiya yayımı üzərində nəzarət haqqında" 15 aprel 1993-cü il tarixli sərəncam ləğv edildi. Bununla da azad sözün və demokratik medianın inkişafı yolundakı bütün əngəllər aradan qaldırıldı. 1999-cu ildə qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun mətbuat sahəsində demokratik prinsiplərin daha da möhkəmlənməsinə xidmət etdi. Bu sənəd bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına və yeni mətbuat orqanlarının daha asan qeydiyyatına imkan yaratdı.

Ümummilli lider Heydər Əliyev çalışırdı ki, ölkənin demokratikləşməsi yolunda əsas sahələrdən biri də mətbuat olsun. Bu istək davamlı fəaliyyətlə həyata keçirilirdi. 2000-ci ilin martında imzalanan sərəncamla "2000–2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiqləndi.

Demokratik və sivil dövlət quruculuğuna sadiqliyini əyani şəkildə sübut edən Azərbaycan Prezidenti İlham Əliyevin mediaya xüsusi yanaşması hər zaman göz önündə olub. Onun həyata keçirdiyi siyasət birbaşa müstəqil mətbuatın formalaşmasına və inkişafına xidmət edir. Azərbaycan hökuməti söz və mətbuat azadlığı, kütləvi informasiya vasitələrinin inkişafı üçün bütün zəruri addımları atıb və atmağa davam edir.

Prezident İlham Əliyev, ümumiyyətlə, media azadlığının təmin olunması və hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət yürüdüb. 2005-ci ildə qəbul olunmuş "İnformasiya əldə etmək haqqında" qanun vətəndaşların informasiyaya çıxış hüququnu genişləndirdi. 2010-cu ildə qəbul edilən "Elektron media haqqında" qanun isə müasir texnologiyaların tətbiqi ilə medianın daha çevik və effektiv fəaliyyət göstərməsinə imkan yaratdı.

Dəyişən zaman və texnoloji mühit digər sahələrdə olduğu kimi, mətbuat sahəsində də islahatları zəruri edirdi. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı bu baxımdan çox əhəmiyyətli bir addım oldu. Bu fərman əsasında Medianın İnkişafı Agentliyi (MEDİA) publik hüquqi şəxs kimi yaradıldı. MEDİA müasir dövrün çağırışlarına uyğun şəkildə mətbuat sahəsində çevik və effektiv fəaliyyət göstərməyə başladı. Bununla yanaşı, sonrakı dövrdə "Media haqqında" Qanun qəbul edildi. Bu qanun müasir tələbləri və beynəlxalq hüquqi standartları nəzərə almaqla hazırlanaraq və milli mətbuatın davamlı inkişafını təmin etmək məqsədi daşıyır.

44 günlük Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə Azərbaycan mətbuatı sözün əsl mənasında müsəlləh əsgər kimi dövlətin, ordunun və Ali Baş Komandanın yanında dayandı. Hərbi-siyasi sahədə əldə edilən uğurlar ideoloji sahədə də medianın fəaliyyəti ilə ən yüksək səviyyəyə çatdırıldı. Mətbuat-hakimiyyət münasibətlərində milli maraqlara əsaslanan qarşılıqlı inam və etimad formalaşdı. Bu birlik və həmrəylik nəticəsində Azərbaycan mətbuatı xalqımızın operativ şəkildə doğru informasiyaya çıxışını təmin etdi. Nəticədə, feyk məlumatların informasiya məkanımızda yayılmasının qarşısı alındı.

Bu gün Azərbaycanın milli mətbuatı 150 illik yubileyini dövlət və xalqın birgə bayramına çevirməklə həm tarixi mirasına sahib çıxır, həm də gələcək nəsillərə örnək olacaq bir jurnalistika mədəniyyətini yaşadır. Qarşıda duran vəzifə isə bu ənənəni qorumaq, inkişaf etdirmək və müasir dünyanın çağırışlarına uyğun şəkildə daha da gücləndirməkdir.

*Anar TAHİROV,*
*"Bizim Media" xəbər portalının baş redaktoru*

# “Açıq söz” qəzeti milli məfkurə qəzeti idi

**XIX əsr Azərbaycan qəzetçiliyi tarixində “Əkinçi” ilə yaranan demokratik ənənələr XX əsrin ilk onilliyində inkişaf edərək milli və inqilabçı demokratik nəslin yetişməsinə səbəb oldu. Bu dövrdə tarixi şəraitin ortaya qoyduğu ideoloji amillər müstəmləkəçilikdən qurtuluş yollarını göstərməklə milli-azadlıq hərəkatının genişlənməsinə, suveren dövlət ideyalarının və istiqlal düşüncəsinin formalaşmasına zəmin yaratdı.**

Mətbuatda baş verən şaxələnmə prosesi, mətbu orqanların tipologiyası, siyasi istiqaməti, auditoriyası, yaradıcılıq üslubuna görə bu dövrü Azərbaycan jurnalistikasının intibah dövrü kimi qiymətləndirmək olar. “Hümmət”, “Molla Nəsrəddin”, “Füyuzat”, “Dəbistan” jurnalları ilə siyasi, satirik, romantik və uşaq mətbuatının əsası qoyulmaqla bərabər, “Həyat”, “İrşad”, “Tərəqqi” və “Həqiqət” və digər mətbu orqanlarla ictimai-siyasi və milli düşüncə prinsiplərinə, azadlıq uğrunda mübarizə ideyalarına meydan açıldı.





I Dünya müharibəsi illərində Azərbaycanda ictimai fikri formalaşdıran, geniş xalq kütlələrini öz mütərəqqi, milli-demokratik ideyaları ətrafında birləşdirən, xalqın mədəni inkişafının qarşısında sipər olan bir sıra vacib problemlərin həlli yollarını göstərən əsas mətbu orqanlardan biri də “Açıq söz” qəzeti olmuşdur. Qəzet o dövr üçün təkcə informasiya vasitəsi rolunda çıxış etmirdi, həm ideoloji silah, milli-mənəvi dirçəlişin əsas platforması, həm də milli kimlik məsələsinin önə çəkilməsində mühüm tribuna rolunu oynayırdı.

Təəssüf ki, sovet dövrü araşdırmalarında “Açıq söz” mürtəce, anti-demokratik, burjua-millətçi fikirlər aşılayan, geniş xalq kütlələrinin inqilabi hərəkatının qarşısında maneə təşkil edən, onların təbii inkişafının önünü kəsən mətbu orqanlardan biri kimi qələmə verilmiş, bu baxımdan da tədqiqatlardan kənarda qalmışdır.

Azərbaycan 2-ci dəfə müstəqillik əldə etdikdən sonra bir çox mətbuat orqanları kimi, “Açıq söz” də Ş.Hüseynovun, A.Rüstəmlinin, A.Bayramoğlunun, A.Aşırlının, N.Yaqublunun, Q.Dünyaminqızının, R.Məmmədovanın və b. tədqiqatlarında özünün obyektiv mülahizələrə əsaslanan həqiqi qiymətini almışdır.

“Açıq söz”ü “təkcə jurnalistika tariximizə deyil, ictimai-siyasi, elmi-nəzəri, ədəbi-bədii fikir tariximizə daxil olmuş mübariz mətbuat orqanı” kimi qiymətləndirən tədqiqatçı-alim Ş.Hüseynov haqlı olaraq ötən əsrin ikinci onilliyində xalqımızın siyasi mədəniyyətinin, siyasi-milli təfəkkür tərzi və dünyagörüşünün formalaşmasını məhz bu qəzetin fəaliyyəti ilə bağlayır.

Qəzetin nəşrindən əvvəl “Bəsirət” qəzeti 3 oktyabr 1915-ci il tarixli 63-cü, “Yeni iqbal” isə 4 oktyabr 1915-ci il tarixli 134-cü sayında yeni nəşrə başlayacaq qəzet haqqında yazılar dərc edərək qəzetə gələcək fəaliyyətində uğurlar arzulayır, nəşri ilə bağlı fikir və mülahizələrini, ümidlərini bildirirdilər.

“Açıq söz” qəzeti 1915-ci il oktyabrın 2-də nəşrə başladı. “Açıq söz”ün ilk sayı barədə Üzeyir Hacıbəylinin redaktorluğu ilə nəşr olunan “Yeni iqbal” qəzeti “Qurtuluş” və “Açıq söz” (1915, 4 oktyabr) sərlövhəli məqaləsində yazır: “Sırağa gündən etibarən şəhərimizdə Hüseyn Sadiq cənablarının təhti-idarəsində “Qurtuluş” adında iki həftəlik bir jurnal və Məhəmməd Əli Əbdüləziz oğlu cənablarının naşirliyi ilə gündəlik “Açıq söz” qəzeti nəşrə başladı. “Qurtuluş”un da, “Açıq söz”ün də baş məqalələri Məhəmməd Əmin Rəsulzadə cənablarının asari-qələmidir”.

Gündəlik “Açıq söz”ün “Tutacağımız yol” ünvanlı, baş mühərrir Məhəmməd Əmin Rəsulzadə tərəfindən yazılmış məqaləsində qəzetin məsləki xüsusunda deyilir: “...öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzimətini təşkil edəcək əsas – milliyyət əsası”.

Yeni bir ümummilli qəzet kimi fəaliyyətə başlayan, gündəlik “siyasi, ictimai və ədəbi türk qəzetəsi” olan “Açıq söz” “siyasi” sözünü önə çəkməklə xalqın siyasi hüquqları uğrunda mübarizə yolunu seçdiyini vurğulayır. Milli kimliyin, milli şüurun, milli istiqlalın, türklüyün, islam həmrəyliyi və maarifçiliyin təcəssümü kimi ortaya çıxdı: “Özündən əvvəlki mətbu orqanlar xalqın tərəqqi və nicatını mədəni, elmi, mənəvi və iqtisadi inkişafda görürdüsə, “Açıq söz” bu sıraya xalqın siyasi hüquqlarını da əlavə etdi”.

Tədqiqatlardan aydın olur ki, “Açıq söz” qəzeti fəaliyyət göstərdiyi 4 il müddətində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunmuş, yalnız 1918-ci ilin sentyabr–oktyabr sayları redaksiya heyəti tərəfindən buraxılmışdı. Qəzet 1917-ci ilin avqustuna kimi M.Ə.Əbdüləzizoğlunun (Rəsulzadənin), avqustun 1-dən 1918-ci il yanvarın 3-nə kimi M.Ə.Rəsulzadə və Orucov qardaşlarının müştərək naşirliyi ilə nəşr olunmuşdur. 1918-ci il yanvar-mart nömrələrinin naşiri M.Ə.Rəsulzadə, sentyabr-oktyabr nömrələrinin naşiri isə yenidən M.Ə.Əbdüləzizoğlu olmuşdur.

Qəzetin 422 sayı Əli Muxtar Ələkbərovun “İqdam” elektrik mətbəəsində çap olunmuşdur. 423-cü saydan 704-ə qədər qəzetin nəşri H.Z.Tağıyevin “Kaspi” mətbəəsi əsasında formalaşdırılmış “Açıq söz” elektrik tipoqrafiyasında çap olunmuşdur. Qəzetin sentyabr-oktyabr aylarını əhatə edən 8 sayı isə “Novruz” mətbəəsində buraxılmışdır.

Qəzet 724-cü saydan sonra fəaliyyətini dayandırıb.

“Açıq söz” qəzeti və onun ətrafında toplanmış dövrün ən qabaqcıl və mütərəqqi ziyalıları–M.Ə.Rəsulzadə başda olmaqıa Ü.Hacıbəyli, Ö.F.Nemanzadə, S.Eynullayev-İbrahimov, X.İbrahim, Y.V.Çəmənzəminli, H. Mirzəcamalov, H.Cavid, Ə.Cavad, A.Şaiq, A.Səhhət, Ş.Əfəndizadə, M.Hadi, S.H.Sadiq, M.N.Qaragözov, X.Sultanov, M. B.Məhəmmədzadə, S. Mənsur, S. Mümtaz, Ə.Əzimzadə, B.Talıblı, T.Ş.Simurq, M.Ə. Nasir, İ.Axundzadə, F. İsmixanov və başqaları “28 May fütuhatını hazırlayan və həyata keçirən nəsil idi”. Bu nəslin nümayəndələrinin əsas qayələri milli şüurun oyadılmasına, millətin özünüdərkinə, vətənə, xalqa, türkçülüyə xidmətə yönəldilmişdi.

Azərbaycan türklərinin milli özünüdərk prosesinə maneə yaradan və onların vahid milli kimlik ətrafında birləşməsini çətinləşdirən, rus imperiyasının verdiyi “tatar”, “müsəlman”, “yerli” (tuzem) kimi “adlardan” azad etmək və onu ümumtürk kimliyi ilə birləşdirmək kimi böyük bir missiyasını da öhdəsinə götürdü. Onun əsl “türk” adını özünə qaytararaq millətə “Sən türksən!”, rus istibdadına isə “Biz türkük!” deyə xitab etdi: “Açıq söz” ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatarı deyilən xalqın türk olduğunu sərahət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı” .

“Açıq söz”ün ideya istiqaməti və tutduğu yolun əsası M.Ə.Rəsulzadənin ilk sayın proqram məqaləsi olan “Tutacağımız yol”da təqdim olunur. Azərbaycan milli istiqlal düşüncəsinin konseptual əsasını təşkil edən bu ideoloji proqram məqaləsi milliyyət (milli kimlik) məfkurələri, xüsusilə Azərbaycan türklərinin milli özünüdərkini və istiqlalını təmin etmək üçün əsas ideya kimi təqdim olunur.

M.Ə.Rəsulzadə dünya xəritəsinin dəyişəcəyi və ictimai-siyasi mühitin yeni şəkil alacağı təqdirdə “milliyyət məfkurəsinin” bu şəkillənmədə böyük təsirini diqqətə çatdırır: “Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər...millətlər bir millət olaraq yaşaya bilmək üçün, hər şeydən əvvəl, özlərini bilməli, müəyyən bir fikir və amallar ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi-xəyala hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar”.

Qəzetin “Türkləşmək, islamlaşmaq və müasirləşmək” düsturu Azərbaycan siyasi-publisistik fikrinin XX əsrin əvvəllərində formalaşdırdığı ən önəmli ideoloji proqramlardan biri idi. Bu düstur, eyni zamanda Türk dünyasında Ziya Göyalp kimi fikir adamlarının təsiri ilə formalaşan ümumtürk maarifçilik və milliyyətçilik cərəyanının Azərbaycan kontekstindəki ifadəsi idi: “Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa istinad etmək məcburiyyətindədir: dil, din və zaman. Dilcə biz türküz, türklük milliyyətimizdir. Dincə – müsəlmanız. Zamanca da – biz texnikanın (alyatın) elm və fənnin möcüzələr yaradan bir dövründəyiz”. Türk və müsəlman qalaraq müstəqil yaşamağı şərtləndirən amillər sırasında elmlər, fənlər, hikmət və fəlsəfələrlə silahlanmağı vacib sayan ədib yazır: “...zaman bunu iqtiza ediyor – mütləqa üç əsasa sarılmalıyız: türkləşmək, islamlaşmaq və müasirləşmək. İştə millətimizin həyati-ictimaiyyəsinə islah üçün üzərinə dayandığımız sepayeyi-mədəniyyət!”

M.Ə.Rəsulzadə qəzet səhifələrində dərc etdirdiyi digər məqalələrində də bu ideyadan çıxış edərək İslam mədəniyyətinin bəşəri mahiyyəti, ədalət, elm və təməddün ideyalarına dayandığı fikrini irəli sürərək dinin milli birlik və tərəqqi üçün əngəl yox, vasitə ola biləcəyini göstərir.

“Açıq söz” qəzetinin səhifələrində milli-məhəlli muxtariyyət məsələsi milli-azadlıq ideyalarının əsas istiqamətlərindən biri kimi geniş şəkildə müzakirə olunurdu. Bu ideya M.Ə.Rəsulzadənin qəzetin 17 mart 1917-ci il tarixli sayında dərc edilən “Cümhuriyyət” məqaləsində əhatəli şəkildə öz əksini tapmışdır. Məqalədə Azərbaycanın Rusiya imperiyası daxilində milli-məhəlli muxtariyyətə sahib olması ideyası irəli sürülür. Ədib burada milli muxtariyyət ideyasını xalq hakimiyyəti ilə birgə təqdim edir, xalqın mədəni muxtariyyətlə paralel olaraq öz idarə sistemini qurmaq hüququna da malik olması məsələsinə önəm verir: “Demokrasiya nöqteyi-nəzərindən Rusiyada yaşayan və çarizmin təcavüzkar siyasətinə məruz qalan sinif, silk və millətlər üçün cümhuriyyətdən daha münasib bir üsuli-idarə təsəvvür olunamaz”. Milli dövlətçilik ideyasını açıq şəkildə irəli sürən Rəsulzadə bu məqalədə milli-məhəlli muxtariyyəti dövlətçiliyə gedən yolun ilk mərhələsi kimi təqdim edir.

1918-ci ilin martında–704-cü sayından sonra Bakıda mart hadisələri baş verdi. Mart qırğını zamanı dağıntılara məruz qalan tikililərdən biri də “İsmailiyyə” binası idi. “Açıq söz”ün mətbəəsi və redaksiyası da həmin binada yerləşdiyindən dağıntılar qəzetin nəşrinin dayanmasına səbəb oldu. “Açıq söz”ün məqsəd və məramını yaxşı başa düşən, xalqı arxasınca aparmaq qüdrətini həzm edə bilməyən bolşevik-daşnak qaragüruhu “Açıq söz” qəzeti redaksiyasını “Türkiyənin Bakı cəbhəsi” adlandırırdılar. 1918-ci il martın 18-də bolşeviklərin ilk həmləsi də buraya oldu. Mətbəəni və redaksiyanı yerlə-yeksan etdikdən sonra “Türkiyənin Bakı cəbhəsini yıxdıq deyə sevinirdilər”.

1918-ci ilin sentyabrında bir qrup vətənpərvər ziyalı qəzetin nəşrini bərpa etməyə müvəffəq oldu.

“Açıq söz” qəzetinin mətbuat və ümumilikdə ictimai-siyasi fikir və dövlətçilik tariximizdə əsas xidmətlərindən biri də ilk müstəqil cümhuriyyətimiz – Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji və nəzəri əsaslarının onun səhifələrində işlənib hazırlanmasındadır.

***Aygün ƏZİMOVA,***
***BDU jurnalistika fakültəsinin dosenti***



# Gənclik şəhərinin mətbu salnaməçiləri ilə görüş

**Sumqayıtın Tarixi Muzeyində Azərbaycan milli mətbuatın 150 illik yubileyi münasibətilə şəhərdə fəaliyyət göstərən jurnalistlərlə görüş keçirilib. Tədbirin təşkilatçıları AYB Sumqayıt şöbəsi və Sumqayıtın tarixi muzeyidir.**

Muzeyin direktoru vəzifəsini icra edən Namiq Əliyev media nümayəndələrini salamlayaraq, şəhərin tarixi salnaməsinin yazılmasında əsas mənbə kimi kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirdi. Ardınca muzeydə şəhər mətbuatına, qələm sahiblərinin yaradıcılığına həsr edilmiş guşələrlə tanışlıq oldu.

Muzeyin konfrans zalında tədbiri giriş sözü il AYB Sumqayıt şöbəsinin sədri Gülnarə Cəmaləddin açaraq dedi: “Millətin varlığının rəmzi sayılan ana dilinin formalaşması və inkişafı ilk növbədə şair və yazıçıların, eləcə də jurnalistlərin yaradıcılığı sayəsində baş verir. Bu baxımdan bünövrəsi 1875-ci ildə dəyərli ziyalımız, maarifpərvər Həsən bəy Zərdabinin ideyası əsasında “Əkinçi” qəzeti ilə qoyulan anadilli mətbuatımızın yaranması böyük tarixi hadisə idi. Azərbaycan jurnalistikası təşəkkül tapdığı vaxtdan ötən 150 ildə çox uzun və şərəfli bir yol keçib. Mediamızın bugünkü inkişaf səviyyəsi ilə fəxr etmək olar. Azad, müstəqil, qərəzsiz mətbu orqanları həyatın nəbzini layiqincə tutur və ictimai rəyi formalaşdırır. 1952-ci ildən təşəkkül tapmış Sumqayıt mətbuatı da bu baxımdan istisna deyil”.

Sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşları Fərman Kazımov və Eyvaz Qocayev, “Göyərçin” jurnalının baş redaktoru, filologiya elmləri doktoru Rafiq Yusifoğlu, Əməkdar jurnalistlər Eyruz Məmmədov və Əli Nəcəfxanlı, Azərbaycan Dövlət İnformasiya Agentliyi – “Azərtac”ın Sumqayıt üzrə xüsusi müxbiri Ətrabə Rzayeva, “Sumqayıt” qəzetinin baş redaktoru Sübhan Quliyev, “Zərdabi” Nəşriyyat-Poliqrafiya müəssisəsinin direktoru – Həsən bəy Zərdabi nəslinin nümayəndəsi Aydın Məlikov və başqaları ürək sözlərini söylədilər, ustadlarını ehtiramla xatırladılar və zəhmətlərinin dəyərləndirilməsinə görə minnətdarlıqlarını bildirdilər. Çıxışlarda milli mətbuatın hazırkı vəziyyəti, qələm sahiblərinin vəzifələri, ana dilinin saflığının qorunması kimi məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Sonda milli mətbuatın 150 illiyi ilə əlaqədar jurnalistlərə hədiyyələr təqdim olundu.

***Ə.ƏLİYEV***
***XQ***

# Media təmsilçiləri Naftalanda



**Milli mətbuatın yaranmasının 150 illik yubileyi münasibətilə Naftalan Şəhər İcra Hakimiyyətində ölkəmizin aparıcı bir qrup media nümayəndələri ilə görüş keçirilib.**

Görüşdə şəhər rəsmiləri və regionun mətbuat nümayəndələri iştirak ediblər. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov jurnalistləri salamlayaraq bildirib ki, Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşması, söz və mətbuat azadlığının təmin edilməsi istiqamətində Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı Prezident İlham Əliyev uğurla davam etdirir. Şəhər rəhbəri vurğulayıb ki, bu il 150 illik yubileyi qeyd olunan milli mətbuat xalqımızın maariflənməsi, milli ideyaların təbliği və cəmiyyətin formalaşmasında mühüm rol oynamışdır.

Qeyd olunub ki, şəhər icra hakimiyyəti hər zaman kütləvi informasiya vasitələri ilə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verir. Media ilə qurulan bu əməkdaşlıq ictimai rəyin düzgün formalaşdırılması və şəffaf idarəçiliyin təmin olunmasında mühüm rol oynayır. Media nümayəndələrinə peşə bayramları münasibətilə gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Çıxış edən mətbuat nümayəndələri ölkəmizdə kütləvi informasiya vasitələrinin azad və maneəsiz fəaliyyət göstərməsi üçün yaradılan əlverişli şəraitdən danışıblar. Onlar qeyd ediblər ki, Azərbaycan mətbuatı dövlətin göstərdiyi ardıcıl və məqsədyönlü dəstək sayəsində davamlı inkişaf yolu keçir. Media sahəsində həyata keçirilən islahatlar, göstərilən yüksək diqqət jurnalistlərin peşəkar fəaliyyətinə geniş imkanlar yaradıb. Bu münasibətlə mətbuat nümayəndələri ölkə Prezidenti İlham Əliyevə səmimi minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Naftalan neftinə və onu dünyada tanıdan Beynəlxalq Turizm Mərkəzinin Naftalana həsr olunmuş “Naftalan – möcüzəni hiss et” adlı yeni kitab ilk olaraq mətbuat nümayəndələrinə hədiyyə edilib.

Sonda Milli Mətbuat günü münasibətilə media nümayəndələri Fəxri fərmanla təltif olunub, onlara xatirə hədiyyələri verilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Poliqrafçıların incəsənət simpoziumu



**“Azərbaycan Nəşriyyatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə Bakıda milli mətbuatımızın 150 illiyinə həsr olunmuş “MətbuArt” beynəlxalq incəsənət simpoziumu davam edir.**

“Söz. Çap. Forma – birləşən dünyalar” şüarı altında keçirilən simpozium çərçivəsində “Sənət və obyektiv: Sənan Ələsgərov ilə görüş” mövzusunda tədbir keçirilib. Vizual yaddaşın formalaşmasında çap irsinin rolu və sənətkarın fərdi baxış bucağı görüşün əsas müzakirə mövzularından olub.

Fotoqraf Sənan Ələsgərovun əsərləri şəhər, tarix və insan arasında qurduğu səssiz, lakin təsirli dialoqu ilə seçilir. Görüşdə onun yanaşması, texnikası və “MətbuArt” üçün hazırladığı yeni layihə təqdim olunub.

Simpoziumda iştirak edən norveçli rəssam Miri Abrahamsen və onun azərbaycanlı həmkarı Ramina Səadətxan əsərlərdə rast gəldikləri elementlərin özünəməxsus üslubda ifadə edildiyini vurğulayıblar. Əsas mövzulardan birində isə Azərbaycan milli mətbuatının 150-ci ildönümünü qeyd etmək üçün dəvət olunduğumuz bu mətbəənin tarixi ilə öz stilləri arasında əlaqə qurmağa çalışdıqlarını bildiriblər.

Qeyd edək ki, simpoziumun əsas məqsədi Azərbaycan mətbuatının keçdiyi inkişaf yoluna diqqət çəkmək və onunla sıx bağlı olan “Azərbaycan” nəşriyyatının bir əsrdən artıq tarixini incəsənət dili ilə əks etdirməkdir. Belə ki, tədbir çərçivəsində kağız tullantılarından, çap sənayesinə aid köhnəlmiş və sıradan çıxmış avadanlıqlardan, ehtiyat hissələrindən və digər texniki materiallardan sənət əsərləri ərsəyə gəlir.

Simpoziumda 17 azərbaycanlı və 17 xarici rəssam, fotoqraf və heykəltaraş iştirak edir. Xarici iştirakçılar arasında ABŞ, Cənubi Koreya, İspaniya, İtaliya, Macarıstan, Meksika, Mərakeş, Misir, Niderland, Norveç, Portuqaliya, Səudiyyə Ərəbistanı, Tayland və Türkiyəni təmsil edən sənət ustaları yer alır. Fərqli üslublarda çalışan, incəsənətə və ətraf aləmə özünəməxsus baxışı olan sənətkarlar “Azərbaycan” nəşriyyatının təklif etdiyi ümumi konsepsiyadan ilhamlanaraq mövzuya şəxsi yanaşmalarını və bədii təxəyyüllərini əks etdirən əsərlər yaradırlar.

***XQ***



# Kənd turizmi saf təbiətə, qədim tarixə, fəal istirahətə açılan qapıdır

## *Bölgələrin inkişafında onun rolu və imkanları genişdir*

**Zəngin təbiəti, qədim tarixi və mədəni irsi ilə kənd turizminin dünyada olduğu kimi ölkəmizdə də geniş potensialı var. Təbiətə yaxınlıq, tarixi və mədəni zənginlik, eləcə də səmimi ev sahibliyi turistlərə həm dincəlmək, həm öyrənmək, həm də unudulmaz təəssüratlar qazanmaq imkanı verir. Hər rayonun da özünəməxsus üstünlükləri kənd turizmini daha cəlbedici edir.**

İsmayıllı rayonu dağ-meşə relyefi, təmiz havası və qədim kəndləri ilə seçilir. Lahıc və Basqal kimi kəndlərdə sənətkarlıq, xüsusilə misgərlik turistlərin marağına səbəb olur. Burada həm də şərabçılıq və üzümçülük ənənələri qorunub saxlanılır. Şəki rayonu isə tarixi abidələri, Xan Sarayı, Böyük Karvansara, Kiş məbədi və zəngin mətbəxi ilə turistləri cəlb edir. Quba rayonunda yerləşən Xınalıq və Qrız kimi dağ kəndləri qədim yaşayış tərzini qoruyub saxlamış nadir məkanlardır. Bu kəndlərdə etnik-mədəni müxtəliflik, təbii gözəllik və xalq sənətkarlığı bir araya gəlir.

Qax rayonu da kənd turizmi üçün əlverişli bölgələrdəndir. İlisu kəndi, alban abidələri, dağ mənzərələri və yerli kulinariya burada əsas cəlbedici elementlərdəndir. Lənkəran rayonu subtropik iqlimi, çay plantasiyaları, sitrus bağları və Hirkan Milli Parkı ilə fərqlənir. Lerik rayonu isə təmiz təbiəti, dağlıq relyefi və uzunömürlü insanları ilə tanınır. Burada folklor elementləri, yürüş marşrutları və ekoloji turizm imkanları genişdir.

Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur təkcə tarixi və siyasi əhəmiyyətinə görə deyil, həm də turizm potensialına görə diqqət mərkəzindədir. Füzuli rayonunda yerləşən kurqanlar, Azıx mağarası və digər arxeoloji abidələr təkcə Azərbaycan deyil, dünya miqyasında nadir tarixi irs nümunələridir. Azıx mağarası, dünyanın ən qədim insan yaşayış məkanlarından biri hesab edilir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində 350-400 min il əvvələ aid insan qalıqları aşkarlanıb. Bölgədə arxeoparkların yaradılması, tədqiqatların davam etdirilməsi və turizm marşrutlarının açılması Qarabağın daş dövrü irsinin geniş tanıdılmasına xidmət edəcək.

Xocavənd rayonunun Tuğ kəndi, tarixi memarlığı, təbiəti və şərabçılıq ənənələri ilə kənd turizmi üçün ideal məkandır. Tuğda aqroturizm, ekoturizm və mədəni turizmin paralel inkişafı mümkündür. Burada keçmiş şərab istehsalı ənənələrinin bərpası, festivalların təşkili və tarixi memarlığın qorunması kimi layihələr həyata keçirilə bilər. Şuşa şəhəri və ətraf ərazilər, xüsusilə Turşsu və Dəmirsu kimi müalicəvi suların olduğu bölgələr sanatoriya və sağlamlıq turizminin yenidən inkişafı üçün əlverişli şərait yaradır. Bu mineral sular vaxtilə mədə-bağırsaq və revmatik xəstəliklərin müalicəsində təsirli olub, sovet dövründə minlərlə insanın müalicə aldığı yerlər idi. İndi onlar əvvəlki kimi xalqa xidmət edəcək.

Bununla yanaşı, Ağdam, Suqovuşan, Hadrut, Talış, Kəlbəcər və Laçın kimi ərazilərdə kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu bölgələrdə həm dağ, həm meşə, həm də düzənlik relyeflərinin bir araya gəlməsi təbiətlə təmas istəyən turistlər üçün ideal şərait yaradır. Şuşaya çəkilən yeni dəmir yolu və nəqliyyat infrastrukturunun yenilənməsi isə turizm axınını artıracaq.

Hazırda bu rayonlarda geniş bərpa işləri həyata keçirilir. Tarixi, mədəni və dini abidələrin bərpası ilə yanaşı, kənd təsərrüfatı sahələrinin canlandırılması da kənd turizminin inkişafı üçün əsas baza rolunu oynayır. Bölgəyə həm yerli, həm də xarici turistlərin marağını artırmaq üçün kompleks turizm infrastrukturları yaradılır. Bundan əlavə, Qusar, Xaçmaz, Şamaxı, Qəbələ, Zaqatala, Balakən, Tovuz, Gədəbəy, Yardımlı, Masallı, Ordubad və digər bölgələr də kənd turizmi üçün yüksək potensiala malikdir. Hər rayonun özünəməxsus təbiəti, mətbəxi və mədəniyyəti onu fərqli bir turizm destinasiyasına (səyahətçinin getdiyi yer) çevirə bilər.

Təbiəti zəngin olan bölgələr Azərbaycanın kənd turizmi potensialını nümayiş etdirir. Hər biri özünəməxsus təbiəti, tarixi və mədəniyyəti ilə seçilir və ziyarətçilərə fərqli istirahətlər vəd edir. Kənd turizminin bu bölgələrdə inkişafı həm də orada yaşayan insanların iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, sosial bərabərlik, regional tarazlığın qorunması və milli-mədəni irsin təbliği baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın bu sahədəki potensialı düzgün planlaşdırma, infrastruktur və təbliğatla dünya miqyasında önəmli bir turizm istiqamətinə çevrilə bilər.

*

Beləliklə, XXI əsrdə turizm yalnız istirahət və əyləncə vasitəsi olmaqdan çıxaraq, iqtisadi və sosial inkişafın mühüm alətlərindən birinə çevrilib. Bu baxımdan kənd turizmi xüsusi əhəmiyyət daşıyır. Təbii gözəllikləri, mədəni zənginliyi və səmimi insanları ilə seçilən kəndlər təkcə səyahətçilərin maraq dairəsinə çevrilmir, eyni zamanda kənd sakinlərinin rifahına, icmaların dirçəlməsinə və bölgələrin canlanmasına mühüm töhfə verir. Ölkəmizdə kənd turizminin inkişafı həm iqtisadi, həm də sosial baxımdan diqqətəlayiq təsirlər yaradır.

Turizmin bu sahəsi iqtisadi təsiri ilk növbədə yeni gəlir mənbələrinin formalaşması ilə özünü göstərir. Ənənəvi olaraq kəndlərdə insanlar əsasən əkinçilik, heyvandarlıq və meşə təsərrüfatı ilə məşğul olurlar. Lakin turizmin inkişafı bu təsərrüfat fəaliyyətlərini tamamlayaraq alternativ qazanc imkanları təqdim edir. Yerli sakinlər turistlərə evlərini kirayə verə, qonaqpərvərlik xidməti göstərə, yerli məhsul və əl işləri sata bilərlər. Bu, həm kənddə işsizlik səviyyəsini azaldır, həm də gənclərin və qadınların iqtisadi fəaliyyətə daha fəal cəlb olunmasına şərait yaradır. Turizm gəlirləri kəndlərdə dövriyyəyə daxil olur, kiçik bizneslər yaranır və yerli iqtisadiyyat tədricən şaxələnir.

Turistlərin bölgəyə axını yerli bazarların genişlənməsinə, kənd məhsullarının daha dəyərli şəkildə təqdim olunmasına və yeni biznes təşəbbüslərinin yaranmasına şərait yaradır. Məsələn, kəndlərdə qonaq evləri, çay evləri, restoranlar, sənətkarlıq emalatxanaları və kənd sərgiləri yaranır ki, bunlar da həm yerli iqtisadiyyatın güclənməsinə, həm də turizmdən əldə edilən gəlirin kənddə qalmasına xidmət edir. Bu tip fəaliyyətlər zəncirvari təsir yaradır, bir sahədə inkişaf digər sahələrə də təkan verir. Beləliklə, kənd ərazilərində iqtisadi struktur tədricən şaxələnir və daha dayanıqlı formaya düşür.

Kənd turizmi eyni zamanda infrastrukturun inkişafına təkan verir. Turistlərin rahatlığı üçün yollar təmir olunur, rabitə və internet imkanları genişlənir, ictimai obyektlər yenilənir. Bu infrastruktur təkmilləşmələri yalnız turistlər üçün deyil, kənd sakinləri üçün də gündəlik həyatı asanlaşdırır. Sosial xidmətlərin keyfiyyəti artır, kəndlərin ümumi yaşayış səviyyəsi yüksəlir.

Sosial baxımdan kənd turizminin müsbət təsirləri daha dərindir. Əvvəla, turizm yerli sakinlər arasında mədəni dəyərlərə olan marağı artırır. Adət-ənənələr, xalq sənətkarlığı, folklor, milli geyimlər və yeməklər turizm sayəsində daha görünən və qorunan hala gəlir. İnsanlar öz kimliklərini və mədəni irslərini qorumağa daha çox təşəbbüs göstərir, bu isə mədəni özünüdərkin möhkəmlənməsinə səbəb olur. Yerli icmalarda qürur hissi artır, gənclər öz kəndlərinə bağlı qalmağa başlayır.

Kənd turizmi icmalar arasında əməkdaşlıq ruhunu da gücləndirir. Məsələn, ailələr birgə tədbirlər təşkil edir, qonaq evləri şəbəkəsi qurur, yerli yarmarkalar və festivallar keçirirlər. Bu həm ictimai birliyi gücləndirir, həm də yerli identikliyi möhkəmləndirir. Sosial münasibətlərdə canlanma və kollektiv təşəbbüskarlıq artır. Turistlərlə təmaslar həm də dünyagörüşün genişlənməsinə səbəb olur, yerli insanlar yeni mədəniyyətlər və həyat tərzləri ilə tanış olur, ünsiyyət bacarıqları formalaşır.

Kənd turizmi ətraf mühitin qorunmasına da dolayı təsir göstərir. Turizm vasitəsilə təbiətin və mədəni irsin dəyəri daha çox dərk olunur, yerli əhali bu dəyərləri qorumağa və gələcək nəsillərə ötürməyə daha çox maraq göstərir. Davamlı turizm anlayışı, yəni təbiətə zərər vermədən, ətraf mühiti qoruyaraq turizmi inkişaf etdirmək getdikcə daha aktual olur. Bu, həm turizm sektorunun uzunmüddətli sabitliyini, həm də ekologiyanın qorunmasını təmin edir.

Nəticə etibarilə, kənd turizmi yalnız bir istirahət forması deyil, eyni zamanda kəndlərin inkişafı üçün güclü bir vasitədir. Azərbaycanda bu sahənin düzgün və davamlı inkişafı regionların iqtisadi dirçəlişini, mədəni irsin qorunmasını və sosial rifahın artmasını təmin edə bilər. Kəndlərimizin təbii gözəlliklərini və mədəni zənginliyini turizm vasitəsilə tanıtmaqla, biz həm də gələcəyin daha balanslı və ədalətli inkişafına töhfə vermiş olarıq.

Deməli, kənd turizmi iqtisadi baxımdan kəndlərə yeni gəlir axını və biznes imkanları gətirdiyi kimi, sosial baxımdan da mədəni irsin qorunması, icma həmrəyliyinin möhkəmləndirilməsi və həyat keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm rol oynayır. Əgər bu sahə düzgün şəkildə idarə olunsa və davamlı inkişaf prinsiplərinə əsaslansa, kənd turizmi həm regionların dirçəlməsi, həm də ümumilikdə Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli bir rol oynamağa davam edəcək.

Bütün bunlara baxmayaraq, kənd turizmi ölkəmizdə arzu etdiyimiz səviyyədə deyil. Çünki inkişafı bəzi çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri infrastrukturun hələ də bəzi yerlərdə zəif olmasıdır. Kəndlərin bir çoxunda yolların bərbad vəziyyətdə olması, internet və rabitə imkanlarının məhdudluğu, sanitariya şəraitinin qeyri-kafi olması turistlərin rahatlığını azaldır. Digər bir problem isə maarifləndirmə və təbliğatın zəif aparılmasıdır. Azərbaycanın kəndlərinin turizm potensialı çox böyük olsa da, həm yerli əhali, həm də xarici turistlər bu imkanlar barədə kifayət qədər məlumatlı deyillər. Buna görə də güclü və hədəfli marketinq strategiyalarına ehtiyac duyulur.

Bundan başqa, turistlərə az xolesterollu və ətsiz yeməklər, dünyanın tanınmış mətbəxt nümunələri, ölkəmizin zəngin mətbəxindən geniş çeşitli yeməklər təklif edilmir. Etiraf etmək lazımdır ki, Azərbaycana gələn turistlər pitini, balıq ləvəngini, kabab və dolmanı çox sevirlər. Lakin onlara bu yeməkləri hər gün təklif etmək olmaz. Unudulmamalıdır ki, yeməklərin, içkilərin çeşidliyi və gigiyenik normalara cavab verməsi turistin əsas istəklərindəndir. Ucuz hotellərlə yanaşı, ucuz milli yeməklər təqdim edən restoran şəbəkələri yoxdur.

Bank xidmətlərinin arzu olunan səviyyədə olmaması Azərbaycanda kənd turizminin inkişafına mane olur. Məsələn, kəndlərdə turist xidmət yerlərinin yaxınlığında ATM-lər çox az saydadır və ya yoxdur. Bank sistemi regionlarda arzuolunan səviyyədə inkişaf etməyib. Bəzən standart bank xidmətilərindən faydalanmaq imkanları ya məhdud, ya da xeyli vaxt itkisi hesabına başa gəlir".

Ölkəmizdə kənd turizminin inkişafına mane olan digər səbəb isə onun mövsümü xarakter daşımasıdır. Məsələn, ölkədəki turizms obyektlərinin əksəriyyəti may ayından sentyabr ayınadək, yaxud da qış mövsümündə işləyir. Həmin obyektlər bağlanan zaman orada işləyən insanlar gedib başqa sahələrdə çalışırlar. Növbəti mövsümdə həmin şəxslərin əksəriyyəti yenidən turizm obyektinə qayıdıb keçmiş işləri ilə məşğul olmur, öz peşələrini dəyişirlər. Nəticədə sahibkarlar bu sektorda təcrübəsi olmayan yeni işçilər işə qəbul edirlər. Ən önəmlisi isə xidmət haqqının yüksək olmasıdır.

Nəticə etibarı ilə, kənd turizmi təkcə regionların sosial-iqtisadi inkişafı baxımından deyil, həm də ölkənin ümumi turizm strategiyasının bir hissəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Bu sahənin inkişafı ucqar kəndlərin boşalmasının qarşısını almaq, əhalinin rifahını artırmaq, iş yerləri yaratmaq və vergi daxilolmalarını artırmaq baxımından mühüm imkanlar yaradır. Ona görə də, turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi inkişaf etdirilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durmalıdır.

***Ə.PÜNHAN***
***XQ***

### Mütəxəssis rəyi



*Qəhrəman YUSUPOV,*

***"Kənd yaşıl turizminin inkişafına dəstək" İctimai Birliyinin sədri, Qarabağ Universitetinin müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

Azərbaycanda kənd turizmi hər zaman mövcud olub. Sosialist dövründən əvvəl şəhər sakinləri yay aylarında kənd evlərini icarəyə götürərək orada dincəlirdilər. Sovet dövründə də bu istirahət forması davam edib. Müstəqillik əldə olunduqdan sonra, xüsusilə 2000-ci illərdən başlayaraq kənd evlərində istirahət edənlərin sayı ilbəil artmağa başlayıb. Hazırda Nabran və ətraf qəsəbələrdə, İsmayıllı, Qəbələ, Masallı, Astara, Göygöl və digər rayonların kəndlərində yerli sakinlər evlərindəki otaqları və həyətyanı sahələrdəki köhnə tikililəri təmir edərək turistlərə kirayə verirlər. Hazırda kənd turizmi Aran rayonları istisna olmaqla, ölkəmizin demək olar ki, bütün bölgələrində geniş yayılıb. Bu sahəyə qoşulan kənd sakinlərinin sayı isə ilbəil artır.

Kənd turizminin inkişafı daxili turizmin gücləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu sahədə qeyri-hökumət təşkilatları (QHT) da müəyyən təşəbbüslərlə çıxış edirlər. Onlar müxtəlif qrant layihələri hesabına kənd turizm layihələri həyata keçirsələr də, bəzən bu təşkilatların nümayəndələri turizm və xüsusilə kənd turizmi haqqında yetərli bilik və təcrübəyə malik olmurlar. Nəticədə isə təlimlər səmərəsiz keçirilir və bu da turistlərə göstərilən xidmətlərin keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir.

Dövlət Turizm Agentliyi, Kənd Təsərrüfatı və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri kənd turizminin dəstəklənməsi məqsədilə müxtəlif layihələr həyata keçirirlər. Kənd yerlərində turizm fəaliyyəti ilə məşğul olan və ya bu sahəyə başlamaq istəyən ailələrə müəyyən məişət cihazları verilir, evlərində təmir işləri aparılır, aqroturizm fəaliyyəti ilə bağlı təlim və təcrübə mübadilələri təşkil olunur. Lakin bu dəstəyin nəticələrinin necə olduğu, turist sayının nə qədər artdığı, göstərilən xidmətlərin səviyyəsi və çeşidi barədə geniş ictimai məlumatlar mövcud deyil. Əgər bu cür məlumatlar mediada daha çox yayılsa, kənd turizminin ölkədəki vəziyyəti haqqında daha aydın təsəvvür formalaşa bilər.

Qeyd edək ki, Avropa ölkələrində kənd qonaq evləri sahibləri vergilərə güzəştli şəkildə cəlb olunur. Azərbaycanda isə kənd turizmi "Ailə kəndli təsərrüfatı haqqında" qanunla tənzimlənir. Bu qanuna əsasən, ailə kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddi bu təsərrüfatın bir üzvü üçün 5 min manat miqdarında müəyyən edilib. Yəni "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının qanununda müəyyən edilmiş fəaliyyət növləri daxilində göstərilmiş illik dövriyyə həcmindən artıq olduğu halda kəndli təsərrüfatı vergiyə cəlb olunmalıdır.

Hazırda işğaldan azad edilmiş ərazilərdə geniş bərpa və məskunlaşdırma işləri aparılır. Qarabağ bölgəsi kənd turizminin inkişafı üçün böyük potensiala malikdir. Gələcəkdə bu bölgədə yaşayan əhalinin əhəmiyyətli hissəsinin turizmlə məşğul olacağı gözlənilir. Artıq Qarabağ Universitetində "Turizm işinin təşkili" ixtisası üzrə kadr hazırlığına başlanılıb. Bölgədə fəaliyyət göstərən 3 beynəlxalq aeroport isə xarici turistlərin birbaşa gəlişi üçün imkan yaradır. Bu imkanlardan səmərəli istifadə üçün əsas şərtlərdən biri isə yerli turizm şirkətlərinin xarici tərəfdaşlarla peşəkar əməkdaşlıq qura bilməsidir.

Onu da qeyd edim ki, Avropada turistlər, xüsusilə daxili turizmi seçənlər, istirahət üçün kənd qonaq evlərinə üstünlük verirlər. Əcnəbi turistlərin də Azərbaycanın kənd evlərində yerləşməsi onlara ölkəmizin qonaqpərvərliyini və mədəniyyətini daha yaxından tanımaq imkanı yaradır. Bu isə həm milli mədəniyyətin tanıdılması, həm də kənd yerlərində iqtisadi aktivliyin artırılması baxımından böyük əhəmiyyət daşıyır.

# Almaniya və Britaniyanın yeni təhlükəsizlik sazişi

## *Avropanın müdafiə arxitekturası necə dəyişir?*



**Avropanın aparıcı güclərindən olan Almaniya və Böyük Britaniya təhlükəsizlik və müdafiə sahəsində strateji əməkdaşlığı dərinləşdirən qarşılıqlı müdafiə sazişi imzalayıblar. Sənəd Londonda Almaniya kansleri Fridrix Merts və Böyük Britaniyanın baş naziri Kir Starmer arasında razılaşdırılıb. İmzalanmış sənəd hərbi hücum halında tərəflərin bir-birinə yardım etməsini nəzərdə tutur və bu baxımdan post-NATO dövrünün mümkün ilkin konturlarından biri kimi dəyərləndirilir.**

Razılaşmanın konteksti təsadüfi deyil. Rusiya–Ukrayna müharibəsinin davam etməsi, ABŞ-da Donald Trampın NATO-ya münasibətdə sərgilədiyi skeptik yanaşma və Alyansın kollektiv müdafiə öhdəlikləri ilə bağlı Avropada artan narahatlıq, Berlin və Londonu yeni təşəbbüslərə sövq edib. "Bloomberg"in məlumatına görə, sənəd NATO-nun yerini tutmaq məqsədi daşımır. Lakin Avropa daxilində təhlükəsizlik baxımından yeni strateji istiqamətin formalaşmasına zəmin yaradır.

Sazişin nüvə aspektləri açıq şəkildə qeyd olunmasa da, tərəflər uzaqmənzilli raket sistemlərinin birgə hazırlanması və istehsalında əməkdaşlıq edəcəklər. Söhbət 2000 kilometrdən artıq məsafəni vura biləcək raketlərdən gedir ki, bu da Avropa üçün strateji çəkindiricilik imkanlarını genişləndirə bilər.

Böyük Britaniyanın nüvə silahına malik olması, Fransadan sonra bu sahədə yeganə Avropa dövləti olması baxımından, Berlin üçün bu tərəfdaşlıq müstəqil nüvə strategiyası barədə debatları yenidən alovlandırıb. Xristian-Demokrat İttifaqının liderlərindən Yens Şpan deyib ki, "Kim ki, nüvə çəkindiriciliyinə malik deyil, o, geosiyasi şahmat lövhəsində, sadəcə piyada olacaq".

Razılaşma yalnız raket proqramı ilə məhdudlaşmır. Tərəflər həmçinin "Eurofighter Typhoon" qırıcılarının, "Airbus A400M" nəqliyyat təyyarələrinin və "Boxer" zirehli texnikasının birgə istehsalını və üçüncü ölkələrə ixracını da planlaşdırır. Bu əməkdaşlıq Avropa müdafiə sənayesinin gücləndirilməsi, innovativ texnologiyaların paylaşılması və ixrac bazarlarının şaxələndirilməsi baxımından əhəmiyyətlidir.

Avropada təhlükəsizlik arxitekturasının yenidən dizayn olunması ideyası təkcə siyasi yox, həm də hərbi-texniki səviyyədə aktuallaşır. Polşanın keçmiş milli təhlükəsizlik müşaviri general Stanislav Kozey bu kontekstdə bildirib ki, "Əgər ABŞ Avropaya hərbi zəmanətlərdən geri çəkilərsə, NATO daxilində dağılma baş verə bilər və bu halda Avropa öz təhlükəsizlik strukturunu formalaşdırmağa məcbur olacaq".

Kozeyin fikrincə, bu struktur NATO kimi ortaq ordu deyil, əməliyyat qabiliyyətli, çevik və koordinasiyalı reaksiya sistemindən ibarət ola bilər. Bu isə yeni bir "Avro-NATO" modelinin ortaya çıxmasına səbəb ola bilər.

Siyasi analitiklər Berlin–London sazişini "Avropada "strateji avtonomluq" ideyasının reallaşmasına atılmış real addım kimi qiymətləndirirlər. AUKUS və digər təhlükəsizlik koalisiyalarında mövqeyini gücləndirən Britaniya ilə "Zeitenwende" (zaman dəyişikliyi) siyasətini aparan Almaniyanın bu yaxınlaşması Avropanın təhlükəsizlik gündəmində prioritetlərin dəyişdiyini göstərir.

Bir sözlə, Londonda imzalanan bu sənəd təkcə iki ölkə arasında hərbi razılaşma deyil, həm də Avropa təhlükəsizlik sisteminin gələcəyi üçün strateji mesaj daşıyır. Bu saziş NATO-nun tamamlayıcısı kimi fəaliyyət göstərə bilər, lakin eyni zamanda, ABŞ-ın zəifləyən maraqları fonunda Avropa İttifaqının özünəməxsus müdafiə kimliyinin formalaşması üçün bir platforma ola bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 148 (30842) 20 iyul 2025-ci il, bazar

## İDMAN

## Sabir və Fidan bayraqdar olacaqlar



**Türkiyənin İstanbul şəhərində 4 gün sonra təşkil ediləcək Avropa Gənclər Paralimpiya Oyunlarının açılış mərasimində Azərbaycanın bayraqdarları müəyyənləşib.**

Milli Paralimpiya Komitəsindən mətbuata verilən məlumata görə, paratekvando üzrə Paralimpiya Oyunlarının bürünc medalçısı Sabir Zeynalov və boccia üzrə idmançı Fidan Səfquliyeva Azərbaycan bayrağını daşıyacaqlar.

Qeyd edək ki, açılış mərasimi iyulun 24-də, Cebeci İdman Kompleksində keçiriləcək.

## "Milli mətbuat-150" mini futbol turniri



**"Qarabağ" klubunun təşkilatçılığı ilə Milli Mətbuatın 150 illiyinə həsr olunan mini futbol turniri keçirilib. 2 gün davam edən görüşlərdə 6 komanda qalib adı uğrunda mübarizə aparıb.**

Finalda "J Yunayted" komandasını 9:3 hesabı ilə məğlub edən "İnternasional" kollektivi yarışın qalibi olub. 3-cü yer uğrunda matçda isə "CanSports" "Media Star" üzərində böyükhesablı qələbə qazanıb - 17:5.

"Futbol +" komandası turniri 5-ci, "Qalaksi" isə 6-cı yerdə tamamlayıb.

## Bədii gimnastlarımızın Almaniya uğuru




**Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandasının məşqçisi Elnara Hüseynova Almaniyanın Reyn-Rur regionunda keçirilən Ümumdünya Yay Universiadasında qızıl medal qazanmalarını "böyük uğur" adlandırıb.**

Qrup hərəkətləri komandasının üzvü Güllü Ağalarzadə komandanın hər bir üzvünün çox sevindiyini söyləyib: "Avqustun sonunda dünya çempionatı keçiriləcək. Universiada mundiala hazırlıq prosesidir. İlk medalımızı qazandığımız üçün çox xoşbəxtik. İnanıram ki, bu uğurumuz digər idmançılara da stimul olacaq. Sabah (bu gün-müəllif) iki finalda çıxış edəcəyik. Ümid edirəm ki, səhvsiz başa vuracağıq".

Qeyd edək ki, universiada iyulun 27-də başa çatacaq.

*MH ACIXANLI*
*XQ*

20 İyul Beynəlxalq Şahmat Günüdür

# Bu gün dünya "Şahı mat qoyan" oyundan danışacaq

**İqamətgahı İsveçrənin Lozanna şəhərində yerləşən və 1924-cü il iyulun 20-də Parisdə yaradılmış Beynəlxalq Şahmat Federasiyasının (FİDE) bu gün 101 yaşı tamam olur. Hazırda sıralarında 200-dən çox milli federasiyanı birləşdirən FİDE dünyanın ən ali idman təşkilatlarından biri kimi böyük şöhrət sahibidir. Beynəlxalq Şahmat Günü də məhz onun şərəfinə 1966-cı il iyulun 20-dən etibarən planetin bütün guşələrində yüksək əhval-ruhiyyə şəraitində, qədim və müdrik oyuna sevgi ilə qeyd olunur.**




Artıq 1 əsr və 1 ilə bərabər tarixi ilə qürur duyan ümumdünya şahmatçılar ailəsinin ən fəal üzvlərindən biri də, şübhəsiz, Azərbaycan Şahmat Federasiyasıdır (AŞF).

Ölkəmizin dövlət müstəqilliyinin ilk dövründən, 1992-ci ildən, yəni artıq 33 ildir ki, Beynəlxalq Şahmat Federasiyasının üzvü olan AŞF bu gün respublikada zəka sahiblərini öz ətrafında sıx birləşdirib, Azərbaycan şahmatının uğurlarının və beynəlxalq nüfuzunun durmadan artması istiqamətində inamlı addımlar atır.

bugünkü uğurları və yüksək nüfuzu 51 il əvvəl respublika idmanında baş vermiş bir tarixi hadisə ilə sıx bağlıdır. 1974-cü il iyunun 21-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş respublika partiya fəalları yığıncağında bədən tərbiyəsi-idmanın vəziyyəti və onu daha da yaxşılaşdırmaq yolları üçün təxirəsalınmaz tədbirlərin görülməsi zərurəti hərtərəfli müzakirə olunduqdan sonra işdə ciddi dönüş yaradılmağa başlandı, idmanın digər sahələri kimi, şahmatın da inkişafına



Bu gün AŞF prezidenti, eyni zamanda, FİDE-nin vitse-prezidenti Mahir Məmmədov, 1-ci vitse-prezident, 60 il 149 günlük uzunmüddətli hakimlik fəaliyyəti sayəsində ötən baharda "Ginnesin Rekordlar Kitabı"na düşmüş beynəlxalq dərəcəli hakim Faiq Həsənov və onların həmkarları ölkəmizin dünya şahmatında daim qabaqcıl mövqelərdə olması üçün təcrübələrini əsirgəmirlər.

Dünyanın sayılıb-seçilən milli federasiyalarından biri olan AŞF-nin

diqqət daha da artdı. Nəticədə tezliklə Azərbaycanın bir çox şəhər və rayonunda şahmat məktəbləri tikilib istifadəyə verildi, uşaq və yeniyetmələr təcrübəli mütəxəssislərin rəhbərliyi ilə bu gözəl oyunla daha böyük həvəslə məşğul olmağa başladılar.

Təsadüfi deyil ki, bu gün Azərbaycan qədim mədəniyyəti kimi, zəngin şahmat ənənələri ilə də dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmiz fəxrlə üçqat Avropa çempionu adını daşıyan kişilərdən ibarət milli komandamızın – Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, həyatı və şahmatı çox tez, istedadının sürətlə çiçəkləndiyi bir vaxtda tərk edən Vüqar Həşimov, Rauf Məmmədov, Qədir Hüseynov, Eltac Səfərli kimi məşhur qrossmeysterlərin vətənidir.

Bu komanda 2017-ci ilin payızında Yunanıstanın Krit adasında keçirilən Avropa çempionatında üçüncü dəfə zirvəni fəth edib, Bakıya qayıtdıqdan dərhal sonra Prezident İlham Əliyev çempionları qəbul etmiş və onların uğurunu çox yüksək qiymətləndirmişdi:

– Avropa qitəsində şahmat sahəsində birinci olmaq, özü də üçüncü dəfə birinci olmaq, doğrudan da, böyük tarixi qələbədir.

Hələ SSRİ dövründə, XX əsrin 70–90-cı illərində Azərbaycanda qadın şahmatının parlaq simaları olmuş Aynur Sofiyeva, İlahə Qədimova və Firuzə Vəlixanlıdan ibarət yığma komandamızın iştirak etdiyi elə ilk Avropa çempionatının bürünc mükafatçısı olması da yaddan çıxmayıb. Onda hələ çox gənc olan bu rəfiqələrin 1992-ci ildə Macarıstanın Debretsen şəhərində təşkil edilən qitə birinciliyindən gətirdikləri bürünc medallar nəyə desən dəyərdi. Komanda elə ilk cəhddə Avropa çempionatında 38 ölkənin rəqabətində fəxri kürsüyə yüksəlməyi bacarmışdı.

Hazırda Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini və AŞF İcraiyyə Komitəsinin üzvü A.Sofiyeva, eləcə də, federasiyanın baş katibi İ.Qədimova yenə də sevimli idman növünün respublikada daha da inkişafına öz töhfələrini verirlər.

Azərbaycan şahmatında ənənələr davam edir və getdikcə daha da möhkəmlənir. Bu gün ölkəmizdə on minlərlə insan qədim və müdrik oyunla məşğul olur, rəsmi birinciliklərdə, əlamətdar günlər münasibətilə keçirilən tədbirlərdə, xatirə yarışlarında mübarizə aparır. Respublikanın şəhər və rayonlarında, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda xarici ölkələrin nümayəndələrinin də məmnuniyyətlə iştirak etdikləri turnirlər bir-birini əvəz edir. Zəka sahiblərinin oyunu qəlblərdə özünə möhkəm yer etmişdir.

Milli mətbuatımızın 150 illik yubileyi münasibətilə Gənclər və İdman Nazirliyinin, Azərbaycan Şahmat Federasiyasının təşkilatçılığı ilə bugünlərdə Respublika Şahmat Mərkəzində jurnalistlər arasında keçirilmiş turnir də ölkədə idmanın bu növünün təbliğinə və inkişafına diqqətlə yanaşan gənc həmkarlarımın lövhə arxasında bacarıqlarını yoxlamağa biganə qalmadıqlarını təsdiq etdi.

...Bu gün yenə dünya şahmatının bayramıdır. Gününüz mübarək, qədim və gözəl oyunun pərəstişkarları!

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Milli dövlətçiliyin hədəfləri "Yay Fest 2025" düşərgəsində



**"Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Yay Fest 2025" düşərgəsi 250 gənci bir araya gətirib. Festival çərçivəsində gənclər Konstitusiya prinsipləri və dövlətçilik ənənələrinin təbliği, milli suverenlik və hüquqi dəyərlərin qorunması kimi mühüm mövzular barədə maarifləndirilir, müxtəlif fəaliyyətlərə cəlb olunurlar.**

Düşərgə müddətində təşkil edilən "Milli dəyərlər və ulu öndər Heydər Əliyev irsi" mövzusunda görüş gənclərin tarixi irs və milli kimlik anlayışına dair biliklərinin dərinləşdirilməsinə xidmət edib. Təlim və panel görüşləri arasında "Zamanın idarə olunması və məqsədyönlülük", "İçindəki lideri kəşf et" və "Mikrofona deyil, ürəklərə danış" kimi motivasiyaverici sessiyalar, "Səhnədən həyata: Yaradıcı ifadənin gücü", "Könüllü təşkilatların həmrəylik modeli" və "Süni intellekt və gələcəyin bacarıqları" adlı interaktiv müzakirələr iştirakçıların yüksək marağına səbəb olub.

Avqustun 29-dək davam edəcək festival çərçivəsində "Milli-mənəvi dəyərlər", "Həmrəylik", "Humanizm", "Ədalət və qanun", "İnkişaf", "Vətənpərvərlik", "Müstəqillik tarixi" və "Qalib diplomatiya" mövzularında mərhələli şəkildə 8 düşərgə keçiriləcək. Bu unikal platforma ümumilikdə 2000-dən çox gənci əhatə edəcək.

Xatırladaq ki, "Yay Fest 2025" Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "IDEA" İctimai Birliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı və "Gənc Könüllülər" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilir.

*XQ*

# Qızmar bir bazar günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-26 dərəcə isti, gündüz 35-38 dərəcə, yarımadanın bəzi yerlərində 40 dərəcəyə yaxın isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 753 mm civə sütununa enəcək.**

Nisbi rütubət gecə 65-75 faiz, gündüz 35-45 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman, mülayim şərq küləyi əsəcək, havanın temperaturu gecə 22-27 dərəcə isti, gündüz 36-41 dərəcə isti, dağlarda gecə 11-16 dərəcə isti, gündüz 28-33 dərəcə isti olacaq.

*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3246
SİFARİŞ 1645
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00